RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 39 (9206) 21 FEVRAL 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmasından 6 il ötür

# Böyük ürək, mərhəmətli qəlb sahibi



## Çoxcəhətli və çoxşaxəli fəaliyyətin unudulmaz məqamları

**Azərbaycanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanı sevməyən, ona hörmət və ehtiram bəsləməyən tapılmaz!**

**Mehriban xanım Əliyeva bu sevgini öz işi, əməli, yorulmaz və çoxcəhətli fəaliyyəti, insanlara arxa və dayaq durması, mərhəmət və xeyirxahlığı ilə qazanıb!**

*Mehriban xanım Əliyevanın gözəl nitq qabiliyyəti, aydın diksiyası, fikrini dəqiq ifadə etmək bacarığı var.*

*Amma uzun danışmağı, geniş nitq söyləməyi sevmir!*

*Sözünü əməli işi, gərgin və çoxcəhətli fəaliyyəti ilə əvəz edir, real, əməli işə daha çox üstünlük verir.*

Həm də təbiətən təvazökardır...

Bəzən geniş ictimaiyyətin hansı layihənin harada icrasına başlandığından xəbəri olmur.

Yalnız açılış mərasimində necə bir gərəkli obyektin fəaliyyətə başladığını bilirik.

**Çünki əsas məqsəd göstərmək yox, gərəkli olanı etmək, insanlara sevinc və rahatlıq bəxş etmək, istəklərini gerçəkləşdirməkdir!**

**Mehriban xanım Əliyeva 44 günlük Vətən müharibəsinin iştirakçısı oldu.**

**Bir yerdə qərar tutub dayana bilmədi, hərdən hərbi paltar geyinərək hərbçilərlə görüşə də getdi.**

Müharibədə şəhidlərlə bərabər, yaralılar da çox olur!

Həm də ən müxtəlif ağırlıq dərəcələrində.

*Yaralı insana dərman qədər xoş sözlər də təsir edir!*

Biz bunları həm də yarası sağalmış, yenidən normal həyata qayıtmış hərbçilərimizin dilindən dəfələrlə eşitmişik!

**Mehriban xanım Əliyeva daim hospitallara baş çəkdi, yaralılarla həmsöhbət oldu, arzu və istəklərini yerinə yetirmək üçün əlindən gələni əsirgəmədi.**

→ 5

# İlham Əliyevin mühüm diplomatik qələbəsi

## Münhen Təhlükəsizlik Konfransı Azərbaycanın güclü siyasi iradəsini bir daha ortaya qoydu

Beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi baxımından Münhen Təhlükəsizlik Konfransı böyük önəm daşıyır. Budəfəki konfrans çərçivəsində də Prezident İlham Əliyevin "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı xüsusi diqqət çəkdi.

Zaman-zaman Azərbaycanın ünvanına söylənən qərəzli və ikili standartlara söykənən fikirlərə bu iclasda da rast gəlindi. Lakin Prezident İlham Əliyevin dəqiq, əsaslı arqumentləri bütün qərəzli yanaşmalara tutarlı cavab oldu.

→ 4

# Azərbaycanın Ermənistana növbəti tarixi dərsi

## İlham Əliyev Münhendə Paşinyanı yenidən siyasi "nokaut"a uğratdı

Ötən şənbə Prezident İlham Əliyevin Münhendə Nikol Paşinyana növbəti dəfə tarixi dərs keçməsi ilə yaddaşlara həkk olundu. Azərbaycan Prezidenti fevralın 18-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda Ermənistan baş nazirinin beynəlxalq ictimaiyyəti aldatmağa, sülh danışıqlarından yayınmağa yönəlik cəhdlərini ifşa etdi, iclas boyu yazıq, fağır cildinə girərək əyri oturub yalan danışan hiyləgər Paşinyana tutarlı dərs verdi.

→ 4

# Beynəlxalq Ədalət Məhkəməsinin Azərbaycanın müraciəti üzrə qərarının vaxtı açıqlanıb

Xəbər verdiyimiz kimi, yanvarın 31-də "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın (CERD) tətbiqi ilə bağlı iş üzrə Azərbaycan Respublikasının Beynəlxalq Ədalət Məhkəməsinə ünvanladığı müvəqqəti tədbirlərin təyin edilməsinə dair müraciət üzrə ictimai dinləmələr başa çatıb.

AZƏRTAC xəbər verir ki, bu gün müvəqqəti tədbirlərin görülməsi barədə vəsatətlə bağlı məhkəmə qərarının elan ediləcəyi tarix açıqlanıb. Belə ki, qərar fevralın 22-də Haaqa Sülh Sarayında keçiriləcək iclasda elan olunacaq. Qərarı iclasa sədrlik edəcək hakim Joan E. Donoghue oxuyacaq.



# Mehriban missiya

## Birinci vitse-prezidentin təşəbbüsü ilə yaradılan 2 nömrəli Uşaq Reabilitasiya Mərkəzi çarəsiz xəstəliklərdən əziyyət çəkən uşaqların yaşama tutunduqları ünvana çevrilib

Sumqayıtda yaşayan Əfsanə Mirzəyevanın 6 yaşlı övladı da ağır diaqnozlu uşaq serebral iflicidir. O, övladını "Rehabus" layihəsi çərçivəsində həftədə iki dəfə müalicə üçün bu mərkəzə gətirir. Valideyn bildirir ki, cəmi 3 prosedurdan keçmələrinə baxmayaraq, oğlunda müəyyən irəliləyişlər hiss edir: "Allah heç kəsi övladı ilə sınağa çəkməsin, bu, təsviri mümkünsüz dərddir. Amma Mehriban xanım Əliyevanın timsalında dövlətimizin bizim kimi çarəsiz valideynlərə daim dəstək, dayaq durması bu çətin sınağa sinə gərməyimizə kömək olur. Bu mərkəzdə övladlarımız üçün yaratdığı yüksək şəraitə görə Mehriban xanıma minnətdarlığımız sonsuzdur. Onun uşaqlara olan tükənməz sevgisini, qayğısını hər zaman hiss edirik".

→ 8



# Günəşlər

## Daun sindromlu uşaqlar Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunublar

Onlara "Günəşin övladları" da deyirlər...

Bu şirin və ünsiyyətcil uşaqlar bizi çöhrələrində təbəssüm, gözlərində ümid işığı ilə qarşılayırlar. Dağınıq baxışlarına rəğmən, gözlərindəki işığı görməmək mümkün deyil. Hər kəslə mehriban ünsiyyət qurmaq onlara xas olan xüsusiyyətdəndir. Xoş duyğularını göstərməyi bacarır və hər kəsdən göstərdikləri sevginin qarşılığını gözləyirlər.

Bu dostlarımızın arzu və istəkləri isə özləri kimi balaca olmasa da, hər birinə xas olan xüsusi mimika və jestləri ilə şipşirindir. Onlar əsgər gedib torpaqlarımızın keşiyində durmaq, həkim olub insanlara çarə olmaq, rəssam kimi görə bilmədiklərimizi çəkib bizə göstərmək istəyirlər. O balaca ürəkləri ilə necə böyük hədəflər müəyyən ediblər...

→ 9



# "Mehriban xanımın qayğısı ilə yenidən həyata döndük"

## Yüksəkkeyfiyyətli protezlərlə təmin olunan Vətən müharibəsi əlilləri Birinci vitse-prezidentə minnətdardırlar

Müharibə əlillərinin yerli və xarici xəstəxanalarda müalicə olunmasında, onların ən müasir protezlərlə təmin edilməsində, həmçinin müharibədə yaralanan hərbçilərə yeni mənzillər, fərdi evlər və avtomobillər təqdim olunmasında Birinci vitse-prezident Mehriban Əliyevanın xidmətləri böyükdür. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyət sferasında Vətənimizin azadlığı uğrunda canından keçən və yaralanan igidlərimizə qarşı diqqət və qayğının önəmli yer tutması onun dövlətimizə və xalqımıza uğurlu xidmətindən xəbər verir. Birinci xanımın təşəbbüskarı olduğu böyük miqyaslı işlər Azərbaycan qadınının işgüzarlığının, yüksək intellektinin, mehribanlığı və canayaxınlığının mükəmməl nümunəsidir. Mehriban Əliyeva tərəfindən irəli sürülmüş hər bir təşəbbüs Azərbaycan xalqının firavan yaşamasına istiqamətlənib və bu, adımızı zirvələrə ucaldır.

→ 10

# Türkiyədə yenidən iki zəlzələ oldu

Dünən yerli vaxtla saat 20:04-də Türkiyənin Hatay vilayətində 6,4 bal gücündə zəlzələ olub. Saat 20:07-də vilayətin Samandağ rayonunda 5,8 bal gücündə daha bir zəlzələ baş verib.




Türkiyə Daxili İşlər Nazirliyinin Təbii Fəlakət və Fövqəladə Hallar Agentliyinin (AFAD) məlumatına istinadən "Anadolu" Agentliyi bu barədə xəbər verib. Episentri Hatay vilayətinin Defne rayonunda olan yeraltı təkanlar ətraf vilayətlərdə də hiss edilib. Birinci zəlzələnin ocağı 16,7 km, ikincinin isə 7 km dərinlikdə qeydə alınıb.

CNN Türk telekanalının verdiyi ilkin məlumata görə, Hatay vilayətində 8 nəfər yaralanıb.

Yeraltı təkanlar həm də Suriya, Livan, İordaniya, İraq, Fələstin, İsrail və Livanda hiss olunub.

# "Əzəl çərşənbə" - Su çərşənbəsi

Xalqımızın ulu bayramlarından ən möhtəşəmi olan Novruz erkən dövr mifik düşüncə və təsəvvürləri, ayin-etiqadları, inancları, mərasimləri özündə yaşadıb bu günümüzə yetirən humanizm, həmrəylik kimi bəşəri duyğuları qabarıq şəkildə göstərən mənəvi dəyərlər sistemidir. Novruz insana həyat verən, ilk insanın yaranmasında bilavasitə iştirak edən dörd müqəddəs varlığın adı ilə bağlıdır ki, bunlar Su, Od, Yel və Torpaqdır.

→ 15

# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında","Dövlət rüsumu haqqında","Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında","Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci, 15-ci, 20-ci və 25-ci bəndlərini rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30, № 5, maddə 814, № 8, maddə 1383; 2020, № 5, maddə 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1438; 2021, № 11, maddə 1204, № 12, maddə 1315; Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 678-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.0.5-ci maddədə "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi (sağlamlıq) sertifikatını, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışı" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişi, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, sağlamlıq sertifikatını, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədləri" sözləri ilə əvəz edilsin;

1.2. 92.2.3-cü maddədə "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı ilə, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarış ilə" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildiriş, Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, sağlamlıq sertifikatı, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlərlə" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 368; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddələr 676, 683, 686; 2002, № 5, maddə 241; 2003, № 1, maddə 1; 2004, № 1, maddə 6, № 2, maddə 57; 2005, № 8, maddə 684, № 12, maddə 1083; 2007, № 8, maddə 745; 2011, № 11, maddə 984; 2012, № 9, maddə 842; 2014, № 10, maddə 1157; 2017, № 5, maddə 722; 2018, № 6, maddə 1169; 2019, № 1, maddə 31, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambulada "habelə istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial" sözləri "istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsaslarını, habelə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci maddənin on üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on dördüncü abzas əlavə edilsin:

"əhalinin ərzaq təhlükəsizliyi - ölkə əhalisinin sağlamlığı və fəaliyyəti üçün vacib olan qida məhsullarına tələbatının təmin edilməsi məqsədi ilə dövlətin həyata keçirdiyi iqtisadi, hüquqi və təşkilati tədbirlər sistemi.";

2.3. 2-ci maddənin birinci abzasına "Məcəlləsindən," sözündən sonra "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunundan," sözləri əlavə edilsin;

2.4. 6-cı maddənin 2-ci hissəsinin ikinci abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

2.5. 7-ci maddənin 5-ci hissəsinin birinci abzasında "ərzaq malı" sözləri "qida məhsulu" sözləri ilə və ismin müvafiq hallarında "mal" sözü ismin müvafiq hallarında "məhsul" sözü ilə əvəz edilsin;

2.6. 10-cu maddənin 6-cı hissəsinin ikinci abzasının üçüncü cümləsində "ərzaq xammalı və məhsulları" sözləri "qida məhsulları" sözləri ilə, "təkrar emal" sözləri "utilizasiya" sözü ilə əvəz edilsin və həmin cümləyə "yararsız" sözündən sonra "və təhlükəli" sözləri əlavə edilsin;

2.7. 13-cü maddə üzrə:

2.7.1. 1-ci hissənin birinci abzasında "ərzaq malları" sözləri "qida məhsulları" sözləri ilə, "tərkibi, yararlılıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı" sözləri "qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, tərkibindəki allergenlər, mənşəyi" sözləri ilə əvəz edilsin;

2.7.2. 3-cü hissəyə aşağıdakı məzmunda beşinci cümlə əlavə edilsin:

"Qida məhsullarının etiketlənməsinə dair tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəyyən edilir.";

2.8. 15-ci maddənin 1-ci hissəsinin birinci abzasında "qeyri-ərzaq" sözləri "qeyri-qida" sözləri ilə əvəz edilsin;

2.9. 18.0.1-ci maddədə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

2.10. 19.2.7-ci maddədə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

2.11. aşağıdakı məzmunda V fəsil əlavə edilsin:

"V f ə s i l
ƏHALİNİN ƏRZAQ
TƏHLÜKƏSİZLİYİ

**Maddə 28. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi**

28.1. Azərbaycan dövləti beynəlxalq hüquq normalarına uyğun olaraq əhalinin və hər bir vətəndaşın ərzaq təhlükəsizliyini təmin edir.

28.2. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

**Maddə 29. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlətin vəzifələri**

29.1. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

29.1.1. qida məhsullarının istehsalının artırılması və ərzaq bazarının tənzimlənməsi sahəsində dövlət siyasətini formalaşdırmaq və həyata keçirmək;

29.1.2. əhalinin ərzaq təhlükəsizliyinə dair məqsədli dövlət proqramları hazırlamaq və icrasını təmin etmək;

29.1.3. qida məhsulları üzrə dövlət ehtiyatları yaratmaq, onların formalaşdırılmasını, saxlanılmasını, istifadəsini və tənzimlənməsini təşkil etmək;

29.1.4. qida məhsullarının istehsalını, istehlakını və dövriyyəsini özündə əks etdirən ərzaq balansı hazırlamaq və əhalinin qida məhsulları ilə təminatını proqnozlaşdırmaq;

29.1.5. ərzaq böhranı və fövqəladə hadisələr zamanı əhalinin qida məhsulları ilə təchizatını tənzimləmək, o cümlədən normativ ərzaq bölgüsünü və digər xüsusi təminat rejimlərini müəyyən etmək;

29.1.6. ərzaq bazarının tənzimlənməsi və qida məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində normativ-hüquqi aktlar qəbul etmək;

29.1.7. əhalinin qida məhsulları ilə təmin edilməsində dövlət orqanlarının və bələdiyyələrin fəaliyyətini əlaqələndirmək;

29.1.8. əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində digər vəzifələri həyata keçirmək.

**Maddə 30. Dövlət ərzaq ehtiyatları**

30.1. Dövlət ərzaq ehtiyatları əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yaradılır.

30.2. Dövlət ərzaq ehtiyatları dövlət və səfərbərlik ehtiyatlarının tərkib hissəsidir və aşağıdakı məqsədlər üçün istifadə edilir:

30.2.1. qanunla müəyyən edilmiş hallarda Azərbaycan Respublikasının qida məhsullarına olan ehtiyacını ödəmək;

30.2.2. iqtisadiyyatın sabitliyini təmin etmək məqsədilə qida sənayesinə, iqtisadiyyatın digər sahələrinə, idarələrinə və təşkilatlarına köməklik göstərmək;

30.2.3. ölkə əhalisinə, xarici dövlətlərə, ictimai və dini təşkilatlara humanitar yardım etmək.

30.3. Dövlət ərzaq ehtiyatlarının bu Qanunun 30.2.1-ci maddəsi ilə müəyyən edilmiş haldan başqa məqsədlər üçün istifadəsinə yol verilmir.

30.4. Dövlət ərzaq ehtiyatlarının tədarükü üçün illik büdcə proqnozlarında müvafiq vəsait həcmi nəzərdə tutulur.

30.5. Dövlət ərzaq ehtiyatlarına ərzaq tədarükü müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlarla (qurumlarla) istehsalçılar arasında bağlanılmış müqavilələr əsasında həyata keçirilir.

30.6. Dövlət ərzaq ehtiyatları müvafiq icra hakimiyyəti orqanının müəyən etdiyi orqanın (qurumun) sərəncamında olur.

30.7. Dövlət ərzaq ehtiyatlarının həcmi, nomenklaturası, formalaşdırılması, saxlanılması, istifadəsi və vaxtaşırı yeniləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 31. Ərzaq bazarının dövlət tənzimlənməsi**

31.1. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin hazırlanıb həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər il müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada ərzaq balansı tərtib olunur.

31.2. Ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına (tədarükünə) dair məlumatlar ildə bir dəfə, həmin məhsulların yetişdirildiyi istixanalar, saxlanıldığı soyuducu anbarlar və taxıl elevatorları barədə aylıq məlumatlar isə növbəti ayın 10-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində müəyyən edilmiş formada həmin sistemə daxil edilməlidir.

31.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müəyyən edilmiş məhsullara dair məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ərzaq balansının tərtibi ilə bağlı ildə bir dəfə verilən yazılı sorğusuna əsasən, ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması, idxalı, ixracı və satışı sahəsində fəaliyyət göstərən subyektlər 15 iş günü müddətində təqdim etməlidirlər.

31.4. Bu Qanunun 31.2-ci və 31.3-cü maddələrində müəyyən edilmiş məlumatları təqdim etməyən şəxslər qanunla müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb olunurlar.

31.5. Ərzaq bazarının dövlət tənzimlənməsi iqtisadi yollarla həyata keçirilir və aşağıdakıları nəzərdə tutur:

31.5.1. qida məhsulları istehsalının stimullaşdırılması, minimum keyfiyyət göstəricilərinin normalaşdırılması və sertifikatlaşdırılması;

31.5.2. qida zəncirində fəaliyyətin uçotu və nizamlanması;

31.5.3. ərzaq bazarında azad rəqabətin inkişaf etdirilməsi, haqsız rəqabətə yol verilməməsi və yerli istehsalçıların hüquq və mənafelərinin qorunması;

31.5.4. istehsalçıdan istehlakçılara çatdırılana qədər qida məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə nəzarət;

31.5.5. ərzaq proqramlarının hazırlanmasının və həyata keçirilməsinin xarici sərmayələr də cəlb edilməklə maliyyələşdirilməsi.".

**Maddə 3.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718,№ 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829; Azərbaycan Respublikasının 2022-ci il 11 oktyabr tarixli 609-VIQD nömrəli, 5 noyabr tarixli 622-VIQD nömrəli, 2 dekabr tarixli 671-VIQD nömrəli və 9 dekabr tarixli 681-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

3.1.18.66-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"18.66-1. Qida təhlükəsizliyi sahəsində:

18.66-1.1. ixrac edilən qida və yem məhsullarına sağlamlıq sertifikatının verilməsi - 25 manat;

18.66-1.2.Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsulu, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara idxal sağlamlıq aktının verilməsi - 25 manat;

18.66-1.3. qida obyektlərinin "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsinə əsasən təsdiq olunması ilə bağlı Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın verilməsi - 150 manat.";

3.2.18.67-1-ci maddə ləğv edilsin;

3.3. aşağıdakı məzmunda 19.6-cı maddə əlavə edilsin:

"19.6. Bu Qanunun 18.66-1.3-cü maddəsində göstərilən hərəkətlərə görə qida sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektlərindən, habelə bələdiyyə və dövlət orqanlarından (qurumlarından) dövlət rüsumu tutulmur.".

**Maddə 4.** "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında"Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 55; 2006, № 2, maddə 73; 2007, № 6, maddə 562; 2012, № 7, maddə 670; 2013,№ 11, maddə 1315; 2014, № 6, maddə 601; 2017, № 5, maddə 692, № 6, maddə 1039, №12 (I kitab), maddə 2216; 2022, № 8, maddə 823) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 17-ci maddədə "Elmi" sözü "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun 13.1-ci maddəsində nəzərdə tutulmuş genetik modifikasiya olunmuş orqanizmlər və yem məhsulları istisna olmaqla, elmi" sözləri ilə əvəz edilsin;

4.2. 18-ci maddədə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 56; 2005, № 4, maddə 273; 2006, № 2, maddə 73; 2007, № 6, maddə 562; 2013, № 3, maddə 210; 2014, № 6, maddə 602; 2016, № 6, maddə 994; 2017, № 6, maddə 1040; 2022, № 8, maddə 823) aşağıdakı dəyişikliklər edilsin:

5.1.16-cı maddədə "Elmi" sözü "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun 13.1-ci maddəsində nəzərdə tutulmuş genetik modifikasiya olunmuş orqanizmlər və yem məhsulları istisna olmaqla, elmi" sözləri ilə əvəz edilsin;

5.2. 17-ci maddədə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 682; 2007, № 12, maddə 1218; 2008, № 2, maddə 49, № 5, maddə 344; 2009, № 12, maddələr 948, 968; 2014, № 10, maddə 1151; 2018, № 4, maddə 640, № 12(I kitab), maddə 2490; 2019, № 6, maddə 995, № 8, maddə 1360; 2020, № 5, maddə 521; 2021, № 6 (I kitab), maddə 557, № 12, maddə 1315) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.0.11-ci maddədə "yem və yem əlavələri" sözləri "yem məhsulları və yem əlavələri" sözləri ilə əvəz edilsin;

6.2. 1.0.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.0.16-cı və 1.0.17-ci maddələr əlavə edilsin:

"1.0.16. yem məhsulları - heyvanların qidalanmasında istifadə olunan emal olunmamış, yarımemal olunmuş və tam emal olunmuş məhsullar, maddələr və yem əlavələri;

1.0.17. yem əlavələri - yem məhsuluna və suya məqsədli şəkildə əlavə olunan, heyvanların rasionunda çatışmayan qida maddələrinin, mineralların və vitaminlərin mənbəyi kimi istifadə olunan üzvi, mineral və (və ya) sintetik mənşəli maddələr.";

6.3. 3.0.6-cı maddədə "yem və" sözləri "yem məhsullarının və" sözləri ilə əvəz edilsin;

6.4. 12.0.3-cü maddədə"yem və" sözləri "yem məhsulları və" sözləri ilə əvəz edilsin;

6.5.13.1.8-ci maddədə", keyfiyyətsiz baytarlıq preparatlarının, yem və yem əlavələrinin" sözləri "və keyfiyyətsiz baytarlıq preparatlarının" sözləri ilə əvəz edilsin;

6.6. 14.6-cı maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İdxalçı ölkələr tələb etdiyi hallarda ixrac olunan heyvan mənşəli qida məhsullarına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən sağlamlıq sertifikatı həmin məhsulların qida təhlükəsizliyi göstəriciləri ilə yanaşı, heyvan sağlamlığı göstəricilərinə uyğunluğunu da təsdiq edə bilər.";

6.7. 18-ci maddə üzrə:

6.7.1. 18-ci maddənin adında ", yem və yem əlavələrinin" sözləri "qeydiyyatına və" sözləri ilə əvəz edilsin;

6.7.2. 18.1-ci maddədə "preparatları, yem və yem əlavələrinin" sözləri "preparatlarının"sözü ilə əvəz edilsin;

6.7.3. 18.2-ci maddənin birinci cümləsində "preparatları, yem və yem əlavələri" sözləri "preparatlarını" sözü ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsindən ", yem və yem əlavələri" sözləri çıxarılsın;

6.7.4. 18.3-cü maddədən ", yem və yem əlavələrinin" sözləri çıxarılsın;

6.7.5. 18.4-cü və 18.6-cı maddələrdə "preparatları, yem və yem əlavələrinin" sözləri "preparatlarının" sözü ilə əvəz edilsin;

6.8. 19.0.2-ci maddədə "yem və" sözləri "yem məhsullarını və" sözləri ilə əvəz edilsin;

6.9. 19.0.5-ci maddədən, 26-cı maddənin adından, 26.2-ci və 39.2.2-ci maddələrdən "yem və" sözləri çıxarılsın;

6.10. 19.0.11-ci, 20.1.1-ci və 24.3-cü maddələrdə "yem və" sözləri "yem məhsullarının və" sözləri ilə əvəz edilsin;

6.11. 29-cu maddə üzrə:

6.11.1. 29.1.3-cü maddədə "yem və" sözləri "yem məhsullarının və" sözləri ilə əvəz edilsin;

6.11.2. 29.1.4-cü maddədə "yemlərlə" sözü "yem məhsulları ilə" sözləri ilə əvəz edilsin;

6.11.3. 29.2.6-cı maddədə "yem və yem əlavələrinin" sözləri "yem məhsullarının və yem əlavələrinin" sözləri ilə əvəz edilsin;

6.12. 36.2-ci maddədə "yem və" sözləri "yem məhsullarının və" sözləri ilə əvəz edilsin;

6.13. 39.2.1-ci maddədə "preparatları, yem və yem əlavələrinin" sözləri "preparatlarının" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 55; 2016, № 7, maddə 1239) aşağıdakı dəyişikliklər edilsin:

7.1. preambulada, 1.1.1-ci, 1.1.2-ci, 3-cü (birinci halda), 4.0.2-ci və 7.0.5-ci maddələrdə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

7.2. aşağıdakı məzmunda 21.5-ci maddə əlavə edilsin:

"21.5. Bu Qanunun 21-ci maddəsi ilə müəyyən edilən tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsində müəyyən edilmiş genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına şamil edilmir.".

**Maddə 8.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662; 2021, № 6 (I kitab), maddə 551, № 7, maddə 701, № 12, maddələr 1315, 1329, 1339; 2022, № 5, maddə 426) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 19.9-cu maddəyə "günündən gec olmayaraq" sözlərindən sonra "("Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsində göstərilən hal istisna olmaqla)" sözləri əlavə edilsin;

8.2. aşağıdakı məzmunda 19.9-1-ci maddə əlavə edilsin:

"19.9-1. İcazə verən orqan təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 30 iş günü müddətində "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsində nəzərdə tutulmuş qida obyektlərini təsdiq edir və ya təsdiq edilməsindən imtina haqqında inzibati akt qəbul edir.";

8.3. 19.10-cu maddədə "19.8-ci və 19.9-cu" sözləri "19.8-ci, 19.9-cu və 19.9-1-ci" sözləri ilə əvəz edilsin;

8.4. Qanuna 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 47-ci və 71-ci maddələri aşağıdakı redaksiyada verilsin:

"47. idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara verilən idxal sağlamlıq aktı, ixrac olunan qida və yem məhsullarına verilən sağlamlıq sertifikatı;";

"71. qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış;".

**Maddə 9. Bu Qanunun qüvvəyə minməsi**

9.1. Bu Qanunun 1-3-cü, 6-cı və 8-ci maddələri 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

9.2. Bu Qanunun 4-cü, 5-ci və 7-ci maddələri 2023-cü il iyunun 30-dan qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2022-ci il*

# "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 789-VIQD nömrəli Qanununun tətbiqi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 789-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 28.2-ci, 30.5-ci, 30.6-cı, 30.7-ci, 31.1-ci (hər iki halda), 31.2-ci və 31.3-cü (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 28.2-ci, 30.6-cı, 30.7-ci, 31.1-ci (ikinci halda) və 31.3-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 30.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 31.1-ci (birinci halda) və 31.3-cü (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 31.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 31.2-ci maddəsində "informasiya sistemi" dedikdə "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur;

1.7. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 14.6-cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun 14.6-cı maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.

2. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1011; 2008, № 8, maddə 718; 2009, № 8, maddə 630; 2010, № 3, maddə 186; 2015, № 7, maddə 841; 2018, № 4, maddə 672, № 12 (I kitab), maddə 2553; 2019, № 8, maddə 1386; 2020, № 4, maddə 405, № 5, maddə 562; 2022, № 8, maddə 867) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci və 2.7-1-ci bəndlərə "16.2-ci" sözlərindən əvvəl "14.6-cı maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin;

2.2. 2.7-ci bəndə "13.3-cü" sözlərindən sonra "maddələrində" sözü, "14.6-cı" sözlərindən sonra "maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 789-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2023-cü il*

# "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 789-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 496; 2019, № 6, maddə 1084) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.4-cü bənddə "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatı, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarış," sözləri "sənədlər, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildiriş, Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, sağlamlıq sertifikatı, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən" sözləri ilə əvəz edilsin;

1.2. 2.5-ci bənddə "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatının, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişin, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlərin" sözləri ilə əvəz edilsin.

2. Bu Sərəncam 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2023-cü il*

# Azərbaycan və Dağıstan arasında əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair 2023-2025-ci illər üçün tədbirlər planı imzalanıb

Fevralın 20-də Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri Şahin Mustafayev ilə Dağıstan Respublikası Hökumətinin sədri, komissiyanın Dağıstan tərəfindən sədri Abdulmüslüm Abdulmüslümovun görüşü olub.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etməsi qeyd olunub. Vurğulanıb ki, iki ölkənin prezidentlərinin səyləri sayəsində dövlətlərarası münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Ş.Mustafayev deyib ki, Azərbaycan Rusiya Federasiyasının 80-ə yaxın subyekti ilə iqtisadi əlaqələr saxlayır. Baş nazirin müavini daha sonra bildirib: "Təqribən 20 subyektlə, o cümlədən Dağıstan Respublikası ilə ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq barədə sazişlər imzalanıb".

Vurğulanıb ki, eyni dildə danışan, ortaq tarixi, mədəni və mənəvi dəyərlərə malik olan Azərbaycan və Dağıstan xalqları arasında münasibətlər əsrlər boyu formalaşıb.

Azərbaycan və Dağıstan xalqları arasında əlaqələrin inkişafında Ümummilli Lider Heydər Əliyevin mühüm rolu xüsusi qeyd edilib.

Ş.Mustafayev deyib: "Bu gün Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq çərçivəsində Azərbaycan-Dağıstan münasibətlərinin inkişafına xüsusi diqqət yetirir. Mövcud sanballı potensialdan istifadə edilməklə əməkdaşlığımızı inkişaf etdirmək barədə dövlətimizin başçısı tərəfindən tapşırıq verilməsi bu diqqətə sübutdur".

Qeyd edilib ki, ötən il dekabr ayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Dağıstanın rəhbəri Sergey Melikov arasında keçirilmiş görüşün yekunlarına əsasən birgə layihələr üçün perspektivli istiqamətlər müəyyən edilib.

Baş nazirin müavini deyib: "Liderlər arasında əldə edilmiş razılaşmalara böyük əhəmiyyət veririk. Tərəflər arasında bu razılaşmaların reallaşdırılması məqsədilə əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair tədbirlər planı hazırlanıb".

Qeyd edilib ki, tədbirlər planında qarşılıqlı ticari-iqtisadi fəaliyyətin inkişafına və investisiyaların daha fəal cəlb edilməsinə xüsusi diqqət yetirilir.

Vurğulanıb ki, bu sənəddə sənaye kooperasiyasının nizamlanması da nəzərdə tutulur. Şüşə istehsalı üzrə birgə müəssisələr yaradılmasının mümkünlüyü və gəmiqayırma sahəsində qarşılıqlı fəaliyyət məsələlərinə diqqət artırılacaq.

Tərəflər aqrosənaye kompleksində Azərbaycan ilə Dağıstan arasında əməkdaşlığın inkişafı üçün yaxşı potensial olduğunu göstəriblər. Qeyd edilib ki, tədbirlər planında "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişafı və sərhədyanı infrastrukturun yaxşılaşdırılması üzrə birgə tədbirlər həyata keçirilməsi də nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, Azərbaycan tərəfi Rusiya Federasiyası ilə dövlət sərhədində buraxılış məntəqələrinə avtomobil və dəmir yolları çəkilməsi, habelə mövcud yolların yenidən qurulması ilə bağlı işlər görür.

Ş.Mustafayev deyib ki, Azərbaycan Prezidenti ikitərəfli razılaşmalar çərçivəsində "Samur" və "Xanoba" sərhəd-buraxılış məntəqələri arasında 24 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması və genişləndirilərək dörd zolağa çatdırılması, habelə "Xanoba" gömrük məntəqəsinin yenidən qurulması üçün vəsait ayırıb.

Qeyd edilib ki, Rusiya Federasiyasının Dağıstan Respublikası ərazisindəki "Tahirkənd-Qazmalar" buraxılış məntəqəsi ilə həmhüdud olan "Xanoba" gömrük məntəqəsinin tikintisi işləri başa çatmaq üzrədir.

Baş nazirin müavini Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm tərkib hissəsi olduğunu vurğulayaraq, limanın yükaşırma gücünün artırılaraq ildə 15 milyon tondan 25 milyon tona çatdırılması ilə əlaqədar işlər barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, liman infrastrukturunun inkişaf etdirilməsi sahəsində Azərbaycanın təcrübəsi Dağıstan tərəfindən Mahaçqala Beynəlxalq Dəniz Limanının yenidən qurulmasında istifadə edilə bilər. Ş.Mustafayev deyib: "Bakı və Mahaçqala limanları arasında qarşılıqlı fəaliyyətin nizamlanması barədə niyyətimiz tədbirlər planında da qeyd edilib".

Azərbaycan və Dağıstan xalqları arasında mədəni-humanitar əlaqələrin vacibliyi də vurğulanıb. Qeyd edilib ki, Dağıstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan dağıstanlılar bu respublikaların ictimai-siyasi və mədəni həyatına mühüm töhfələr verirlər.

Tədbirlər planına uyğun olaraq tərəflər Dağıstanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsinə, Azərbaycanda isə Dağıstanın Xalq şairi Rəsul Həmzətovun anadan olmasının 100 illiyinə həsr edilmiş tədbirlər keçirilməsi barədə razılığa gəliblər.

Sənəddə Azərbaycanda və Dağıstanda qarşılıqlı mədəni tədbirlərin təşkil edilməsi, mədəniyyət müəssisələri arasında birbaşa peşəkar və yaradıcı əlaqələrin nizamlanması da nəzərdə tutulur.

Görüşün yekunlarına əsasən Ş.Mustafayev və A.Abdulmüslümov Azərbaycan və Dağıstan arasında əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair 2023-2025-ci illər üçün tədbirlər planını imzalayıblar.

# Azərbaycan-Gürcüstan birgə təlimləri ordularımız arasında təcrübə mübadiləsində mühüm rol oynayır

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın Müdafiə Qüvvələri komandanı general-mayor Giorgi Matiaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Qonaqları salamlayan general-polkovnik Z.Həsənov xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın mövcudluğunu diqqətə çatdırıb.

Azərbaycan, Türkiyə və Gürcüstanın ikitərəfli və üçtərəfli əməkdaşlığının yüksək səviyyədə olduğunu bildirən nazir bunun regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi vurğulayıb.

General-polkovnik Z.Həsənov Qarsda keçirilən "Qış təlimi - 2023"də hərbi qulluqçuların yüksək peşəkarlıq nümayiş etdirdiyini vurğulayaraq, birgə təlimlərin ordularımız arasında təcrübə mübadiləsində və döyüş qabiliyyətinin daha da yüksəldilməsində mühüm rol oynadığını bildirib.

Müdafiə naziri Cənubi Qafqazın ölkə rəhbərlərinin iştirakı ilə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən plenar iclasdakı görüşün əhəmiyyətini vurğulayıb. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Biz təbii ki, istəyirik Avrasiyada sülh bərqərar olunsun" sözlərini xatırladan nazir regionda sülhün təmin olunması istiqamətində görülən işlərdən danışıb.

General-mayor G.Matiaşvili səmimi görüşə görə minnətdarlığını ifadə edib. Ölkələrimiz arasında hərbi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığının regional təhlükəsizliyə töhfə verdiyini qeyd edib.

Görüşdə hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Yanvar ayı ərzində ölkə üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı 1050 cinayət faktı aşkarlanıb

2023-cü ilin yanvar ayı ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.

Dövlət Komissiyasından AZƏRTAC-a bildirilib ki, cari ilin yanvar ayı ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 1050 cinayət faktı aşkarlanıb. Onlardan 352-si narkotik vasitələrin qanunsuz satışı, 684-ü narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 6-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 8-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 674 kiloqram 760,289 qram narkotik vasitələrin və psixotrop maddələrin 218 kiloqram 743,7 qramını heroin, 391 kiloqram 912,157 qramını marixuana, 12 kiloqram 629,341 qramını tiryək, 32 kiloqram 320,25 qramını həşiş, 18 kiloqram 944,491 qramını psixotrop maddələr, 210,35 qramını isə digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 8970 ədəd həb metadon, çəkisi 1 kiloqram 400 qram olan 28 ədəd çətənə bitkisi, eləcə də 194,4 qram və 1540 ədəd kapsul güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 631 nəfər cəlb edilib ki, onlardan 18-25 yaşadək 39 nəfər, 26-29 yaşadək 92 nəfər, 30 yaş və ondan yuxarı isə 500 nəfər təşkil edir. Həmin şəxslərdən 611-i kişi, 20-si qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 11 nəfəri xarici ölkə vətəndaşıdır. Cinayət məsuliyyətinə cəlb edilmiş 11 nəfər xarici ölkə vətəndaşından 9-u İran İslam Respublikası, 1-i Türkiyə, 1-i Rusiya Federasiyası vətəndaşı olub. Xarici ölkə vətəndaşlarından ümumilikdə 27 kiloqram 335,616 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddələr götürülüb. 148 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 158 kiloqram 470,5 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Qanunsuz dövriyyədən götürülmüş 674 kiloqram 760,289 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 26 milyon 491 min manatdır.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 7427 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 178 nəfərindən 118-nin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

"802" Qaynar xətt xidmətinə 98 vətəndaş müraciəti daxil olub ki, onların 17-si narkotik vasitələrin qanunsuz dövriyyəsi, 52-si narkotik asılılıqdan müalicə, 29-u isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 69 məktub ünvanlanıb.

Belə ki, "802" Qaynar xətt xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitə götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

# Azərbaycanın Ermənistana növbəti tarixi dərsi

## İlham Əliyev Münhendə Paşinyanı yenidən siyasi "nokaut"a uğratdı

*Əvvəli 1-ci səh.*

Azərbaycandan, Ermənistandan, eləcə də bütün dünyadan böyük maraqla izlənən, canlı yayımlanan plenar iclasda Paşinyanın əzilib büzülə-büzülə, kəkələyə-kəkələyə həyasızlıqla ölkəmizə qarşı böhtan, iftira ehtiva edən sərsəmləmələri İlham Əliyev tərəfindən faktlara söykənən arqumentlərlə qətiyyətlə rədd edildi, necə deyərlər tərs şillə kimi özünə qaytarıldı...

### "Nə oldu Paşinyan, bəs deyirdin..."

Paşinyanın düşdüyü bu gülünc vəziyyəti hər kəsə cəmi üç il əvvəli, 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən panel müzakirələri xatırlatdı. Həmin müzakirələr zamanı da Azərbaycan Prezidenti Ermənistanın baş nazirinə əsl tarix dərsi vermiş, hayların xəstə təfəkkürlə özlərinə quraşdırdıqları saxta tarix uydurmalarını tutarlı dəlilələllərlə alt-üst etmişdi.

Azərbaycan Prezidenti qətiyyətlə söyləmişdi ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib. Onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!"

Həmin panel müzakirələr zamanı Prezident İlham Əliyev dünyanın gözü qarşısında bəyan etmişdi ki, "Dağlıq Qarabağ ordusu" anlayışı yoxdur. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Münaqişənin yalnız iki tərəfi var: Ermənistan və Azərbaycan: "...Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Hesab edirlər ki, həmin əraziləri daim işğal altında saxlaya bilərlər. Əminəm ki, bu, belə qalmayacaq. Ərazi bütövlüyümüz bərpa edilməlidir".

Üzərindən cəmi bir neçə ay keçdikdən sonra sözü imzası qədər kəsərli olan İlham Əliyevin səsləndirdiyi bu bəyanat 44 günlük müharibə nəticəsində həqiqi təsdiqini tapdı. Azərbaycan Ermənistanın və ona havadarlıq edən ölkə və təşkilatların dırnaqarası danışıqlar adı altında münaqişəni əbədiyyətədək saxlamaq kimi məkrli arzu və istəklərinin üstündən xətt çəkdi və güc vasitəsi ilə ədaləti bərpa etdi, torpaqlarının 30 illik işğalına son qoydu.

Hər kəs yaxşı xatırlayır, 2020-ci ildə Münhendəki panel iclasda Paşinyan havadarlarına arxalanaraq böyük əminlik, arxayınlıq və həyasızlıqla səsləndirmişdi ki, "bir məsələ aydındır ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur".




Bu məqamda elə Prezident İlham Əliyevin xalq zərbi məsəlinə çevrilmiş bir fikrini işlətmək lap yerinə düşər ki, "nə oldu Paşinyan, bəs münaqişəsinin hərbi yolla həlli yox idi?!."

Hələ 2020-ci ildəki Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən panel müzakirələrindən əvvəl Valdayda "Qarabağ Ermənistandır nöqtə", - deyə sərsəmləyən Paşinyan İlham Əliyev tərəfindən "Qarabağ Azərbaycandır, nida" bəyanatı ilə siyasi nokauta uğradılmışdı.

2020-ci ilin sentyabrında başlayan və noyabrın 8-də Şuşa zəfəri ilə nəticələnən Vətən müharibəsi sayəsində isə real müstəvidə, hərb meydanında Azərbaycan Ermənistanı əzici məğlubiyyətə uğratdı, onu biabırçı kapitulyasiya aktına imza atmağa məcbur etdi.

### Qalib ölkənin Prezidenti

2020-ci ilin fevralında keçirilən Münhen Təhlükəsizlik Konfransı ilə, 2023-cü ilin fevralında baş tutan Münhen Təhlükəsizlik Konfransı arasındakı qısa müddət ərzində xeyli hadisələr baş vermiş, bəzi məsələlər həll olunmuş, ən başlıcası isə Qarabağ münaqişəsi artıq tarixin arxivinə göndərilmişdir.

Bəli, Azərbaycan Prezidenti İlham Əliyev Münhenə qalib ölkənin başçısı kimi yollanmışdı. Cənubi Qafqazda sülhü bərqərar etmək üçün konkret siyasi iradə ortaya qoyan və bu istiqamətdə mühüm addımlar atan Azərbaycan Prezidentinin adıçəkilən konfransdakı gündəliyini də bölgədə barışığa və qalıcı sülhə nail olmaq üçün görüləcək işlər təşkil edirdi. Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan görüşdə də rəsmi Bakı sülh gündəliyinə sadiqliyini bir daha bəyan etdi.

Həmçinin Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda da İlham Əliyev söylədi ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq.

Dövlət başçısı xüsusilə qeyd etdi ki, "biz 28 il boyunca sülh danışıqları aparmışıq, təsəvvür edin, 1992-ci ildən 2020-ci ilə qədər. Əgər biz Qarabağ münaqişəsini döyüş meydanında həll etməsəydik, bu sülh danışıqları daha 28 il çəkəcəkdi. Belə bir vəziyyət Ermənistanı tam qane edirdi".

Azərbaycanın hər zaman müharibənin qarşısını almaq üçün Ermənistana qarşı sanksiyaların tətbiq olunmasını istədiyini bildirən İlham Əliyev qeyd etdi ki, Azərbaycan Minsk qrupunun nəticə əldə etməsini gözləyirdi, BMT Təhlükəsizlik Şurasının öz qətnamələrinə hörmət etmələrini gözləyirdi: "Lakin biz heç bir hərəkətin olmadığını gördük və ümumi fikir bundan ibarət idi ki, bu münaqişə dondurulmuşdur. Beləliklə, biz onun dondurulmadığını sübut etdik. Biz ləyaqətimizi, ərazi bütövlüyümüzü və ədaləti bərpa etmək, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün döyüşməli, 3 min həyatı qurban verməli olduq".

Sadəcə, Qarabağda bugünkü vəziyyəti və ya oradakı erməni icması ilə əlaqələrimizi kontekstdən çıxararaq 30 illik işğalı, Livan böyüklüyündə ərazinin tamamilə xarabalıqlar içində olduğunu unutmamalı olduğumuzu söyləyən İlham Əliyev vurğuladı ki, bu, yadplanetlilər tərəfindən edilməyib, gəlib bizim torpağımızı işğal etmiş, bir milyon azərbaycanlını evindən didərgin salmış, 67 məsciddən 65-ni dağıtmış, onları təhqir etmiş qonşularımız tərəfindən edilib.

### Dəyişməyən erməni xisləti

Sözdə, üzdə sülhə razı olduğunu bildirən Ermənistanın baş naziri Nikol Paşinyanın isə sözügedən plenar iclasda yenidən Azərbaycana qarşı yalan və böhtanlarla dolu iftiralar səsləndirməyə başlaması təəccüb doğurmadı. Bir çox uydurmalarla yanaşı, baş nazir Laçın yolunda azərbaycanlı ekofəalların Qarabağ iqtisadi zonasında təbii sərvətlərimizin talanına və ekologiyamızın terrora məruz qalmasına qarşı apardıqları haqlı mübarizəsinə həqiqətdən uzaq don geyindirməyə, beynəlxalq ictimaiyyətə yalan məlumatlar çatdırmağa çalışdı. Paşinyan bu dəfə də əlinə keçən fürsətdən istifadə edərək dünyanın gözü qarşısında "əzilən erməni" obrazını dili dolaşa-dolaşa üz mimikaları, əl-qol jestləri, bədən dili ilə canlandırmağa çalışdı. Etiraf etmək lazımdır ki, hiyləgər Paşinyan rolunu çox yaxşı oynayırdı... Amma bu oyunbazlığının bir qara qəpiklik siyasi dəyəri, tarixi faktlara dayanan reallığı dəyişdirmək gücü olmadı.

Necə ki, iclasda İlham Əliyev bu barədə dedi: "Biz onları qovandan sonra indi onlar ədalət üçün yalvarırlar. Onlar - ərazimizi 30 il ərzində işğal altında saxlayanlar bizi işğalda günahlandırırlar. Bir məsələni də unutmaq olmaz ki, baş nazirin istinad etdiyi 2020-ci il noyabr tarixli üçtərəfli Bəyanat, əslində, de-fakto Ermənistan tərəfindən kapitulyasiya aktıdır".

Fevralın 18-də baş tutan Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasdan gətirdiyimiz bu qısa nümunələrdən də aydın görünür ki, Prezident İlham Əliyev diplomatik təcrübəsi, faktlara əsaslanan sərrast cavabları ilə Azərbaycanın ədalətli və haqlı mövqeyini beynəlxalq ictimaiyyətə çatdırdı, baş nazir Nikol Paşinyanın qeyri-səlis nitqlə quraşdırdığı yalanları ifşa edərək Ermənistanın haqsız, təcavüzkar tərəf olduğunu bir daha dünyaya göstərdi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İlham Əliyevin mühüm diplomatik qələbəsi

## Münhen Təhlükəsizlik Konfransı Azərbaycanın güclü siyasi iradəsini bir daha ortaya qoydu





*Əvvəli 1-ci səh.*

### İlham Əliyev əsaslı arqumentlər və faktlarla erməni tərəfini susdurdu

Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında dedi ki, Münhen Təhlükəsizlik Konfransı mühüm beynəlxalq platformadır və missiyası davamlı və qeyri-rəsmi dialoq yaratmaqla etimad qurmaq, qlobal və regional problemlərin, münaqişələrin həllinə töhfə verməkdir.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin konfransa dəvət alması və konfrans çərçivəsində müxtəlif tədbirlərdə iştirakı, önəmli görüşlər keçirməsi dövlətimizin başçısının dünya miqyasında yüksək nüfuzunun göstəricisidir.

O bildirdi ki, dünyanı daha çox düşündürən məsələlərdən biri olan enerji təhlükəsizliyi yenə də gündəmdə olub: "Prezident İlham Əliyevin enerji təhlükəsizliyi ilə bağlı "dəyirmi masa"da iştirakı, məzmunlu çıxışı Azərbaycanın Avropa üçün əhəmiyyətini göstərir. Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışan dövlətimizin başçısı bildirdi ki, ötən il Azərbaycanın qaz təchizatının artırılması qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verilən töhfə idi. Orta və uzunmüddətli perspektivdəki hədəf isə Azərbaycan tərəfindən irəli sürülən "Cənub qaz dəhlizi"nin genişləndirilməsidir. Prezident İlham Əliyev qeyd etdi ki, 2027-ci ilədək TAP-la qaz nəqli 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur".

S.Fətəliyeva qeyd etdi ki, ən vacib məqamlardan biri də konfrans çərçivəsində keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclas oldu. Prezident İlham Əliyevin dediyi kimi, bu, tarixi görüşdür, çünki ilk dəfədir Cənubi Qafqazın üç ölkəsinin lideri görüşürdü.

Dövlət başçısının Vətən müharibəsindən sonrakı vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, sülh prosesi haqqında fikirlərini ifadə etdiyini bildirən deputat dedi ki, Prezident Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidinin olmadığını bəyan edərək hamıdan ölkəmizin suverenliyinə və Konstitusiyasına hörmətlə yanaşmasını tələb etdi. Dövlətimizin başçısı Azərbaycanın Qarabağ bölgəsinin mövcud olduğunu və orada məskunlaşan ermənilərin ölkəmizdə yaşayan digər milli azlıqlar kimi bərabər hüquq və imtiyazlara malik olduqlarını, onların təhlükəsizliyinin tam təmin edildiyini bir daha bəyan etdi.

"Biz xatırlayırıq ki, 2020-ci ilin fevral ayında Münhendə Azərbaycan və Ermənistan liderləri arasında keçirilən debatda Nikol Paşinyan dövlətimizin başçısının arqumentləri, səlis məntiqi qarşısında aciz qalmışdı. Həmin debatdan bir neçə ay sonra Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarını işğaldan azad etdi. Budəfəki panel iclasında da cənab Prezident əsaslı arqumentlər və faktlarla erməni tərəfini susdurdu. Torpaqlarımızı BMT Nizamnaməsinin 51-ci fəslinə əsasən azad etdiyimizi deyən dövlətimizin başçısı vurğuladı ki, biz də bu haqqımızdan istifadə etdik", - deyə S.Fətəliyeva bildirib.

Prezident İlham Əliyevin Qarabağın erməni əhalisi ilə təmasların yalnız bu torpaqda doğulmuş ermənilərlə olacağını bəyan etdiyini, kənardan göndərilmiş hansısa erməni ilə heç vaxt ünsiyyət qurulmayacağını dediyini xatırladan komitə sədrinin müavini bildirib ki, dövlətimizin başçısı televiziya kanallarına müsahibəsində Qarabağ haqqında hər hansısa müddəanın qəbuledilməz olduğunu, sülh müqaviləsinin beynəlxalq norma və prinsiplər əsasında tərtib edilməsinin vacibliyini şərt kimi diqqətə çatdırıb. "Laçın-Xankəndi yolundakı ekofəalların aksiyasını şərh edən Prezident İlham Əliyev bunun blokada olmadığını, sərvətlərimizin qanunsuz istismarının dayandırılmasına xidmət etdiyini və buna nail olunmayana qədər ictimai fəallarımızın şərəfli missiyasından əl çəkməyəcəklərini söylədi. Bütövlükdə Münhen Təhlükəsizlik Konfransı Azərbaycanın növbəti diplomatik uğuru oldu", - deyə S.Fətəliyeva vurğulayıb.

### Azərbaycanın tələbləri anlayışla qarşılanır

Milli Məclisin deputatı Sahib Alıyev bildirib ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda keçirilən plenar iclasda Prezident İlham Əliyevin çıxışı Avropa İttifaqının xətti ilə keçirilən üçtərəfli görüşlərin yenidən davam etdiriləcəyini göstərir, amma Fransa prezidenti Praqada olduğu kimi daha Paşinyana yandaşlıq, arada da "yaddaşlıq" edə bilməyəcək. O qeyd edib ki, Aİ Şurasının prezidenti Şarl Mişellə ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycanın bu tələbini anlayışlı qarşılayıblar.

Deputatın sözlərinə görə, ABŞ Dövlət Departamenti sözçüsünün İlham Əliyev, Blinken, Paşinyan görüşünün nəticələri haqda yazılı açıqlaması bunu təsdiqləyir: "Həmin açıqlamada Laçın yolunun adının çəkilməməsi, əvəzinə Blinkenin "nəqliyyat marşrutlarını açmağa" çağırdığının bildirilməsi rəsmi Vaşinqtonun Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı tələbinin əsaslı olmasıyla razılaşdığını göstərir. Xatırladaq ki, sözügedən plenar iclasda Paşinyanın iştirakı gözlənilmirdi, görünür o, havadarlarının təkidi ilə ora oturduldu. Amma Ermənistanın baş naziri 3 il əvvəl Münhendə hansı reallıqla üzləşmişdisə, yenə də eynisini yaşadı".

S.Alıyev qeyd edib ki, üç il öncə Prezident İlham Əliyevlə debat zamanı pis vəziyyətə düşməsi Paşinyana qətiyyən dərs olmayıb. Onun sözlərinə görə, Ermənistanın baş naziri savad baxımından necə kasad idisə elə də qalıb, yalançılığı və abırsızlığı isə bir az da artıb: "Bu özəllikləri onun zəlzələ ilə bağlı Türkiyəyə xilasedici və daha nələrsə göndərmələri haqda sualı cavablandırarkən və sonrakı açıqlamalarında açıq göründü. Paşinyan bildirir ki, Türkiyəyə etdikləri jest humanitar xarakterli addım imiş. Ardınca isə belə bir cümlə işlədir: "Siyasi dialoqa gəldikdə, səmimi desəm, zəlzələdən əvvəl bizim aramızda xüsusi elçilər vasitəsilə siyasi dialoq olub". Onun bu cümləsindən belə çıxır ki, öncə dedikləri səmimi olmayıb. Ümumiyyətlə, siyasətçi "səmimi desəm" sözlərini dilə gətirirsə, bununla çox vaxt səmimi danışmadığını ortaya qoyur".

Sahib Alıyevin fikrincə, orada ən böyük zərbəni Fransa prezidenti alıb, çünki Avropada keçirilən üçtərəfli görüşün təşkilatçısı rolunda bütün cəhdlərinə rəğmən, Makronun deyil, ABŞ-nin Dövlət katibi Entoni Blinkenin çıxış etməsi ona həddini və yerini göstərmək idi. "Makron özünü Avropanın "ağsaqqal"ı kimi apara, bəziləri onun bu davranışlarına göz yuma, kimlərsə Fransa prezidentinə o arzuladığı kimi yanaşa bilər, amma bunlar Azərbaycan üçün keçərli deyil. Azərbaycan üçün Fransa, sadəcə, Ermənistanın "böyük bacısı"dır və rəsmi Paris indiki siyasətini davam etdirdiyi müddətdə elə də qalacaq", - deyə S.Alıyev əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan nümayəndə heyəti "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransında iştirak edir

Fevralın 20-24-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində iki ildən bir təşkil olunan "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransı keçirilir.



Müdafiə Sənayesi Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Birləşmiş Ərəb Əmirliklərinin Baş nazirinin müavini - prezident işləri üzrə nazir Şeyx Mansur bin Zayed Al Nahyanın açılışını etdiyi sərgidə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edir.

Dünyanın 65 ölkəsindən 1350-dən çox qabaqcıl şirkət və 350 nümayəndə heyətinin qatıldığı "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransında Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan 145 adda müdafiə təyinatlı məmulatlar nümayiş etdirilir.

Sərgi zamanı müdafiə sənayesi naziri Mədət Quliyevin Birləşmiş Ərəb Əmirliklərinin dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkətlərin təmsilçiləri ilə görüşləri nəzərdə tutulub.

"İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransı öz işini fevralın 24-dək davam etdirəcək.

# Zəngəzura uzanan Ağbənd-Horadiz dəmiryolu körpüsündə işlər uğurla icra olunur

Horadiz-Ağbənd dəmir yolu xəttinin layihələndirmə və tikinti işlərinə Prezident İlham Əliyevin 2021-ci il 13 mart tarixli Sərəncamı ilə başlanılıb. Fevralın 14-dən təməli qoyulan Horadiz-Ağbənd dəmir yolunun tikinti işləri 3 mərhələdə davam etməklə yanaşı, paralel olaraq ərazinin minalardan təmizlənməsi prosesi də aparılır. Dəmir yolunun uzunluğu ox üzrə 110,4 kilometr, yan yollarla birlikdə isə 140,6 kilometrdir.



AZƏRTAC-ın əməkdaşı tikinti sahəsində olub və görülən işlərlə maraqlanıb.

"Azərbaycan Dəmir Yolları" QSC-nin Tikintiyə Nəzarət İdarəsinin rəhbəri Tural Abbaslı bildirib ki, Horadiz-Ağbənd dəmir yolunun birinci mərhələsi 30 kilometrlik ərazidə aparılmaqla, Horadiz, Mərcanlı, Mahmudlu və Soltanlı stansiyalarını əhatə edir. Burada işlər 90 faiz tamamlanıb. İkinci mərhələ Soltanlı, Qumlaq, Həkəri və Mincivan stansiyalarını əhatə edir və 30 kilometrdən 85 kilometrə qədər ərazidə həyata keçirilən 35 faiz işlər uğurla başa çatıb. Mincivandan başlayaraq Bartaz-Ağbənd stansiyalarını əhatə edəcək üçüncü mərhələ də daxil olmaqla, layihə üzrə tikinti işlərinin il ərzində yekunlaşdırılması nəzərdə tutulur.

"Bu qədər qısa zamanda üçüncü istiqamətdə layihələndirmə işlərində 78 faiz, tikinti üzrə isə 38 faiz müvəffəqiyyət qazanmışıq", - deyə o əlavə edib.

Layihə 9 stansiyanı (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) əhatə edir. Burada 469 ədəd mühəndis qurğusu - 41 körpü, 22 avtomobil keçidi, 3 tunel, 2 qalereya, 4 heyvan keçidi, 253 suötürücü boru və 144 ehtiyat keçidi, 70 yoldəyişən, 110,4 kilometr rabitə və işarəvermə sisteminin inşası nəzərdə tutulub.

Horadiz-Ağbənd dəmir yolu xəttinin Həkəri çayı üzərindən keçən hissəsində uzunluğu 418 metr olan 13 aşırımlı körpü Azərbaycanda ən uzun dəmir yolu körpüsüdür. Layihənin tərkib hissəsinə daxil olan bu körpü "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin əhəmiyyətini daha da artıracaq.

Süni qurğularla iş mühəndisi Hüseyn Hüseynli burada işləməkdən məmnun olduğunu dilə gətirib: "1995-ci ildə doğulmağıma baxmayaraq, bu torpaqlarda özümü çox doğma hiss edirəm. Bir ildir ki, bu layihədə yer almışam və gənc nəslin nümayəndəsi olaraq Vətənə borcumu bu formada yerinə yetirdiyim üçün çox qürurluyam".

Onu da qeyd edək ki, dəmir yolu xəttinin ətrafında minatəmizləmə işləri tamamlanıb, genişlənmələr tələb olunan yerlərdə isə işlər davam edir.

Layihə üzrə tikinti-quraşdırma işlərinin 2023-cü ildə yekunlaşdırılması nəzərdə tutulub.

# Böyük ürək, mərhəmətli qəlb sahibi

## Çoxcəhətli və çoxşaxəli fəaliyyətin unudulmaz məqamları



Kişilər həmişə sərt olurlar!

Qəzəblənəndə yumruqlarını düyünləməklə, acıqlı baxıb hündürdən danışmaqla hisslərini büruzə verirlər.

Allah onları belə yaradıb!

Qadınlar isə həmişə zəif və zərif olurlar!

Onların bir gözəlliyi də bundadır.

Səbirli olmağa, məsələni yumşaqlıqla, sülh yolu ilə həll etməyə üstünlük verirlər!

Xilqətləri belədir!

**Dövlət idarəçiliyində hər ikisi vacib və gərəklidir!**

**Qüdrətli əl də, mərhəmətli davranış da!**

*Əslində, belə bir birlik və birgə fəaliyyət idarəetməni asanlaşdırır, xalqın maraqlarının, arzu və istəklərinin daha tez və uğurla həyata keçirilməsini, insanları xoş və firavan yaşayışa qovuşduraraq rahat və bəxtəvər ömür sürmələrini daha tez və daha yaxşı reallaşdırır.*

❖ ❖ ❖

Müstəqil Azərbaycanın rəhbər sarıdan bəxti gətirib!

Ölkədə naşılar, iradəsizlər iqtidarda çox qala bilməyiblər!

Xalq özü belələrindən qəzəblə imtina edib!

Həqiqi dövlət rəhbərləri isə öz əməlləri sayəsində tarixi şəxsiyyətlərə, dünya miqyasında görünən görkəmli liderlərə çevriliblər!

**Dövlət başçılarını güclü edən həm də onların komandaları, çiyindaşlarıdır!**

- Tarixinin ən qüdrətli Azərbaycanının yaranmasında...
- Ölkəmizin Cənubi Qafqazda söz sahibinə çevrilməsində...
- Dünyada yeni imicdə, Avropaya gərəkli ölkə kimi tanınmasında...

Hərbi gücünü və imkanlarını ortaya qoyaraq işğal altındakı torpaqlarını 44 gündə azad etməsində bu məqamın da xüsusi əhəmiyyəti olmuşdur!

❖ ❖ ❖

**Azərbaycanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanı sevməyən, ona hörmət və ehtiram bəsləməyən tapılmaz!**

**Mehriban xanım Əliyeva bu sevgini öz işi, əməli, yorulmaz və çoxcəhətli fəaliyyəti, insanlara arxa və dayaq durması, mərhəmət və xeyirxahlığı ilə qazanıb!**

*Mehriban xanım Əliyevanın gözəl nitq qabiliyyəti, aydın diksiyası, fikrini dəqiq ifadə etmək bacarığı var.*

*Amma uzun danışmağı, geniş nitq söyləməyi sevmir!*

*Sözünü əməli işi, gərgin və çoxcəhətli fəaliyyəti ilə əvəz edir, real, əməli işə daha çox üstünlük verir.*

Həm də təbiətən təvazökardır...

Bəzən geniş ictimaiyyətin hansı layihənin harada icrasına başlandığından xəbəri olmur.

Yalnız açılış mərasimində necə bir gərəkli obyektin fəaliyyətə başladığını bilirik.

**Çünki əsas məqsəd göstərmək yox, gərəkli olanı etmək, insanlara sevinc və rahatlıq bəxş etmək, istəklərini gerçəkləşdirməkdir!**

❖ ❖ ❖

*Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu müstəqil Azərbaycanın dayaqlarından biri, inkişaf və quruculuğa dəyərli töhfələrini verən nüfuzlu qurumdur.*

**Bu fond Heydər Əliyev ideyalarını yaşadır!**

**Bu fond Heydər Əliyevin xalqa xidmət missiyasını davam etdirir!**

**Bu fond Heydər Əliyevin dövlətə və xalqa olan sonsuz sədaqət və məhəbbətini çoxcəhətli fəaliyyətində müasir dövrdə konkret addımlar və layihələr formasında daim yeniləşdirir, reallaşdırır!**

Bəzən dövlətin həyata keçirməyə macal tapmadığı layihələri tez bir zamanda icra edir, bəzən yeni təşəbbüsləri ilə yaddan çıxanları gündəmə gətirir, hamıya gərəkli olanları edir.

*Dövlətin dəstəyi olan Heydər Əliyev Fondu eyni zamanda vətəndaş məmnunluğunun yaranmasının mühüm amillərindən biridir!*

Fondun yaradıldığı gündən indiyədək gördüyü işlərə nəzər salanda qürur duymamaq olmur!

Ulu Öndərin adına layiq fəaliyyət həm də bu qurumda vətənpərvər, fədakar, təşəbbüskar və zəhmətsevər insanların çalışdığından xəbər verir.

**Şübhəsiz bu uğurların baş təminatçısı, ona sevgi və yaradıcılıqla rəhbərlik edən Mehriban xanım Əliyevadır!**

*Onun yaradıcı və yorulmaz fəaliyyəti, ən vacib məqamda ən gərəklisini etmək istedadı, dövrün çağırışlarını duymaq və cavablandırmaq məharəti uğurların təməlidir.*

*Əslində, bu qurum həm də Mehriban xanım Əliyevanın öz potensialını, bacarıq və məharətini, vətənə məhəbbət və sədaqətini gerçəyə çevirmək üçün geniş platforma funksiyasını da daşıyır!*

❖ ❖ ❖

İllər öncə Azərbaycan öz üzərinə böyük bir missiya götürdü:

I Avropa Oyunlarının keçirilməsini.

Bu, bir ilk idi!

Həm də yüksək etimad!

Ortada öyrəniləsi nümunə isə yox idi!

Əksinə, Azərbaycan ilk oyunun təşkilatçısı kimi özü bir nümunə yaratmalı olmuşdu.

Bu, təkcə Avropa qitəsində idman yarışlarının təşkili deyildi!

Həm də müasir Azərbaycanın idman oyunları fonunda dünyaya yeni imicdə, müasir, demokratik, qədim ənənələrə malik bir dövlət kimi də təqdimatı sayılırdı!

**Dövlət başçısı cənab İlham Əliyev bu çətin və gərəkli missiyanın icrasını Mehriban xanım Əliyevaya həvalə etdi!**

**Nəticə...**

**Nəticədə dünyanı heyrətdə qoyan və daim yaddaşlarda yaşayan möhtəşəm bir idman bayramı baş tutdu!**

I Avropa Oyunlarının açılış və bağlanış mərasimi isə öz orijinallığı, milliliyi, əzəmət və müasirliyi ilə insanlarda görünməmiş təəssürat yaratdı!

Bütün qonaqlar, mütəxəssislər, televiziya vasitəsilə bu möhtəşəm tədbirləri izləyənlər, idman yarışları ilə bağlı ən incəliyə qədər düşünülmüş məqamları, yarışlarla bərabər idmançılara yaradılan şəraiti, tamaşaçıların rahatlığını, bir sözlə, nəhəng bir mexanizmin saat kimi işləməsini maraq və razılıqla qarşıladılar.

**Bu, Mehriban xanım Əliyevanın triumfu idi!**

*I Avropa Oyunları sonralar keçirilən digər oyunlar üçün etalona çevrildi!*

*Heç kim ondan yaxşısını təşkil etmək barədə düşünmürdü!*

*Hamı sadəcə olaraq ondan öyrənir və ona bənzəməyə çalışırdı!*

IV İslam Həmrəyliyi Oyunları da eyni uğurla, ən yüksək səviyyədə baş tutdu!

**Bu iki beynəlxalq miqyaslı idman tədbiri Mehriban xanımın sayəsində zirvəyə və nümunəyə çevrildi.**

❖ ❖ ❖

Dünyada ən şirin varlıq övladdır!

Ən ağır dərd də xəstə övlad dərdidir!

Öz balasını istəyənlər başqalarının da övladlarına pis gün arzulamırlar.

*Ən ülvi insani xüsusiyyətlərdən də biri övladlara, uşaqlara qayğı göstərmək, onların yaman dərddən sağalmalarında valideynlərinə dayaq durmaqdır!*

**Azərbaycan xalqı Mehriban xanım Əliyevanı həm də xəstə və köməksiz uşaqların şəfqət anası, xilaskar mələyi kimi tanıyır və sevir!**

Dünyaya uşaq gətirmək azdır!

Onu saxlamaq, böyütmək, ayaq üstə qoymaq, təhsil vermək, ev-eşik sahibi etmək - bütün bunlar həyatın davamının vacib şərtləridir.

Bu zəncirin hansısa halqasının qırılması insan həyatının şikəst olmasına, natamamlığına, özündən asılı olmayan səbəblərdən əziyyət çəkməsinə, bəzən isə faciələrə səbəb olur.

Ya zəlzələdən, ya vəlvələdən - hərdən övladlarından imtina edən, hətta onları küçəyə atan valideynlər də olur.

Övlad üçün də, valideyn üçün də əsl faciədir!

Həm də çox böyük günah!

Nə etməli, həyatdır...

*Mehriban xanım Əliyeva valideynlərin, doğmaların imtina etdiyi balalara da sahib çıxır!*

❖ ❖ ❖

Sovet dövründə çoxsaylı körpələr evləri, internat məktəbləri vardı.

Pis-yaxşı fəaliyyət göstərirdilər.

Müstəqilliyin ilk illərində, xüsusən anarxiya dövründə bu tipli müəssisələrin də faciəli günləri başladı.

Diqqətsizlikdən, qayğısızlıqdan, vəsaitsizlikdən bina və avadanlıqlar sıradan çıxdı, ərzaqla təchizat məsələləri pisləşdi, hətta burada çalışanların əməkhaqlarının vaxtında ödənilməsində problemlər yaşandı.

Bütün bunları görən, yada salan, kömək əlini uzadan isə tapılmırdı...

Ta o vaxta qədər ki Mehriban xanım Əliyeva bu sahəni də öz himayəsinə götürdü!

**Doğmaların imtina etdiklərinə Mehriban xanım Əliyevanın simasında Heydər Əliyev Fondu yiyə durdu!**

*Qısa müddət ərzində bərbad günə düşən binalar təmir edildi, yeni avadanlıqlar, zəruri əşyalar alındı, ərzaq təchizatı qaydaya salındı, işçilərin əməkhaqları artırıldı.*

**Valideyn himayəsindən məhrum olanlar - "günahsız qurbanlar" Mehriban xanım Əliyevanın timsalında isti qucaq tapdılar, şəfqətli ürək sahibinə qısıldılar.**

❖ ❖ ❖

Anadan qüsurlu doğulan, sağalmaz xəstəliklərə mübtəla uşaqların dərdi isə bir başqadır.

Valideyn onları nə ata bilir, nə saxlaya...

Nə müalicəsinə pul çatdırır, nə də dava-dərmanına!

**Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun xətti ilə bu sahənin bütün ağırlığını və qayğılarını öz çiyinlərinə götürdü!**

*Daun, talassemiya, hemofiliyalı xəstələrin müalicəsi, təminatı üçün neçə-neçə binalar tikildi, sağlamlıq mərkəzləri inşa olundu.*

*Bütün bunların sayəsində valideynlər böyük yükdən, sıxıntıdan, çarəsizlikdən qurtuldular.*

**Mehriban xanım Əliyevanın mərhəmət və qayğısının hədd-hüdudu, sərhədi yoxdur!**

Bir qədər sonra başqa bir problem meydana çıxdı...

İnternat məktəblərində böyüyənlər müəyyən yaş həddinə çatdıqda, təhsillərini başa vurduqda oranı tərk etməli olurlar...

Lakin hayana?

Harada işləməyə, harada yaşamağa?

Çarəsizlik və ümidsizlik bəzilərinin həyatını korlayırdı...

**Mehriban xanım Əliyevanın mərhəməti, Heydər Əliyev Fondunun dəstəyi sayəsində bu problem də çözüldü.**

*Bu qism gənclərdən ötrü bir neçə otaqdan ibarət çoxmərtəbəli yaşayış binaları tikildi, yeni həyata qədəm qoyanlara yeni mənzillər verildi.*

Hətta bir qism talesiz gənc bir-biriləri ilə ailə həyatı quraraq yeni mənzil və iş yerləri hesabına ömürlərinin qalan hissəsini birgə keçirmək barədə qərar verdi.

Əsl xoşbəxtliklərinə qovuşdular!

**Talesizliklərini Mehriban xanım Əliyevanın sayəsində daimi bəxtiyarlıqla əvəz etdilər!**

**Görün bunların savabı yerə-göyə sığarmı!**

❖ ❖ ❖

Özlərini "qədim", "mədəni" xalq adlandıran ermənilər Qarabağ münaqişəsinin ilk dövründən dünya KİV-ində şər-böhtan kampaniyası apararaq azərbaycanlıları "vəhşi xalq" adı ilə təqdim edirdilər.

**Düşmən tərəfindən yaradılan bu stereotipləri dağıtmaq vacib idi!**

**Mehriban xanım Əliyeva sözügedən məsələyə də öz töhfələrini verdi.**

Həm də bütün dünyanın gördüyü, şahidi olduğu və qəbul etdiyi formada!

Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti, bu qədimliyi və zənginliyi sübuta yetirən çoxsaylı maddi-mənəvi nümunələri də vardır.

Onların təqdiminin sovet dövründə mümkün olmayan formaları tapıldı.

UNESCO-nun xoşməramlı səfiri kimi fəaliyyət göstərdiyi dövrdə Mehriban xanım Əliyeva mövcud imkanlardan səmərəli istifadə etdi.

Bir-birinin ardınca:

- Qobustan milli qoruğu;
- İçərişəhər memarlıq qoruğu;
- Azərbaycanın aşıq sənəti;
- Tar ifaçılığı sənəti və digərləri milli-mədəni abidələr kimi UNESCO-nun siyahısına salındı.

Beləliklə, həm onların Azərbaycan xalqının milli-mədəni sərvəti olduğu təsdiqləndi, həm qorunması təmin edildi, həm də turistlərin maraq dairələrinə yönləndirildi.

**Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun xətti ilə dünyanın bir sıra ölkələrində müxtəliftəyinatlı beynəlxalq əhəmiyyətli onlarla layihə gerçəkləşdirildi.**

Bu layihələr həm dost ölkələrdə töhfə şəklində kömək məqsədilə icra olunurdu, həm də Azərbaycanın dünya mədəniyyəti nümunələrinin qorunmasına yardımının və diqqətinin təzahürünə çevrilirdi.

MƏSƏLƏN:

- Vatikanda müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefi;
- Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsi;
- Vatikanda "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoley;
- "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombalar bərpa olunub;
- Volqoqradda "Volqoqrad-Bakı Dostluq Parkı" salınıb;
- Həştərxanda "Meçta" uşaq kafesi yaradılıb;
- Həştərxanda Knyaz Vladimirin abidəsi ucaldılıb;
- Həştərxanda Azərbaycan və Rusiya Dostluq körpüsü salınıb;
- Həştərxanda "Arzu" uşaq əyləncə şəhərciyi yaradılıb;
- Sarayevoda "Dostluq parkı" salınıb.

Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. Pakistanın Müzəffərabad şəhəri Rara ərazisində zəlzələdən sonra dağılmış qızlar üçün yeni orta məktəb binasının inşası və digərləri ən uğurlu və önəmli layihələrdəndir.

❖ ❖ ❖

Müharibə təkcə dağıntılara, ölüm-itimə səbəb olmur!

O həm də insanların bir qisminə sağalmaz yaralar vurur, həyat şəraitlərini kəskin şəkildə dəyişir, əzab və əziyyətlərə mübtəla edir.

Otuz ilədək davam edən Qarabağ müharibəsi də həmçinin.

Təkcə torpaqlarımız murdar ayaqların altında qalmadı...

Təkcə ev-eşiyimiz dağıdılaraq mal-mülkümüz tərac olunmadı...

Təkcə məscidlərimiz tövləyə çevrilmədi, qəbiristanlıqlarımız dağıdılmadı...

Təkcə yurd dərdi, Vətən həsrəti çəkmədik...

Həm də əzab-əziyyət çəkdik, tənə və qınaqlara tuş olduq!

İş tapmayanda dövlətin yardımına möhtac, normal yaşayışa həsrət qaldıq.

*Belə ağır məqamlarda təkcə yardım yox, bir kəlmə ümidverici söz, arxamızda kiminsə dayandığını bilməyimiz də dərdimizə məlhəm oldu!*

**O ağır günlərdə Mehriban xanım Əliyeva məcburi köçkünlərin yaxınına, doğmasına çevrildi!**

*İndiyədək elə bir hal olmayıb ki, Mehriban xanım Əliyeva məcburi köçkünlərin hər hansı çağırış və müraciətinə biganə qalsın!*

*Ən ağır, ən çətin günlərdə biz Mehriban xanımı məcburi köçkünlərin yanında görmüşük!*

*Onlara dayaq durub, dəstək verib, əl tutub!*

- Aprel müharibəsində mənfur düşmən Ağdamın ərazisini güclü mərmi atəşinə tutdu...
- 44 günlük Vətən müharibəsi başlayanda mənfur düşmən Gəncəni raket və mərmi atəşinə hədəf etdi.

**Hər iki halda Mehriban xanım dinc vətəndaşlara həyan durdu, ürək-dirək verdi, yardım göstərdi, dağılmış evlərin tezliklə bərpası üçün əlindən gələni əsirgəmədi.**

Mehriban xanımın dara düşənlərin yanında olmasının biz Şamaxı zəlzələsində də şahidinə çevrildik.

Onun necə insanlara can yandırdığını, hər vəchlə kömək istəyini müşahidə etdik.

*Şəhid anaları, şəhid övladları Mehriban xanımı özlərinin qayğıkeşi, ən yaxın himayədarları sayırlar!*

*Bəzən bu böyük qəlb sahibinin şəhid ailələri ilə görüşərkən necə kövrəlməsindən riqqətə də gəlmişik...*

❖ ❖ ❖

**Mehriban xanım Əliyeva 44 günlük Vətən müharibəsinin iştirakçısı oldu.**

**Bir yerdə qərar tutub dayana bilmədi, hərdən hərbi paltar geyinərək hərbçilərlə görüşə də getdi.**

Müharibədə şəhidlərlə bərabər, yaralılar da çox olur!

Həm də ən müxtəlif ağırlıq dərəcələrində.

*Yaralı insana dərman qədər xoş sözlər də təsir edir!*

Biz bunları həm də yarası sağalmış, yenidən normal həyata qayıtmış hərbçilərimizin dilindən dəfələrlə eşitmişik!

**Mehriban xanım Əliyeva daim hospitallara baş çəkdi, yaralılarla həmsöhbət oldu, arzu və istəklərini yerinə yetirmək üçün əlindən gələni əsirgəmədi.**

- Azərbaycanda sağalması müşkül olan bir çox yaralılar qardaş Türkiyəyə müalicəyə göndərildilər...
- Ağır xəsarət almış gənclərin həyatlarını yüngülləşdirmək üçün onlar ən müasir protezlərlə təmin olundular...
- Ehtiyacı olanların az vaxtda mənzil şəraiti yaxşılaşdırıldı...

*Təkcə şəhid ailələri və qazilər deyil, hər bir Azərbaycan vətəndaşı Mehriban xanımın simasında Vətən müharibəsində iştirak etmiş insanlara qayğı və hörmətin şahidi oldu.*

**Dövlətin bu sahədəki siyasətinin ən fəal icraçılarından biri kimi Mehriban xanım Əliyeva mərhəmət, cəfakeş və qayğıkeşliyi ilə xalqın dərin və tükənməz məhəbbətini qazandı!**

❖ ❖ ❖

Əvvəlki fikrimizə qayıdırıq: Dövlət və Heydər Əliyev Fondu!

Bu qoşa qanad müstəqil Azərbaycanı yeni zirvələrə ucaldır!

Cənab İlham Əliyevin və Mehriban xanım Əliyevanın timsalında!

Hələ qarşıda görüləsi çox iş var: Qarabağı və Şərqi Zəngəzuru bərpa edib dirçəltmək, Böyük qayıdışı uğurla başa çatdırmaq, saysız-hesabsız layihələri sürətlə reallaşdırmaq, xalqın firavan həyatını təmin etmək və s.

**Birinci vitse-prezident kimi altı illik fəaliyyəti dövründə Mehriban xanım Əliyeva çox uğurlara imza atıb, çox istəkləri gerçəyə çevirib!**

Ən əsası dövlət başçısı ilə yanaşı, hər bir Azərbaycan vətəndaşının qəlbində isti yuva qurub!

Bu əqidə və əməl birliyi Azərbaycan xalqını da yumruq kimi birləşdirib!

Şübhə etmirik ki, növbəti illərdə nailiyyətlərimiz daha da çoxalacaq, ürəyimizdəki arzuların hər biri dövlətimizin vətəndaş məmnunluğuna xidmət edən siyasəti sayəsində uğurla həyata keçəcəkdir.

**Bəxtiyar SADIQOV**



# Azərbaycanın qüruru

**Türkiyə Cümhuriyyətində baş verən zəlzələnin faciəvi nəticəsinin aradan qaldırılması üçün demək olar ki, bütün dünya səfərbər oldu. Amma bütün bu prosesdə Azərbaycan xalqının və Azərbaycan Prezidentinin göstərdiyi mərhəmət, qayğı, yardım, dəstək isə ən öndə oldu, nümunə yaratdı. Azərbaycanın hər bir rayonundan, kəndindən, məhəlləsindən qardaş ölkəyə yardımlar göndərildi.**

**Amma bu məqamda xüsusi qeyd etməliyik ki, bu prosesdə də hər zaman olduğu kimi, qayğıya, köməyə ehtiyacı olanların yanına birinci yetişən, imdadına ən tez çatan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın mərhəməti, fədakarlığı daha fərqli oldu. Mehriban xanım Əliyeva yenə də azərbaycanlı qardaşlığının, dostluğunun ən yüksək təcəssümünü nümayiş etdirdi. Məhz Mehriban xanım Əliyeva zəlzələ baş verən ilk anlardan etibarən bununla bağlı təşəbbüslə çıxış etdi və həm rəhbərlik etdiyi Heydər Əliyev Fondu, həm də xalq tərəfindən yardıma ehtiyacı olan qardaşlarımıza kütləvi kömək kampaniyasına başlanıldı.**

## Mərhəmət və xeyirxahlıq

Türkiyədə zəlzələdən zərərçəkənlərə humanitar yardımla bağlı etdiyi paylaşımda Mehriban xanım Əliyeva bildirdi ki, hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur.

Köməyə ehtiyacı olanlara yardım kampaniyasına qoşulan hər bir soydaşımıza, təşkilata təşəkkür edən birinci xanım azərbaycanlı olduğuna görə qürur duyduğunu bəyan etdi: "Ölkəmizdə başlanılmış yardım kampaniyasına qoşulan hər bir soydaşımıza, yerli şirkət və təşkilatlara, xüsusilə yardım toplama məntəqələrində gecə-gündüz var gücü ilə işləyən könüllülərə, polislərə, bir sözlə, qardaş Türkiyə xalqının yanında olmağa çalışan hər kəsə minnətdaram! İnsanseverliyinizə, mərhəmətinizə və şəfqətinizə görə çox sağ olun! Azərbaycanlı olduğuma görə çox qürurluyam!"

Ümumiyyətlə, Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-dan etibarən Heydər Əliyev Fondu Türkiyəyə bir neçə humanitar yardım təyyarələri göndərib. Bu yardımlar çərçivəsində zəlzələdən zərərçəkmiş şəxslərə müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, axtarış-xilasetmə işlərinə dəstək məqsədilə ləvazimat və avadanlıqlar çatdırılıb.

Mübaliğəsiz demək olar ki, hər bir azərbaycanlı Mehriban xanım Əliyevanın mərhəmət, yardımsevər, qayğıkeşlik örnəyi olması ilə qürur hissi keçirir.

Ümumiyyətlə, Azərbaycanın birinci xanımı üçün bu qayğıkeşlik, humanistlik təkcə qardaş Türkiyədə baş verən zəlzələ ilə bağlı deyil, Heydər Əliyev Fondunun rəhbəri bəşəri hisslərlə yaşayır. Onun tolerantlıq prinsipinə və multikultural dəyərlərə əsaslanan tədbirləri - sistemli fəaliyyəti respublikamızın inzibati-coğrafi sərhədləri ilə məhdudlaşmır, bir çox ölkələri əhatə edir.

Ötən ilin avqust ayında Pakistanda baş vermiş təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılmasına və yenidənqurma işlərinin həyata keçirilməsinə dəstək məqsədilə Heydər Əliyev Fondu tərəfindən dost ölkəyə edilən yardımlar, Vatikanda müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin, "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin, Fransanın Strasburq şəhərində Kafedral kilsəsinin, Parisdə Versal sarayının parkındakı abidələrin bərpası, Fransada yerləşən məşhur Notr-Dam kilsəsinin təmir edilməsi bunu təsdiqləyən reallıqlardır.

Heç şübhəsiz ki, Mehriban xanım Əliyevanın bu missiyası, coğrafi sərhədləri aşan xoşməramlı fəaliyyəti beynəlxalq arenada, geniş qlobal platformada olduqca yüksək qiymətləndirilir, Azərbaycanın bəşər sivilizasiyasının mənəvi xəzinəsinin zənginləşməsinə vacib töhfəsi kimi dəyərləndirilir.

## Qəhrəman qazilərə göstərilən qayğı

Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan, humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki ölkəmizdə, eləcə də dünyada yüksək ehtiram sahibi olan Birinci vitse-prezident Mehriban xanım Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdən biridir.

Məhz Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası daha aydın görünür. Həyata keçirdiyi xoşməramlı layihələr, reallaşdırdığı genişmiqyaslı proqramlar onu xalqın sevimlisinə çevirib.

44 günlük Vətən müharibəsi zamanı sağlamlığını Vətən, torpaq yolunda qurban verərək bədəninin müxtəlif orqanlarını itirən igidlərimizin ən müasir protezlərlə təmin edilməsi prosesinə şəxsən nəzarət edən Mehriban xanım Əliyeva bu xoşməramlı missiyası ilə yüzlərlə qəhrəmana yeni həyat bəxş etmişdir. Döyüşlər zamanı yaralanmış və protezləşməyə ehtiyacı olan hər bir əsgər və zabitlə görüşlər keçirilmiş, onlara fərdi yanaşma tətbiq olunmuşdur. Belə ki, yaralanmış əsgər və zabitlərin fərdi xüsusiyyətləri, onların aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və hər bir istifadəçinin protezlərə olan tələbləri təhlil edilərək hərbçilərimiz üçün uyğun, müasir protez istehsalçıları olan qabaqcıl şirkətlərin yüksək texnologiyalı məhsulları seçilmişdir. Tətbiq edilən yeni protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəkət uyğunluğu yaradır. Bunun sayəsində protezlə ayaq və yaxud əl bir-birinə maksimum uyğunlaşmış olur. İstifadəçi protezi amputasiya olunmuş hissənin davamı kimi hiss edir və daha rahat addım atır, aktiv hərəkət edir.

Bir sözlə, Vətən müharibəsində əzalarını itirən hərbçilərimiz 4-cü, son nəsil protezlər vasitəsilə aktiv həyata dönüş imkanı əldə edir, hətta idman yarışlarında iştirak edə bilmək bacarığına sahib olurlar.

## Qarabağ və Şərqi Zəngəzurda mədəni-dini abidələrin bərpası

Heydər Əliyev Fondu öz fəaliyyəti çərçivəsində 2020-ci ilin sentyabrında başlanan və tarixi zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində də qələbə üçün öz töhfəsini verdi.

Böyük qələbədən sonra Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, xüsusilə də xalqımızın erməni barbarları tərəfindən dağıdılan tarixi, mədəni, dini irsinin bərpası istiqamətində mühüm fəaliyyət göstərir. Hələ 2020-ci il dekabrın 8-də Birinci vitse-prezident rəsmi instaqram səhifəsindəki paylaşımından bildirmişdir ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır. Hazırda fond tərəfindən işğaldan azad edilən bölgələrimizdəki bütün tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq əvvəlki görkəminə qaytarılır. Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib.

Heydər Əliyev Fondu Şuşada da quruculuq və bərpa işlərini gerçəkləşdirərək şəhərin bərpasına öz sanballı töhfələrini verir. Fond Şuşada Saatlı, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərinin, Ağdam Cümə məscidinin, Zəngilan məscidinin, Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksinin, Mehmandarovların malikanə kompleksinin, məşhur tarzən Sadıqcanın evinin və Şirin su hamamının təmir-bərpa işlərini həyata keçirir.

Heydər Əliyev Fondu Qarabağ bölgəsində tarixən var olan mədəni ənənələrimizi də bərpa edir. 32 ildən sonra Şuşada, Cıdır düzündə fond tərəfindən "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı, Vaqif Poeziya Günləri təşkil olundu.

Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi bu layihələrə ən yüksək qiyməti Prezident İlham Əliyev verib. Dövlət başçısı bildirib ki, bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür və bu, fondun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, Vətən qarşısında yerinə yetirilən şərəfli borcdur.

Bundan başqa, Bakıda Beynəlxalq Muğam Mərkəzinin, Müasir İncəsənət Muzeyinin, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyinin, açıq səma altında Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin, Etno-Ekoloji Mərkəzin və Qala Əntiq Əşyalar Muzeyinin, habelə Zirə Mədəniyyət Mərkəzinin istifadəyə verilməsi Mehriban Əliyevanın Azərbaycanın mədəni dəyərlərinin qorunması və təbliğatı sahəsində layihələrinin tərkib hissəsidir. Bütün bunlar Azərbaycan mədəniyyətinin inkişafına və təbliğatına xidmət göstərən xoşməramlı missiyadır.

## Kimsəsizlərin hamisi, böyük dayaq

Bu bir həqiqətdir ki, Mehriban Əliyevanın rəhbərik etdiyi Heydər Əliyev Fondu yarandığı gündən Azərbaycanda və dünyada bir çox layihələr həyata keçirir. Fondun səhiyyə, elm və təhsil, sosial və mədəniyyət sahəsi üzrə reallaşdırdığı xeyriyyəçi layihələr xalq tərəfindən hər zaman təqdir edilir.

Bu layihələrin içərisində keçmiş şəhid ailələri, Qarabağ müharibəsi əlillərinin, keçmiş qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, kimsəsiz, internat məktəbində böyüyən uşaqlara diqqət və qayğı ilə bağlı məsələlər Mehriban xanım Əliyevanın fəaliyyətinin prioriteti olub. Hər zaman bu kateqoriyadan olan insanları diqqətdə saxlayan Mehriban xanım Əliyeva onlarla tez-tez görüş keçirir, problemlərini dinləyir və yerində həllinə çalışır.

Mehriban xanım Əliyeva həm də valideyn himayəsindən məhrum olan uşaqların mənəvi anası, onların dayağıdır. Harada yardıma möhtac biri varsa, o, Mehriban xanımın pənahındadır. Birinci xanım xeyirxah qəlbinin səsi ilə bütün qüvvəsini, zamanını təmənnasız olaraq insanların rifahının yüksəlməsinə, xoşbəxt yaşamasına sərf edir. Bütün bunlar isə insanlarda ona qarşı tükənməz sevgi hissi formalaşdırır. İnsanlara bağlılığı onun daxilindən, mənəvi dünyasından, xoş münasibətindən irəli gəlir. Mərhəmət, qayğıkeşlik və xeyriyyəçilik xüsusiyyətlərinə görə Mehriban xanım Əliyeva xalqımızın qəlbində, yaddaşlarda, xoşməramlı məğrur Azərbaycan qadını obrazı yaradıb. Onun xidmətlərinin sevinci yüzlərlə insanın ömür səhifəsinə yazılıb, neçə-neçə ailəyə səadət bəxş edib.

## Humanizm və insanpərvərlik ənənələrinə sadiqlik

Etiraf etməliyik ki, Mehriban Əliyeva hələ deputatlıq fəaliyyəti dövründə də ölkə həyatının bütün sahələrində olan problemli məsələləri diqqətindən kənarda qoymayıb.

2005-2017-ci illərdə Milli Məclisin deputatı olmuş Mehriban Əliyevanın Azərbaycanda parlamentarizm ənənələrinin inkişafında mühüm xidmətləri olub. Onun rəhbəri olduğu parlamentlərarası dostluq qrupları Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında əvəzsiz rol oynayıb.

Parlamentin deputatı olduğu zamanlar daim seçicilərlə görüşən, onların qayğıları ilə maraqlanan, sosial problemlərinin həlli istiqamətində tədbirlər görən Mehriban Əliyeva seçicilərin dərin hörmət və rəğbətini qazanmaqla Milli Məclisdə dövlətimizin və xalqımızın maraqlarından çıxış edərək bir sıra vacib qanunların qəbul olunmasında yaxından iştirak edirdi. O, eyni zamanda Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır. Mehriban xanımın təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində uğurla həyata keçirdiyi layihələr ölkəmizin inkişafına mühüm töhfə verir.

Bütün imkan və bacarığını insanların yüksək rifahı naminə humanitar proqramların reallaşmasına, Azərbaycanın dünyada sivil ölkə kimi tanınmasına yönəldən Mehriban Əliyeva həm də daim köməyə ehtiyacı olan insanların yanında olub.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ədalət, humanizm və insanpərvərlik ideallarına sadiq qalaraq Mehriban xanım Əliyeva deputat kimi Milli Məclisdə 4 amnistiya aktının (2007, 2009, 2013 və 2016-cı illərdə) qəbul edilməsi təşəbbüsü ilə çıxış edib.

2016-cı ildə Mehriban xanım Əliyeva böyük amnistiya aktının qəbulu ilə bağlı Milli Məclisdə keçirilən xüsusi iclasda çıxış edərək bildirmişdir ki, 2007-ci ildən başlayaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları əsasında 30 minə yaxın məhkum müxtəlif növ cəzalardan azad edilib. 2007-ci, 2009-cu və 2013-cü illərdə fondun təşəbbüsünü dəstəkləyən və minlərlə insana azadlıq bəxş edən həmkarlarının hər birinə dərin minnətdarlığını bildirən Mehriban xanım Əliyeva vurğulamışdır ki, Heydər Əliyev Fondu fəaliyyəti ilə həm ölkəmizdə, həm də xaricdə böyük hörmət və inam qazanmış bir təşkilatdır. Fond hər bir addımında, hər bir fəaliyyətində insanpərvərlik və humanizm ideyalarını rəhbər tutur, qayğı və yardıma ehtiyacı olan insanlara daim kömək etməyə çalışır. Təsadüfi deyil ki, bu gün fonda üz tutan insanlar bu məkanı son ümid yeri kimi qiymətləndirirlər.

Azadlığa çıxan məhkumlara yeni həyatlarında uğurlar diləyən Mehriban xanım Əliyeva demişdir: "Bu gün azadlıqdan məhrum olmuş minlərlə həmvətənimizin ən böyük ümidi azadlığa çıxmaq, ailələrinə qovuşmaq və normal həyat tərzini qurmaqdır. Onları bağışlamaq, onlara yeni şans vermək həyatlarında başqa yolu, cinayətə yer olmayan, qanunlara hörmətlə yanaşma prinsiplərinə əsaslanan yeni ömür yolunu vermək deməkdir. Cinayət törədən hər bir insan öz səhvini, təbii ki, dərk etməlidir və gələcəkdə bu səhvlərə yol verməməlidir. Eyni zamanda həm dövlətimiz, həm ictimaiyyətimiz, hər birimiz azadlığa çıxan insanlara onların normal həyat tərzini qurmasında yardım etməliyik".

Bu səmimi fikirlər bir daha Mehriban xanım Əliyevanın qəlbinin böyüklüyünün, bağışlamaq, əfv etmək, yardım, kömək göstərmək kimi xoş əməllərə sadiqliyinin bariz təcəssümüdür.

## Layiqli xidmət missiyası

Danılmaz həqiqətdir ki, Prezident İlham Əliyevlə birgə Mehriban xanım Əliyevanın da ölkənin inkişaf strategiyasının hazırlanmasında, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində böyük əməyi var. Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezidentin ən yaxın silahdaşı olan Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyətini xalq hər zaman yüksək qiymətləndirib. Məhz bu fəaliyyəti, həyata keçirdiyi çoxşaxəli mütərəqqi layihələri, istedad və bacarığı onun 2017-ci ildə ölkənin Birinci vitse-prezidenti təyin olunmasını şərtləndirdi.

Ölkə tarixində dərin islahatlar ili kimi yadda qalan 2016-cı ildə ümumxalq referendumu keçirildi. Ən islahatçı Prezidentin təşəbbüsü ilə keçirilən referendumda seçicilərin etimadı xalqın dövlət başçısına inamının əyani göstəricisi idi. Yəni xalq cənab Prezident İlham Əliyevin elan etdiyi islahatlar konsepsiyasına birmənalı dəstəyini nümayiş etdirdi.

Həmin ildə islahatların tərkib hissəsi kimi ölkəmizdə keçirilən ümumxalq referendumu ilə Konstitusiyaya dəyişikliklər edildi və həmçinin Azərbaycanda yeni vitse-prezidentlik institutu yaradıldı. Eyni zamanda daha çevik idarəetmə mexanizmlərinin hüquqi bazası formalaşdırıldı. Vitse-prezidentlik vəzifəsinin təsis edilməsinin məqsədi dövlət strukturlarının fəaliyyətində səmərəliliyin və çevikliyin yüksəldilməsini, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına nail olunmasını, məmur məsuliyyətinin gücləndirilməsini təmin etmək idi. Bu vəzifəyə məhz Mehriban xanım Əliyevanın təyin edilməsi isə heç də təsadüfi deyildi. Çünki Mehriban Əliyeva həm Milli Məclisin deputatı, həm də Heydər Əliyev Fondunun rəhbəri kimi ölkə daxilində və beynəlxalq arenada mühüm layihələr həyata keçirir, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahələrində həyata keçirdiyi layihələr inkişafa əvəzsiz töhfələr verirdi. Həmçinin Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər beynəlxalq aləmdə böyük əks-səda doğurur, bu layihələr Azərbaycanın dünyadakı mövqeyini daha da möhkəmləndirir, ölkəmizin qədim mədəni-tarixi köklərə malik olduğunu sübuta yetirirdi.

2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edildi. Həmin gün Prezidentin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı bildirdi ki, Mehriban Əliyeva uzun illərdir ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatında mühüm və fəal rol oynayır. Çox peşəkar, bilikli, təcrübəli, prinsipial, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır: "Bütün bu sadaladığım amilləri nəzərə alaraq mən bu qərara gəldim. Bu gün Mehriban Əliyevanın həyatında yeni bir dövr başlayır və əminəm ki, ölkəmizin inkişafında bundan sonra da öz dəyərli töhfəsini verəcək".

Altı ildir ki, Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində fəaliyyət göstərir və gördüyü işlərin, həyata keçirdiyi layihələrin, irəli sürdüyü təşəbbüslərin hər biri Azərbaycanın dünyada tanıdılmasına, mədəniyyətimizin inkişafına və vətəndaşları narahat edən problemlərin həllinə yönəlib. Yəni son 6 ildə Mehriban xanım Əliyevanın həyata keçirdiyi siyasətə nəzər yetirsək, əlbəttə ki, ölkəmiz, xalqımız adına çox böyük işlərin görüldüyünə şahidlik edərik.

## Yüksək təşkilatçılıq, idarəçilik məharəti

Mehriban xanım Əliyeva həmçinin Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynayıb. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olub. 2015-ci ildə Birinci Avropa Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində reallaşıb. İki il yarım ərzində bu oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunlarının tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalmasında Mehriban xanımın böyük əməyi var. Bunu təkcə Azərbaycan xalqı deyil, bütün dünya ictimaiyyəti söyləyir. Hər iki mühüm yarışdan sonra beynəlxalq idman ictimaiyyətinin nümayəndələrinin, idmançıların, məşqçilərin öz ölkələrində səsləndirdikləri fikirlər əsl həqiqəti əks etdirdi. Azərbaycan bu yarışlarda ortaya nümunə qoydu və bu yarışların təkcə idman yarışı deyil, həmrəylik bayramlarına çevrildiyi vurğulandı. Azərbaycan Şərqlə, Qərb arasında oynadığı mənəvi körpü rolunu daha da möhkəmləndirdi.

Birmənalı şəkildə deyə bilərik ki, onun siyasi fəaliyyətinin kökündə humanizm dayanır, ölkənin sosial problemlərinin həllinə daha çox diqqət ayırır. Mehriban xanım Əliyeva hər zaman həssas əhali qruplarına qayğı ilə yanaşır, onların sosial ehtiyaclarının ödənilməsi üçün müxtəlif təşəbbüslər irəli sürür, bayramlarda, dövlətimiz üçün digər əlamətdar günlərdə onlara sovqatlar, hədiyyələr göndərilir.

Mehriban xanım Əliyevanın bu əvəzolunmaz fəaliyyətini, həyata keçirdiyi uğurlu missiyanı xalqımız hər zaman təqdir edib, Prezident İlham Əliyev isə çox yüksək qiymətləndirib. Dövlət başçısı 29 iyun 2015-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanı Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edib.

*Əlbəttə ki, bu, Mehriban xanım Əliyevanın halal zəhmətinə verilən ən yüksək qiymətdir. Əminliklə deyə bilərik ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevlə birgə xalqımızın xoşbəxtliyi, firəvan həyatı, dövlətimizin yüksəlişi, daha da qüdrətlənməsi istiqamətində möhtəşəm layihələr həyata keçirəcəklər.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Vətən və xalq üçün fədakarlıq

**Azərbaycan xalqı öz tarixinin şərəfli və qüdrətli günlərini yaşayır. 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi, hazırda həmin ərazilərdə həyata keçirilən sürətli, genişmiqyaslı və kompleks bərpa və quruculuq işləri, müharibədən sonra yaranmış yeni reallıqlar fonunda dövlətimizin qətiyyətli mövqeyi Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinin, həyata keçirdiyi siyasətin Azərbaycanın milli maraqlarını layiqincə təmin etməsindən xəbər verir.**

Bu gün hər birimizin qarşısında dayanan vətəndaşlıq borcu birinci növbədə milli maraqlardan çıxış edərək, öz fəaliyyətimizlə bu siyasətə dəstək verməkdir. Bu baxımdan Prezidentin ən böyük siyasi silahdaşı olan Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti hər birimiz üçün nümunə sayıla bilər. Bu gün Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunmasının altıncı ili tamam olur.

Yaxşı xatirimizdədir ki, Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə Mehriban ƏliyevanınAzərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması cəmiyyətimiz, ictimaiyyət nümayəndələri tərəfindən sevinclə qarşılandı. Bu da səbəbsiz deyildi, çünki buna qədər Azərbaycan cəmiyyəti hansı vəzifəni daşımasından asılı olmayaraq, Mehriban Əliyevadan məhz dövlətə, xalqa xidmət etmək, insanların yanında olmaq missiyasını görmüşdülər. Bu vəzifəyə təyin olunana qədər Mehriban Əliyeva Azərbaycan Mədəniyyət Fondu, Heydər Əliyev Fondu kimi dövlətimizə layiqincə xidmət edən ictimai təşkilatlara, Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik edirdi. Eyni zamanda Mehriban Əliyeva 2005-ci ildən Milli Məclisin deputatı idi. Bütün bunlar göstərir ki, Birinci vitse-prezident təyin olunana qədər Mehriban Əliyevanın fəaliyyəti istər ictimai, istərsə də siyasi baxımdan nə qədər əhatəli idi.

Daşıdığı hər bir vəzifədəki fəaliyyəti, ortaya qoyduğu vətəndaşlıq missiyası isə Mehriban Əliyevaya xalqın məhəbbətini qazandırıb. Mehriban Əliyevanın hələ 1995-ci ildə təsis etdiyi Azərbaycan Mədəniyyət Fondunun həyata keçirdiyi layihələr mədəniyyətimizin dünyada təbliği, mədəni irsimizin qorunması işinə olduqca böyük töhfələr verib və verməkdədir.

2004-cü ildə yaradılan Heydər Əliyev Fondu isə Mehriban Əliyevanın əzmkar rəhbərliyi ilə Ulu Öndərimizin ideyalarının həyata keçirilməsini təmin edir. Məhz Mehriban Əliyevanın işgüzarlığı və təşəbbüsləri ilə Heydər Əliyev Fondunun sosial, mədəniyyət və humanitar spektrlərdə həyata keçirdiyi layihə və proqramlar Prezident İlham Əliyevin inkişaf siyasətinə böyük dəstək verir. Bu layihələrin hər biri ölkəmizdə təhsilin, səhiyyənin inkişafında, mədəni və tarixi dəyərlərimizin qorunmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, müxtəlif xəstəliklərdən əziyyət çəkən vətəndaşlarımızın, xüsusilə körpə və uşaqların müalicəsində, aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsində böyük rol oynayır.

Milli Məclisin deputatı kimi Mehriban Əliyevanın gördüyü işlər isə parlament tariximizin şərəfli səhifələridir. Təsadüfi deyil ki, son illərdə parlamentin qəbul etdiyi amnistiya aktlarının dördünün təşəbbüskarı Mehriban Əliyevadır. Eyni zamanda Mehriban Əliyeva Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının sədri kimi Azərbaycanın beynəlxalq əlaqələrinə dəyərli töhfələr verib.

Məhz bu cür nümunələrə görə 2017-ci ildə Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyinatı hər kəs tərəfindən təqdir edildi. Eyni zamanda hər kəs əmin oldu ki, Mehriban Əliyeva buna qədər həyata keçirdiyi vətənə və insanlara xidmət amalını yeni vəzifədə daha əzmlə davam etdirəcək. Təsadüfi deyil ki, ilk gündən Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın Birinci vitse-prezident kimi işgüzarlığının, öz fəaliyyətini məhz insanların rifahının yaxşılaşmasına həsr etməsinin şahidi oldu. Yaxşı xatırlayırıq ki, Mehriban Əliyeva ilk müşavirələrini məcburi köçkünlərin sosial problemlərinin həllinə, onların mənzil şəraitinin yaxşılaşdırılmasına və 2016-cı il Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsinə həsr etmişdi.

Ötən 6 ildə Mehriban Əliyeva Birinci vitse-prezident kimi öz vəzifəsini əzmlə, uğurla həyata keçirib. Bu dövr ərzində Mehriban Əliyeva hər addımda vətəndaşların yanında olub, öz əməlləri ilə cəmiyyətin yüksək ovqatının təmin olunmasına böyük töhfə verib. Bu fəaliyyətin ən gözəl nümunəsini Vətən müharibəsi günlərində gördük. Mehriban Əliyeva Vətən müharibəsində yaralanmış əsgər və zabitlərin müalicəsini diqqət mərkəzində saxladı, şəhid ailələrinin yanında oldu. Heydər Əliyev Fondu tərəfindən yaralanmış əsgər və zabitlərimiz müalicə üçün Türkiyəyə göndərildilər.

O cümlədən koronavirus pandemiyasının tüğyan etdiyi günlərdə Mehriban Əliyeva bu qlobal bəla ilə mübarizə üçün bütün imkanlarını səfərbər etdi. Heydər Əliyev Fondu tərəfindən respublikamıza tibbi avadanlıqların gətirilməsi, yaşlı vətəndaşlara ərzaq yardımlarının verilməsi heç vaxt yaddaşlardan silinməyəcək.

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərində də Mehriban Əliyeva mükəmməl vətəndaşlıq mövqeyindən çıxış edir. Heydər Əliyev Fondunun təşəbbüsləri ilə işğaldan azad olunmuş ərazilərimizdə, xüsusən Şuşada tarixi və dini abidələrimizin bərpası Mehriban Əliyevanın vətənimizə və dəyərlərimizə bağlılığının təcəssümüdür. Heydər Əliyev Fondunun həyata keçirdiyi bu layihələr nəticə etibarilə azad olunmuş ərazilərin daha sürətli bərpasına xidmət edir.

Fevralın 6-da qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələ, çoxsaylı dağıntı və insan tələfatı hər birimizin qəlbini göynətdi. Bu günlərdə Azərbaycan ictimaiyyəti qardaş dövlət üçün səfərbər olub. O cümlədən Azərbaycan Qızıl Aypara Cəmiyyəti də Türkiyədə zəlzələdən zərərçəkənlər üçün dəstək aksiyasına qoşulub. Bu məsələdə də ən mükəmməl nümunəni Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu ortaya qoydu. Bu günlərdə bir daha Mehriban Əliyevanın qayğıkeşlik, xeyirxahlıq, insansevərlik kimi nəcib bir missiyanı layiqincə daşıdığının şahidi olduq.

Olduqca qürurvericidir ki, Mehriban Əliyevanın humanist obrazı xalqımız tərəfindən yüksək qiymətləndirilir. O cümlədən bu misilsiz fəaliyyət sənət insanlarının yaradıcılığında da öz əksini tapır. Yüz minlərlə insanın bu böyük şəxsiyyətə rəğbətini, ehtiramını mən "Mehriban insan" əsərini bəstələməklə, "Ulu Öndər Fondu", "Mehriban Azərbaycan" musiqi layihələrini ərsəyə gətirməklə ifadə etmişəm.

Birinci vitse-prezident təyin olunması ilə dövlətə və xalqa xidmət amalı yeni mərhələyə daxil olan Mehriban Əliyevanın ötən 6 ildə gördüyü işlərin miqyası olduqca geniş və əhatəlidir. Ən əsası, bu fəaliyyətin hər bir məqamı həm də Mehriban Əliyevanın uğur hesabatıdır. Bu şərəfli yolda, Azərbaycanın yüksəlişi naminə möhtəşəm fəaliyyətində Mehriban Əliyevaya yeni uğurlar arzu edirəm.

***Novruzəli ASLANOV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***



# Dövlətə xidmət nümunəsi

**Nəcib əməllər sahibi, qayğıkeş insan, böyük xeyriyyəçi, mədəniyyətimizin hamisi və Azərbaycan həqiqətlərinin fədakar təbliğatçısı. Cəmi bir neçə ifadə ilə tam aydın olur ki, söhbət Azərbaycanın Birinci vitse-prezidenti, ölkəmizdə və dünyada xeyirxahlıq və pənah ünvanı kimi tanınan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevadan gedir.**

Özündə olduqca dərin və əhatəli məna yükü daşıyan cəmi bir neçə ifadə Mehriban Əliyevanın geniş və çoxşaxəli fəaliyyətinin məzmununu və fəlsəfəsini bizlərə ən mükəmməl şəkildə təqdim edir.

Mehriban Əliyeva fəaliyyət göstərdiyi bütün sahələrdə dövlətimiz və xalqımız, insanların rifahının yüksək olması üçün çalışıb. İstər Azərbaycan Mədəniyyət Fondunun prezidenti, istər Heydər Əliyev Fondunun prezidenti, istər Milli Məclisin deputatı, istər Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban Əliyeva Azərbaycanın yüksəlişinə xidmət edib, köməyə ehtiyacı olan insanların yanında olub. Mehriban Əliyeva həm də ona həvalə edilmiş digər vəzifələri də layiqincə yerinə yetirərək Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edən fəaliyyət nümunəsi ortaya qoyub. Ölkəmizdə 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının ən yüksək səviyyədə təşkil olunması da məhz Mehriban Əliyevanın əsl vətəndaşlıq və yüksək təşkilatçılıq missiyasının göstəricisidir.

Xüsusilə qeyd edilməlidir ki, Mehriban Əliyevanın siyasi-ictimai və sosial məzmunlu fəaliyyəti hər bir cəhəti ilə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyalarının həyata keçirilməsinə, dövlət başçısı cənab İlham Əliyevin inkişaf siyasətinin daha böyük nailiyyətlər qazanmasına xidmət edib. Və elə bu fəaliyyətin nəticəsi kimi Mehriban Əliyeva 6 il əvvəl - 2017-ci il fevral ayının 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunub. Həmin gün Təhlükəsizlik Şurasının iclasında Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin bu qərarın qəbul edilməsində əsas rol oynadığını deyən dövlət başçısı əmin olduğunu bildirmişdi ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcək.

Geridə qoyduğumuz illərin reallıqları göstərir ki, Mehriban Əliyeva Birinci vitse-prezident kimi öz vəzifəsini layiqincə, yüksək dinamizmlə yerinə yetirir. Bu illər ərzində Azərbaycan Prezidenti İlham Əliyev böyük və möhtəşəm uğurlara nail olub, tarixi sınaqlardan layiqincə çıxıb. Bütün bu proseslərdə Mehriban Əliyeva öz fəaliyyəti ilə dövlət siyasətinə, uğurlarımızın miqyasının daha böyük olmasına layiqli töhfələr verib. Məsələn, Birinci vitse-prezident vəzifəsinə təyin olunduğu ilk vaxtlardan Mehriban Əliyeva ağır şəraitdə yaşayan məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasını, Aprel döyüşlərində sağlamlığını itirmiş hərbçilərimizin yüksəkkeyfiyyətli protezlərlə təmin olunmasını öz nəzarətinə götürdü və bu istiqamətlərdə uğurlu layihələr həyata keçirdi.

Koronavirus pandemiyasının şiddətli dövrü hər birimizin yaxşı yadındadır. O dövrdə xalqımız Birinci vitse-prezidentin koronavirusla mübarizədə nümunəvi və vətənpərvər davranışının şahidi oldu. Mehriban Əliyevanın tapşırıqları ilə ölkəmizə gətirilən tibbi ləvazimatlar, laboratoriyalar, xaricdən həkimlərin dəvət olunması koronavirusla mübarizədə çox böyük rol oynadı. O cümlədən Heydər Əliyev Fondunun həyata keçirdiyi sosial aksiyalar pandemiya ilə mübarizədə milli həmrəyliyi gücləndirən amil oldu. Mehriban Əliyevanın koronavirusun yayılmasının qarşısının alınması, yoluxanların müalicə edilməsi ilə əlaqədar həkimlərimizin səylərini və fədakarlıqlarını yüksək qiymətləndirməsi tibb işçilərini bu gözəgörünməz düşmənlə mübarizədə daha da səfərbər etdi.

Mehriban Əliyeva Vətən müharibəsi dövründə də Birinci vitse-prezident kimi fəaliyyətini layiqincə həyata keçirdi. Şəhid analarına dayaq oldu, döyüşlərdə ağır yaralanmış qəhrəmanlarımızın sağlamlıqlarının bərpa edilməsini öz nəzarətinə götürdü.

Bu gün isə Mehriban Əliyeva Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi prosesində Prezident İlham Əliyevin ən böyük dəstəkçisidir. Azad edilmiş ərazilərdə, xüsusən Şuşada Heydər Əliyev Fondunun həyata keçirdiyi hər bir layihə, ermənilər tərəfindən dağıdılmış milli və tarixi mədəniyyət nümunələrimizin bərpası ilk növbədə Mehriban Əliyevanın vətənpərvərliyinin göstəricisidir.

Ötən 6 il göstərir ki, Mehriban Əliyeva etimadı layiqincə doğruldur, Birinci vitse-prezident kimi vəzifəsini məsuliyyətlə və uğurla yerinə yetirir. Bütün bunlar deməyə əsas verir ki, qarşıdakı dövrlərdə də Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyətində vətənə xidmətin yeni nümunələrinə şahidlik edəcəyik.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Xeyirxahlıq rəmzi

**2016-cı ildə Konstitusiyaya edilən dəyişikliklərdən irəli gələrək Birinci vitse-prezidentlik institutunun təsis olunması Azərbaycanın müasir tarixinin əsas siyasi yeniliklərindən biridir.**

Azərbaycan üçün yeni təcrübə olmasına baxmayaraq, Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti göstərir ki, konstitusion normadan irəli gələrək bu vəzifənin yaradılması dövlət aparatının daha da təkmilləşməsinə xidmət edən mükəmməl addımdır.

Bu gün Mehriban Əliyevanın Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmasının altıncı ili tamam olur. Öncə onu qeyd etmək istərdim ki, cənab Prezidentin bu qərarı ilk növbədə Mehriban Əliyevanın ictimai-siyasi xadim kimi həmin vaxta qədər olan fəaliyyətinə verilən ali qiymət idi. Belə ki, bu təyinata qədər Mehriban Əliyeva fəaliyyət göstərdiyi bütün sahələrdə gördüyü böyük işlərlə, özünün yüksək işgüzarlığı, vətən sevgisi, insanlara qayğısı ilə xalqımızın yüksək rəğbətini və etimadını qazanmışdı.

Bu təyinata qədər Mehriban Əliyeva 1995-ci ildən təsis etdiyi Azərbaycan Mədəniyyət Fondunun, 2004-cü ildən Heydər Əliyev Fondunun prezidenti, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti, 2005-ci ildən Milli Məclisin deputatı kimi çoxşaxəli ictimai və siyasi fəaliyyətlə məşğul olub. Bu sahələrin hər birində Mehriban Əliyevanın amalı yalnız və yalnız dövlətə, xalqa, insanlara layiqli xidmət etmək olub. Bu sahələrin hər birini ayrı-ayrılıqda nəzərdən keçirsək, Mehriban Əliyevanın öz vətəndaşlıq missiyasını nümunəvi həyata keçirdiyini görərik. Məsələn, Azərbaycan Mədəniyyət Fondu adından da göründüyü kimi, mədəniyyətimizin təbliğinə, mədəni-tarixi irsimizin qorunmasına xidmət edib.

Ulu Öndər Heydər Əliyevin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün yaradılan fond isə artıq 19-cu ildir ki, respublikamızın sosial, ictimai və mədəni həyatının ən müxtəlif sahələrində əsaslı və böyük nəticələri olan proqram və layihələr həyata keçirir. Bu dövr ərzində Heydər Əliyev Fondu tərəfindən inşa olunan yüzlərlə məktəb, uşaq bağçası, uşaq evi Mehriban Əliyevanın sosial təşəbbüslərinin təcəssümüdür. İrsi və qan xəstəliklərinin qarşısının alınması, autizm və daundan əziyyət çəkən uşaqların müalicəsi ilə bağlı Heydər Əliyev Fondu tərəfindən yaradılan tibbi mərkəzlər milli genefondumuzun qorunmasına xidmət edir. Məhz Heydər Əliyev Fondunun hər il keçirdiyi tibbi aksiyalar nəticəsində minlərlə vətəndaşımız sağlam həyata qovuşub. Kimsəsizlərə, yaşlı insanlara dayaq olan Mehriban Əliyeva ona edilən müraciətləri həmişə diqqət mərkəzində saxlayır, xüsusi tibbi dəstəyə ehtiyacı olanları öz himayəsinə götürür.

Mehriban Əliyevanın Azərbaycan muğam sənətinin, xalq musiqisinin qorunması, inkişafı, təbliği, mədəni-tarixi abidələrimizin bərpası, milli dəyərlərimizin UNESCO-nun irs siyahısına salınması ilə əlaqədar fəaliyyəti onun milli dəyərlərimizə nə qədər bağlı olduğunu göstərir. Bu həm də onu təsdiqləyir ki, Mehriban Əliyeva yalnız milli mədəniyyətimizin fəal təbliğatçısı deyil, həm də onun əzmkar qoruyucusudur. Bütün bu işlərlə Mehriban Əliyeva maddi və mənəvi mədəni irsimizin əsl sahiblərinin məhz xalqımız olduğunu dünyaya bəyan edir.

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan həqiqətlərinin, xüsusən Xocalı soyqırımının dünyada tanıdılması ilə bağlı görülən işlər isə Mehriban Əliyevanın vətənpərvərliyinin təcəssümüdür.

Mehriban Əliyeva ilə bağlı başqa bir mühüm məqam ondan ibarətdir ki, onun fəaliyyəti Azərbaycanın hüdudlarını da aşır. Bu mənada Heydər Əliyev Fondunun xətti ilə xarici ölkələrdə keçirilən xeyriyyə tədbirləri ilə Mehriban Əliyeva həm də Azərbaycanı dünyaya daha yaxından tanıdır. Fondun Rusiyada, Pakistanda, Vatikanda və Romada həyata keçirdiyi layihələr hər zaman həmin ölkələrdə böyük minnətdarlıq və razılıqla qarşılanır. Bütün bunlara görə Mehriban Əliyeva tək Azərbaycanda deyil, ölkəmizin xaricində də haqlı olaraq qayğıkeş insan, messenat kimi tanınır.

Mehriban Əliyeva öz ictimai fəaliyyəti ilə həm də qlobal miqyasda mədəniyyətlərarası dialoqa da layiqli töhfələ verir. Bunun nəticəsidir ki, Azərbaycan qlobal dialoqun əsas ünvanlarından biri kimi tanınmaqdadır.

Mehriban Əliyevanın 2005, 2010 və 2015-ci illərdə yüksək səs toplamaqla Milli Məclisin deputatı seçilməsi də insanların etimadının, rəğbətinin göstəricisi idi. Amma Mehriban Əliyeva parlamentdəki fəaliyyəti dövründə yalnız seçildiyi dairənin deyil, özünün çoxşaxəli ictimai fəaliyyəti ilə hər kəsin deputatı oldu, millət vəkilliyinin ən mükəmməl nümunəsini ortaya qoydu.

6 il uzun zaman kəsiyi deyil. Amma bu 6 ildə Mehriban Əliyeva Birinci vitse-prezident kimi fəaliyyəti ilə ölkəmizin inkişafına yüksək töhfələrini verir. Mehriban Əliyevanın bu dövrdəki fəaliyyətinin bir neçə istiqamətinə nəzər yetirməklə bunu aydın görmək olar. İlk növbədə onu qeyd edək ki, hələ əvvəllər fəaliyyətində sosial məsələlərə geniş yer verən Mehriban Əliyeva Birinci vitse-prezident kimi ötən 6 ildə bu sahəni xüsusi diqqət mərkəzində saxlayıb. Bu sırada keçmiş məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi, müharibə əlillərinin müalicəsi və protezlərlə təminatı xüsusi qeyd olunmalıdır.

O cümlədən ölkəmizin beynəlxalq əlaqələrinin inkişafında Mehriban Əliyevanın xidmətləri misilsizdir. Birinci vitse-prezident kimi Mehriban Əliyevanın bu dövrdə xarici səfərləri, Bakıda keçirdiyi görüşlər Azərbaycanın xarici siyasətinin uğurlarına layiqli töhfələr verir.

Koronavirus pandemiyasının şiddətli dövründə Mehriban Əliyeva həm Birinci vitse-prezident kimi, həm də Heydər Əliyev Fondunun prezidenti kimi bu qlobal problemin geniş fəsadlar yaratmaması üçün möhtəşəm və peşəkar fəaliyyət ortaya qoydu.

Son iki ildə isə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərində Mehriban Əliyeva daşıdığı bütün vəzifələrlə İlham Əliyevin qarşıya qoyduğu məqsədlərin uğurla reallaşmasına dəyərli töhfələr verir.

Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin hər bir məqamı Vətəni sevməyin ən möhtəşəm örnəyidir. Qarşıda isə Azərbaycanı daha böyük uğurlar gözləyir. Əlbəttə ki, bu yolda Mehriban Əliyeva öz fəaliyyəti ilə respublikamızın inkişaf kursuna özünün layiqli töhfələrini verəcək.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***





# Mehriban missiya

## Birinci vitse-prezidentin təşəbbüsü ilə yaradılan 2 nömrəli Uşaq Reabilitasiya Mərkəzi çarəsiz xəstəliklərdən əziyyət çəkən uşaqların ümid ünvanına çevrilib



**...Yusif autizm spektrlidir. Bir ilə yaxındır ki, bu mərkəzə gələrək bərpa-müalicə kursu keçir. Anası danışır ki, prosedurlar sayəsində oğlunda gözlə görüləcək irəliləyişlər var. O, sakitləşib, adaptasiya olunub, uşaqlarla ünsiyyət qurmağı, oynamağı bacarır...**

**Doqquz yaşlı Murtaza isə serebral iflicdən əziyyət çəkir, inkişaf ləngiməsi var. İllərlə danışa, sadə tapşırıqları yerinə yetirə bilməyən Murtazanın bu mərkəzə gələndən sonra həyatında yeni bir səhifə açılıb. Artıq bu balaca oğlan insanlarla ünsiyyət qurmağı, şəstlə özünü təqdim etməyi, ad-soyadını, yaşını deməyi bacarır...**











Bu zaman Murtazanın və onu kənardan fəxrlə seyr edən gözüyaşlı anasının üzündə yaranan xoşbəxtlik təbəssümünü görmək isə dünyalara bərabər dəyərdə olur...

Bəli, bura çarəsiz xəstəliklərə qarşı cəsurluqla mübarizə aparan, həyata möhkəm əllərlə tutunan körpə canlara yaşam şansının verildiyi, naçar ana-ataların ümid, pənah ünvanıdır...

O ünvan ki "uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır" devizini həyat amalına çevirərək onların sağlam, qayğısız böyüməsinə çalışan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb...

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2 nömrəli Uşaq Reabilitasiya Mərkəzindən danışırıq...

### Heydər Əliyev Fondunun töhfəsi

2 nömrəli Uşaq Reabilitasiya Mərkəzi Yeni Günəşli yaşayış massivində yerləşir. Birinci xanım Mehriban Əliyeva 2011-ci ildə istifadəyə verilən müəssisənin açılış mərasimində iştirak edib və binada yaradılan şəraitlə tanış olub.

Bu müəssisə ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün tibbi-sosial reabilitasiya imkanlarının artırılmasına, bu sahədə müasir standartlara uyğun infrastrukturun formalaşdırılmasına mühüm töhfə olub. Mərkəzin məqsədi tibbi, sosial, reabilitasiya tədbirlərinin aparılması yolu ilə sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpa edilməsini və onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Müəssisədə həmin kateqoriyadan olan uşaqların psixoloji, reabilitasiya ehtiyacları təyin edilərək, fərdi reabilitasiya planları əsasında onların tibbi, sosial, reabilitasiyası işləri aparılır. Onlar praktikada özünü doğrultmuş fizioterapevtik prosedurlardan, müalicəvi vannalardan və sair metodlardan istifadə edilməklə 15-dən çox növdə reabilitasiya xidmətləri, habelə sosial yanaşma əsaslı reabilitasiya tədbirləri ilə əhatə olunurlar.

2 nömrəli Uşaq Reabilitasiya Mərkəzində 18 yaşa qədər uşaqlar müalicə olunurlar. Müəssisəyə qəbul tibbi-sosial ekspert komissiyasının göndərişi əsasında olur. Əvvəlcə bura qəbul olunan uşaqların həkim və mütəxəssislər tərəfindən kompleks qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə nəticəsində hər bir uşağa fərdi reabilitasiya proqramı tərtib olunur. Bu proqrama əsasən uşaqlar 14 gün reabilitasiya kursunu davam etdirirlər. Daha sonra onlara hər üç aydan bir, yəni ildə dörd dəfə belə kurslar keçirilir və bu, 18 yaşlarına qədər davam etdirilir. 18 yaşı tamam olanlar isə böyüklər üçün reabilitasiya mərkəzlərinə müraciət edirlər. Buradakı bütün xidmət, müalicə, müayinə və prosedurlar dövlət vəsaiti hesabına həyata keçirilir.

### Ötən il 18 yaşadək əlilliyi olan 14104 şəxsə xidmət göstərilib

Mərkəzin direktoru Jalə Həsənova məlumat verir ki, burada uşaqlar ambulator şəkildə müalicə alırlar. Mərkəzdə fizioterapiya prosedurları, masaj, müalicəvi bədən tərbiyəsi (aktiv və passiv) üçün hər cür şərait mövcuddur.

2 nömrəli Uşaq Reabilitasiya Mərkəzində icma əsaslı fəaliyyət də göstərilir. Ambulator müalicə bitdikdən sonra uşaqlar hansısa prosedurdan keçmək üçün, həftədə iki dəfə, mütəxəssislərin yanına gəlib seanslarını davam etdirə bilərlər. Eyni zamanda mərkəzin mütəxəssisləri və həkimləri onlayn reabilitasiya aparırlar. Psixoloqlar, loqopedlər, müalicəvi bədən tərbiyəsi təlimatçıları zoom proqramı vasitəsilə uşaqlara onlayn seanslar keçirlər.

Jalə Həsənova söyləyir ki, Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əlilliyi olan şəxslərin ambulator reabilitasiya xidmətlərindən davamlı istifadəsini təmin etmək məqsədini daşıyan "Rehabus" (Reabilitasiya avtobusu) layihəsi çərçivəsində uzaq məsafədə olan uşaqlar həftədə iki dəfə müəssisəyə gətirilir və burada müalicə alırlar. 2022-ci il ərzində 568 nəfər "Rehabus"dan faydalanıb.

Agentlik tərəfindən uşaqlar üçün ippoterapiya, yəni atlarla müalicə də həyata keçirilir. Həftədə bir dəfə diaqnozu uyğun gələn uşaqlar ippodroma aparılır və burada xüsusi təlim görmüş atlar vasitəsilə bu terapiyadan faydalanırlar. Keçən il ümumilikdə 302 uşaq ippoterapiyadan faydalanıb.

2022-ci il ərzində, ümumilikdə agentlik tərəfindən 14104 18 yaşadək əlilliyi olan şəxsə xidmət göstərilib.

### Bu uşaqlara həyatı təkrar qazandırmaq mümkündür

2 nömrəli Uşaq Reabilitasiya Mərkəzinin həkim-nevroloqu Vüsalə Məmmədova bildirir ki, bu mərkəzə əsasən uşaq serebral iflici, daun sindromlu, autizm, əqli və inkişaf geriliyi diaqnozlu bir çox pasient qəbul olunur. Həkim söyləyir ki, ümumi sosial mühit, qidaların tərkibinin dəyişməsi, eləcə də stres və bir çox digər faktorlar əsasında bu diaqnozlar son zamanlar artıb: "Düzdür, bu xəstəliklərin yaranma səbəbi tam dəqiqliklə müəyyən edilməyib, amma hamiləlik dönəmində stresdən uzaq durmaq, təbii və düzgün qidalanmaq, havada daha çox olmaq, tibbi müayinələrdən vaxtlı-vaxtında keçmək, eləcə də lazımi laborator müayinələri vaxtında vermək mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə, əsasən, bu cür xəstəliklər genetik, irsi faktorlara əsaslanır. Görürsən ki, ilk uşaqlarında belə problemlərlə rastlaşan valideynlər irsi genetik analizlər vermirlər və nəticədə digər uşaqlarında da belə patalogiyalara rast gəlinir".

Mütəxəssis qeyd edir ki, adıçəkilən xəstəliklərdən tam sağalma olmasa da, müəyyən irəliləyişlərə nail olmaq mümkündür: "Həmçinin burada təkcə anadangəlmə xəstəliklər yox, travma nəticəsində sonradan qazanılmış xəstəliklər də var. Belə uşaqların reabilitasiyası, abilitasiyası yetəri qədər yaxşı nəticə verir və həmin uşaqlara həyatı təkrar qazandırmaq mümkündür. Ən azından bu uşaqların özünəxidmət bacarığını, cəmiyyətə adaptasiyasını müəyyən qədər təmin edə bilirik".

Mərkəzə gələn uşaqların əvvəlcə psixoloji vəziyyətini ümumi dəyərləndirdiklərini və buna əsasən korreksiya işləri ilə məşğul olduqlarını söyləyən psixoloq Leyla Əfəndiyeva deyir ki, ehtiyac yarananda uşaqların valideynləri ilə də maarifləndirici söhbətlər həyata keçirirlər: "Biz uşaqlarla 12 seans həyata keçiririk və sonuncu seanslarda valideynlərə də məsləhət veririk ki, bundan sonra uşaqlarla necə işləməklərini bilsinlər".

Psixoloq Günay Orucəliyeva isə deyir ki, mərkəzdə valideynlərlə qrup terapiyaları, meditasiyalar, komanda oyunları "dəyirmi masa" arxasında görüşlər təşkil edir, uşaqların hansısa problemləri ilə bağlı çəkdikləri çətinliklər barədə söhbətlər edirlər: "Bəzən xəstə uşağın valideyni sağlam uşağın valideyni ilə bir yerə düşəndə narahat olur, sıxılır. Eyni problemdə olan insanlar öz təcrübələrini bölüşür, qarşılaşdıqları problemlərə, situasiyalara diqqət çəkirlər. Biz də öz növbəmizdə məsləhətlərimizi verir, problemlərdən birgə çıxış yolları arayırıq. Valideynlər mərkəzdən çıxanda həmişə mənən rahatlıq tapdıqlarını deyirlər".

### "Biz analar üçün bundan böyük möcüzə, xoşbəxtlik ola bilərmi?!"

Tünzalə adlı valideynlə söhbət edirik. Bildirir ki, çox qısa zamandır bu mərkəzə müraciət etmələrinə baxmayaraq, serebral iflic olan övladında müsbət irəliləyişlər var: "Burada əlilliyi olan uşaqlar üçün lazım olan hər bir şərait yaradılıb. Yeriyə, danışa, oynaya bilməyən uşaqlar gözlərimizin qabağında burada addım atdığını görüb, dillərindən bal kimi süzülən "ana" kəlməsini eşidib sevincimizdən uşaq kimi ağlamışıq...

Biz analar, valideynlər üçün bundan böyük möcüzə, xoşbəxtlik ola bilərmi?! Bu xoşbəxtliyi bizə yaşatdığı üçün bütün xəstə uşaq anaları adından Mehriban xanım Əliyevaya təşəkkür edirəm. Yaxşı ki Azərbaycanda bu cür mərkəz, biz çarəsiz valideynlərə belə ümid yeri yaradıb".

2 nömrəli Uşaq Reabilitasiya Mərkəzində əmək təlimçisi işləyən Esmira Ağayeva uşaqlarda kiçik motor bacarıqlarının inkişafını həyata keçirir. Mütəxəssis qeyd edir ki, kiçik motor bacarıqları nəticəsində uşaqlar dünyanı dərk edir, onlarda ətraf mühit haqqında anlayış yaranır, əl-göz koordinasiyası, həmçinin nitq formalaşır. Uşaq danışdıqca buna öyrənmə onun üçün daha asan olur. Eyni zamanda kiçik motor bacarıqlarının inkişafı psixologiya sahəsi ilə də yaxındır, yəni təfəkkürün, diqqətin, təxəyyülün yaxşılaşmasına da müsbət təsir göstərir.

Asudə vaxtın təşkili üzrə iş aparan Bəhriyyə Nağıyeva uşaqlarda bacarıqları aşkarlayıb inkişaf etdirdiklərini, eyni zamanda mədəni kütləvi tədbirlər təşkil etdiklərini söyləyir. Qrup şəklində işləyərək onlara rəsm çəkməyi, şeirlər, mahnılar, rəqslər, tamaşalar öyrədirlər və bacarıqlarını nümayiş etdirmək imkanı yaradırlar. Bir sözlə, bu uşaqların cəmiyyətə inteqrasiya olmaları üçün hər cür kömək göstərirlər.

Mərkəzin uyğunlaşma tədrisi otağında pedoqoq Həcər Mehdili ilə söhbətləşirik. Uşaqların əqli inkişafı üzərində işlədiklərini bildirən pedaqoq onlara 12 günlük kurs təyin etdiklərini bildirir: "Əvvəlcə uşaqların beyin xəritəsini çıxarırıq, diaqnostikadan sonra onda zəif tərəf hansıdırsa, onun üzərində işləyirik".

Pedoqoq deyir ki, burada aparılan təhsil ənənəvi təhsildən çox fərqlənir: "Elə olur ki, biz burada bir hərfin üzərində bir ay işləyirik. Uşağın yazı yazma səbəbləri də müxtəlif olur. Ola bilər uşağın qələn tutma bacarığında, elə də ola bilər əqlində problemi var. Əqli problemdirsə, öyrənmə prosesi daha uzun çəkir. Kiçik motor problemidirsə, təlimin müxtəlif texniki və əyani vəsaiti ilə uşağa qələmtutma, sətir üzərində horizontal və vertikal yazma, xətləri keçmə və sair xüsusi metodiki vasitələrdən istifadə edirik. Xüsusilə bildirim ki, uşaqlarda daha yaxşı nəticələr əldə etmək üçün erkən müdaxilələr çox vacibdir".

Trenajor otağında çalışan tibb bacısı Minayə Əliyeva burada aktiv uşaqları qaçış trenajoru, vertikalizator, matomed kimi alətlərə qoyduqlarını və bu sayədə müsbət nəticələr əldə etdiklərini deyir. Vertikalizator serebral iflic uşaqların dik dayanmalarına, ayaqlarını düz açmalarına çox kömək olur. Digər bir alət olan motomed isə passiv əzələni işləməyə məcbur edir. Uşaqlar motomedə bağlanır ki, onlar çalışsınlar, əzələ passivliyini aradan götürsünlər. Hətta matomeddən sonra uşaqlar evdə velosiped belə sürməyə başlayırlar".

### "Mehriban xanımın qayğısını hər zaman hiss edirik"

Sumqayıtda yaşayan Əfsanə Mirzəyevanın 6 yaşlı övladı da ağır diaqnozlu uşaq serebral iflicidir. O, övladını "Rehabus" layihəsi çərçivəsində həftədə iki dəfə müalicə üçün bu mərkəzə gətirir. Valideyn bildirir ki, cəmi 3 prosedurdan keçmələrinə baxmayaraq, oğlunda müəyyən irəliləyişlər hiss edir: "Allah heç kəsi övladı ilə sınağa çəkməsin, bu təsviri mümkünsüz dərddir. Amma Mehriban xanım Əliyevanın timsalında dövlətimizin bizim kimi çarəsiz valideynlərə daim dəstək, dayaq durması bu çətin sınağa sinə gərməyimizə kömək olur. Bu mərkəzdə övladlarımız üçün yaratdığı yüksək şəraitə görə Mehriban xanıma minnətdarlığımız sonsuzdur. Onun uşaqlara olan tükənməz sevgisini, qayğısını hər zaman hiss edirik".

Uşaq serebral iflici, daun sindromu, autizm tam sağalan xəstəlik deyil, amma əlamətlərinin yaxşılaşması mümkündür. Elə bu müsbət halı əldə əsas tutan Mehriban xanım Əliyeva da çarəsiz xəstəliklərə düçar olan uşaqların həyata tutunmaları üçün var qüvvəsi ilə çalışır, onların tibbi müalicəsi, reabilitasiyası üçün ən müasir mərkəzlər yaradır.

Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2 nömrəli Uşaq Reabilitasiya Mərkəzi də Mehriban xanımın təşəbbüsü ilə yaradılan belə yaşam ünvanlarından biridir...

### Müqəddəs amal

Daun sindromlu Fatimə də 2 nömrəli Uşaq Reabilitasiya Mərkəzində müalicə alır. Əvvəllər çox aqressiv, "ipə-sapa yatmayan" bir qızcığaz olan Fatimə indi müəllimlərinin çalışqan "şagirdi"nə çevrilib...

12 yaşlı Aişənin isə əqli geriliyi var. Buna görə anası müalicəsi üçün onu məhz bu ünvana gətirib. İlhamə xanım deyir ki, buradakı müalicə sayəsində qızında gözlə müşahidə olunacaq irəliləyişlərə nail olunub. Qalın saçları kimi gözləri də gecənin siyahına bənzəyən, gülümsəyərək danışanda üzü ay kimi işıq saçan Aişənin özü ilə söhbət edəndə və ürəkdən söylədiyi "Azərbaycan" şeirinə qulaq verəndə isə bir daha əmin oluruq ki, valideynlərin də, burada çalışan mütəxəssislərin də səylə göstərdikləri zəhmətləri hədər getməyib...

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqların sağlam, şən, qayğısız böyüməsi kimi müqəddəs amalı yerinə yetib...



***Yasəmən MUSAYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***











# Günəşlər

## Daun sindromlu uşaqlar Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunublar



**Onlara "Günəşin övladları" da deyirlər...**

**Bu şirin və ünsiyyətcil uşaqlar bizi çöhrələrində təbəssüm, gözlərində ümid işığı ilə qarşılayırlar. Dağınıq baxışlarına rəğmən gözlərindəki işığı görməmək mümkün deyil. Hər kəslə mehriban ünsiyyət qurmaq onlara xas olan xüsusiyyətdəndir. Xoş duyğularını göstərməyi bacarır və hər kəsdən göstərdikləri sevginin qarşılığını gözləyirlər.**

**Bu dostlarımızın arzu və istəkləri isə özləri kimi balaca olmasa da, hər birinə xas olan xüsusi mimika və jestləri ilə şipşirindirlər. Onlar əsgər gedib torpaqlarımızın keşiyində durmaq, həkim olub insanlara çarə olmaq, rəssam kimi görə bilmədiklərimizi çəkib bizə göstərmək istəyirlər. O balaca ürəkləri ilə necə böyük hədəflər müəyyən ediblər...**

**Bu, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin onlar üçün yaratdığı sağlam, yaradıcı və maraqlı mühitin nəticəsidir...**

### Mərkəzdə 500-dən çox uşaq qeydiyyatdadır

Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan bu mərkəz 2013-cü il oktyabrın 7-də fondun prezidenti Mehriban Əliyevanın iştirakı ilə açılıb. Həmin gündən də Daun sindromlu uşaqların qəbuluna başlanılıb. Hazırda 500-dən çox uşaq mərkəzdə qeydiyyatdadır. Uşaqlar həmin mərkəzdə bir-biriləri ilə, görüşə gələnlərlə ünsiyyət qurur, müəllimlərdən dərs alır, müxtəlif üsullarla bacarıqlarını inkişaf etdirirlər.

Mərkəz Qayğı-Sağlam Nəsil Naminə İctimai Birliyinin nəzdində fəaliyyət göstərir. Mərkəzin direktoru Natella Həsənova deyir ki, tədris ikinövbəlidir. 5-10 yaşlı uşaqlar dərsə səhər, 10 yaşdan yuxarılar isə günorta növbəsində gəlirlər. "Elə uşaqlar var ki sadə davranış qaydalarını bilmirlər. Bunlar mərkəzdə öyrədilir. Onlara əmək, heykəltaraşlıq, rəsm, xalça toxuma otaqlarımız, idman və rəqs zallarımız var. Uşaqlara məktəbəqədər və məktəb fənləri üzrə hazırlıq dərsləri keçirilir", - deyən Natella Həsənova onu da bildirir ki, valideynlər də yaddan çıxmır, onlar üçün də müntəzəm olaraq psixoloji seminarlar təşkil olunur.

Qeyd edək ki, daun sindromlu uşaqlarda anadangəlmə müəyyən xəstəliklər olur ki, bunların vaxtında aşkarlanması çox vacibdir. Çünki immun sistemləri zəif olan uşaqlar digər xəstəliklərə asanlıqla yoluxurlar. Mərkəzə qəbul olunan hər bir uşaq ilkin olaraq pediatr müayinəsinə cəlb edilir, daha sonra onların psixodiaqnostikası aparılır.

Pediatr Könül Süleymanovanın sözlərinə görə, uşaqlar ilk dəfə mərkəzə qəbul olunanda müayinədən keçirilir, onların yoluxucu, yanaşı xəstəlikləri müəyyən edilir, dərman qəbul edib-etməmələri öyrənilir. Toplanan məlumatlar əsasında hər bir uşağın anketi hazırlanır. "Təbii ki, müayinə yalnız ilk gün aparılmır. Hər gün mərkəzə daxil olan kimi uşaqları müayinə edib, onlarda hər hansı infeksion xəstəliyin, şübhəli əlamətin olub-olmamasını yoxlayırıq. Hansı simptom olduqda həmin uşaq dərhal izolyasiya edilir", - deyir pediatr. O əlavə edir ki, uşaqlarda hər hansı xəstəlik aşkarlanarsa, valideynə mütəxəssis yanına aparması tövsiyə edilir, bununla yanaşı, həmin uşağın xəstəliyi daim nəzarətdə olur.

K.Süleymova bildirir ki, mərkəzə 5-10 yaşında müraciət edəndə onların əksəriyyətində ilk dəfə yanaşı xəstəliklər aşkarlanır. Valideynlər bəzən bu vaxta qədər bundan xəbərsiz olduqlarını deyirlər.

Pediatr onu da deyir ki, daun sindromlu uşaqlarda anadangəlmə müəyyən xəstəliklər də olur: "Ürək qüsurları bəzən təcili əməliyyata ehtiyac yaradır. Bundan başqa, hormonal, digər patologiyalar, mədə-bağırsaq, eyni zamanda dəri xəstəlikləri də müşahidə edilir. Bəzilərinin immun sistemləri zəif olduğuna görə xəstəliyə tez yoluxur və ağır keçirirlər".

Pediatr belə uşaqlarla işləməyin həm çətinliyindən, həm də özəlliyindən danışır. Deyir ki, mütəxəssislər xüsusi uşaqlarla işləyəcəklərini bilməli, əvvəlcədən buna hazır olmalıdırlar. Çünki onlar müxtəlif xarakterdə - aqressiv, sakit, qapalı, müəyyən pis vərdişləri olan uşaqlarla rastlaşa bilərlər. Hər biri ilə xüsusi davranmaq lazım gəlir. Onların hamısı gülməyi sevmir, bəzən özlərinə qapanırlar. Bununla belə mütəxəssislər onlarla da dil tapmağı bacarırlar. Bəzən onların vərdişlərini tərgitmələri üçün aylarla, illərlə vaxt lazım olur.

Mərkəzin mütəxəssisləri bunun üçün xarici ölkələrdə mütərəqqi təcrübəni mənimsəyiblər, onlar Türkiyədə təkmilləşmə seminarlarında iştirak ediblər.

### Daun sindromlu uşaqların hər birinə fərdi yanaşılır

Mərkəzdə kompüter, psixologiya, riyaziyyat, astronomiya, məktəbəqədər hazırlıq, biologiya və zoologiya kabinetləri, valideyn otaqları, idman zalı və üzgüçülük hovuzu, kino və teatr zalları var. Burada heykəltaraşlıq, əmək, xalçaçılıq, tikiş, rəsm dərnəkləri fəaliyyət göstərir. Mərkəzi gəzdikcə müxtəlif otaqlarda müəyyən məşğuliyyətlərə başları qarışan uşaqları görürük.

İlk diqqətimizi çəkən psixoloq otağı olur. Psixoloq uşaqlara sakit səs tonu və səbirlə izahlarını verir. Mane olmamaq şərtilə kənarda oturub uşaqların seansını izləyirik.

Sonra psixoloq Fərqanə Nağıyeva ilə söhbət edirik. O deyir ki, daun sindromlu uşaqların hər birinə fərdi yanaşmaq lazımdır. Çünki fərqli olduqları kimi, fərqli yanaşmanı da sevirlər. Onun sözlərinə görə, uşağın ilkin vəziyyəti valideynlərdən çox asılıdır: "Ailədə uşağa erkən müdaxilə, düzgün yanaşma olubsa, ana və atanın psixoloji durumu güclüdürsə, ilkin diaqnostikamızda bilinir. Bu, bizim işimizi də yüngülləşdirir və uşağın səhhətinə, gələcəyinə yaxşı təsir edir. Uşaq ailənin güzgüsüdür. Ailə şən əhval-ruhiyyədə olarsa, uşaq da elə olur".

Amma psixoloq bundan əlavə peşəkar yanaşma lazım olduğunu da bildirir. Çünki daun sindromlu uşaqların bəzilərində davranış pozuntuları müşahidə edilir və bəzən oturma, dinləmə bacarıqları belə olmur, komandalara reaksiya vermirlər. Fərqanə Nağıyeva deyir ki, erkən müdaxilə görməyən uşaqlarla hansı yaşda olmalarına baxmayaraq, sıfırdan iş aparılır, amma bu, uşağın fiziki yaşına təsir edir, yaşıdlarından geri qalır.

Mərkəzə müraciət edən valideynlərin və övladlarının psixodiaqnostikası barədə də məlumat aldıq. F. Nağıyeva deyir ki, ilkin diaqnostikada əsasən analardan uşaqlar haqqında məlumat almağa çalışırlar. Çünki onların düşdüyü mühitə adaptasiya dövrü olur, sıxılırlar. Valideynlərin məlumatları əsasında ilkin diaqnoz qoyduğunu deyən psixoloq əlavə edir ki, sonra uşaqları dərs müddətində müşahidə edir: "Beləliklə, uşağın psixi sağlamlıq vəziyyətini müəyyənləşdirirəm. Bəzi uşaqlar həm autizm xəstəsi olur, həm də daun sindromlu. Bundan sonra cədvəl qurulur və həftəlik seanslara başlanılır. İşlədikcə uşaqdakı inkişafa diqqət yetiririk. Göz koordinasiyasına, diqqət dağınıqlığına, digər bacarıqlarına fikir veririk".

Psixoloji seanslar ancaq otaqda, masa arxasında keçirilmir. Mərkəzdə musiqi, qum terapiyası da var. Bundan başqa, sensor otağında uşaqların vestibulyar aparatının inkişafı, onların hiss və həyəcanlarını idarə edə bilməsi, gərginliklərinin azalması üçün terapiyalar aparılır.

Daun sindromlu uşaqlarla iş çətin olsa da, mütəxəssislərin də qeyd etdiyi kimi, onların olduğu mühitdən çox şey asılıdır. Zamanlarının çoxunu evdə keçirən uşaqlara xüsusi diqqət, qayğı vacibdir. Bu baxımdan mərkəzdə uşaqların valideynləri ilə də iş aparılır. Onlara uşaqların gün ərzində fəaliyyəti barədə məlumat verilir, evdəki davranışları sorğulanır və bu istiqamətdə müvafiq tövsiyələr verilir. Bundan başqa, valideynlərin psixoloji vəziyyətləri də nəzərə alınaraq onlar üçün daim müxtəlif mövzularda seminarlar təşkil olunur. Mütəxəssislər tərəfindən valideynlərin sualları cavablandırılır, onlara uşaqlarla davranışlarındakı yanlış məqamlar izah edilir və müvafiq tövsiyələr verilir.



### Heydər Əliyev Fondu qayğısını əsirgəmir

Mərkəzdə uşaqların həvəslə rəsmlə məşğul olduqlarını da gördük. Al-əlvan rənglərlə işləyən balaca dostlarımızdan birinə yaxınlaşırıq. Adı Fatimədir, 12 yaşı var, rəsm çəkməyi xoşlayır, amma sonra qoluna işarə edərək iynə vurmağı xoşladığını da göstərir. Hər şeyi sevdiyini deyən Fatimənin fikirlərində nələrin olduğunu, xəyallar aləmində nələri canlandırdığını bilməsək də, üzündəki o təbəssümü, mehribanlığı ilə insana ən gözəl hissi, müsbət enerjini ötürür.

Əl yelləyən, gözlərinin içi gülən Səidə yaxınlaşıram. Əl toqquşdurur və gülür, sonra suallarımı cavablandırır. 14 yaşı var. Gələcəkdə kim olmaq istədiyini soruşanda isə hərbi salam verir və deyir ki, əsgər olmaq istəyir.

Daha sonra tikiş otağında bizi görən kimi ünsiyyətə can atan Rüqəyyaya yaxınlaşırıq. Onun 12 yaşı var və gələcəkdə həkim olmaq istəyir. Rüqəyya deyir ki, mərkəzdə uşaqlarla birlikdə olmaq xoşuna gəlir.

Mərkəz yaradıldığı gündən Heydər Əliyev Fondu tərəfindən daim diqqət və qayğı ilə əhatə olunub. Bunu mərkəzin kollektivi və valideynlər xüsusi razılıqla bildirirlər. Qeyd edirlər ki, Birinci-vitse prezident Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan, o cümlədən daun sindromlu uşaqlara böyük diqqət göstərir, dəstəyini əsirgəmir. Fond tərəfindən təşkil olunan bütün tədbirlərə mərkəzin uşaqları da dəvət olunurlar. Şən xarakterləri ilə qatıldıqları ortamda xoş aura yaradan uşaqlarımız, həmçinin bayram şənliklərinin proqramında iştirakçı kimi çıxış edir, öz bacarıqlarını nümayiş etdirirlər.

Daun sindromlu uşaqlar hər kəsdən bir az daha artıq sevgi, diqqət istəyirlər. Onların hər birinin arzusu, istəyi, sonsuz xəyalları var. Ən əsası kiçik qəlblərinə yerləşməyəcək qədər hədsiz sevgiləri aşıb, daşır. Və bu sevgilərini hər kəslə paylaşmaq, göstərdikləri xoş münasibətin qarşılığını isə susaraq umurlar. Onların bu istəklərini gözlərindən oxumamaq mümkün deyil. Bu uşaqlar ən xoşbəxt insanları xatırladırlar.

Necə deyərlər, bu dünyadakı ən xoşbəxt insan sevməyi biləndir. Görünür, onlar ürəklərindəki həlim və isti duyğuları ətraflarına saçmağı hamıdan yaxşı bacarırlar. Biz də onlardan sevgimizi əsirgəməyək.





















*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# "Mehriban xanımın qayğısı ilə yenidən həyata döndük"

## Yüksəkkeyfiyyətli protezlərlə təmin olunan Vətən müharibəsi əlilləri Birinci vitse-prezidentə minnətdardırlar























**Alimlərin "hiss edən protez ayaq" ixtira etdikləri və gələcəkdə istifadəyə veriləcəyi barədə bir müddət əvvəl xarici mətbuatda yayılan xəbərlər yəqin ki, bir çoxlarına inandırıcı gəlməyib.**

Həmin xəbərlərdə bildirilirdi ki, "ağıllı" protezi quma, qara və ya suya toxunduran şəxs ayağının nəyin üstündə olduğunu gözüyumulu təxmin edəcəkdir. Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin də ölkəmizdə bu sahədə mütərəqqi yeniliklərə imza atıldığının şahidi olduq.

Mərkəzdə hazırlanmış protezlərlə təmin edilmiş vətəndaşlar, eləcə də Vətən müharibəsi əlilləri həmin protezlərlə kifayət qədər sürətli hərəkət edə, pilləkənləri rahatlıqla düşüb-qalxa, həmçinin müxtəlif idman növləri ilə məşğul ola bilirlər. Görünür, bu protezlərin hiss etmə "qabiliyyəti" olmasa da, istifadəçilər süni aşağı və yuxarı ətrafları özününküləşdirməyi bacarıb, onlarla kifayət qədər dostlaşa biliblər. Əlbəttə ki, bunun üçün protezi hazırlayanların peşəkarlığı, istifadəçilərin möhkəm iradəsi və belə xoş missiyanın reallaşdırılması üçün xeyirxah təşəbbüskarlığın mövcudluğu vacib amildir. Nəzərə alanda ki, həmin mexaniki və elektron protezləri hazırlayanlar illərin peşəkarları, istifadə edənlər 44 günlük Vətən müharibəsinin şanlı qəhrəmanları, onların qayğıkeşi isə xalqımızın qalib əsgərlərinin mənəvi anası birinci xanım Mehriban Əliyevadır, onda məsələ aydın olur.

### Peşəkarlıq və isti münasibət qazilərimizi ruhlandırır

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə sağlamlığını itirən vətəndaşlarımızın müalicə və reabilitasiyası Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Döyüşlərdə ağır yaralanan hərbçilərimiz Heydər Əliyev Fondu tərəfindən Türkiyəyə göndərilir və ya onların müalicəsi üçün digər ölkələrdən mütəxəssislər dəvət olunur. Fond həmçinin sağlamlıqlarını itirmiş əsgər və zabitlərimizi yüksək texnologiyalı protezlərlə də təmin edir.

Son illərdə, xüsusilə, Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində qurulan müasir reabilitasiya infrastrukturu Vətən müharibəsi əlillərinin keyfiyyətli xidmətlərlə təmin edilməsi üçün mühüm potensial rolunu oynayır. Mərkəzdə müharibədən keçən iki ildən çox müddətdə əlillərin protezlərlə təminatının yüksək səviyyədə olmasına şahidlik etdik. Buradakı ab-hava, müharibə qəhrəmanlarına qarşı canıyananlıq təsdiq edir ki, xoş missiya və canla-başla görülən işlər aşağı və yuxarı ətraflarını itirmiş müharibə əlillərimizə yeni həyat bəxş edir.

Mərkəz əlilliyi olan şəxslər üçün müasir texnologiyalar əsasında protez-ortopedik məhsulların və digər reabilitasiya vasitələrinin istehsalı, əlillərin xəstəliklərinin diaqnostikası və stasionar müalicəsi istiqamətində fəaliyyət göstərir. İstehsalat sahəsindən və stasionar şöbədən ibarət olan müəssisənin fəaliyyəti Nazirlər Kabinetinin 18 dekabr 2020-cı il tarixli qərarı ilə tənzimlənir. Sənədə əsasən, mərkəz tərəfindən 57 reabilitasiya vasitəsi hazırlanır və əlilliyi olan şəxslərə təqdim edilir.

Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin direktoru Asif Məcidov deyir ki, həmin reabilitasiya məhsullarının əksəriyyəti mərkəzdə mövcuddur: "Müəssisədə istehsal edilən son nəsil protezlər itirilən orqanların funksiyasını 70-90 faiz təmin edir. Bu, amputasiyanın səviyyəsindən asılıdır. Müasir protezlərlə qazilərimiz rahat hərəkət edir, yük qaldıra bilirlər".

### Ağır yük qaldırmağa, tennis oynamağa imkan verən "güclü" və "ağıllı" protezlər

"Mən bu protezlə beş kiloqrama qədər yük daşıyıram, kompüter klaviaturasında yazıram, avtomobil idarə edirəm, hətta tennis oynaya bilirəm". Bu barədə danışan Samir Məmmədli deyir ki, protezdən istifadə qaydalarını öyrənməsi üçün ona təlim keçirilib və artıq yeni "qolu"na öyrəşib.

Samir Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda silaha sarılan qəhrəman igidlərimizdəndir. 2020-ci il oktyabrın 5-də Suqovuşan uğrunda gedən döyüşlərdə yaralanıb. Bir ildən çoxdur ki, protezdən istifadə edir. Özünü o qədər yaxşı hiss edir ki, lazım gələrsə, lap elə protez qolu ilə də Vətənin keşiyində durmağa hazırdır.

O, bizə yüksək texnologiyalı protezlərlə tennis oynamağın üsullarını göstərdi. Hətta xəbər tutduq ki, agentliyin təşkil edəcəyi tennis yarışlarına hazırlaşır. Ona göstərilən diqqət və qayğıdan razılığını ifadə edir: "Yaralandığım ilk gündən etibarən müalicə aldığım bütün müəssisələrdə xoş münasibətlərlə qarşılaşmışam. Protezləşmə prosesi də uğurla tamamlanıb, qısa vaxtda müvafiq işlər görülüb. Əziyyəti keçən hər kəsə, bizdən diqqət və qayğısını əsirgəməyən dövlətimizin rəhbərliyinə minnətdarlığımı bildirirəm".

### "Yüzlərlə qazini sevindirmək əsl ürək işidir"

Ehtiyatda olan baş leytenant, "Qarabağ" ordenli Əsgərzadə Bəkir də diqqətdən kənarda qalmayıb. İkinci Qarabağ müharibəsi zamanı, oktyabrın 3-də Suqovuşan uğrunda gedən döyüşlərdə sol ayağını dizdən aşağı itirdiyi üçün amputasiya



olunub. Əvvəlcə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə alan Bəkir daha sonra mərkəz tərəfindən protezlə təmin edilib. O dedi:

- Demək olar ki, əvvəlki həyatıma qayıtmışam. Təsəvvür edin, lap elə əvvəlki kimi velosiped sürməyi bacarır, futbol oynayıram. Hətta bu protez ayağımla top çiləyir, heç yorulmuram da...

Bəkir əlavə edir ki, agentliyin əlilliyi oan şəxslər arasında keçirdiyi futbol yarışlarında tez-tez iştirak edir. Belə yarışlarda nə az, nə çox - 3 dəfə birinci yerə layiq görülüb: "Qazilərlə bağlı icra edilən dəstək proqramları, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın xoş təşəbbüsləri bizi həvəsləndirir. Azad torpaqlarımızda qürurla atdığımız yeni addımlar bizə təzə ümidlər bəxş edir. Hələ ötən il, protezləşmədən 15 gün sonra ilk addımlarımı atmağa başlayanda bunu dərindən hiss etmişdim, sanki yeriməyi yenicə öyrənirmiş kimi mübarizə aparırdım. Müxtəlif əzalarını itirmiş yüzlərlə qaziyə yeni ümidlər bəxş etmək, onları həyata qaytarmaq əsl ürək işidir. Biz Mehriban xanımın qayğısı ilə yenidən həyata döndük".

### 209 nəfər Vətən müharibəsi əlili yüksək texnologiyalı protezlərlə təmin edilib

Mərkəzin direktoru "Bəkirin sözünə qüvvət" verir. Deyir ki, İkinci Qarabağ müharibəsində yaralanmış qazilərimizin protezləşdirilməsi yekunlaşmaq üzrədir: "Həm müharibə zamanı, həm də postmüharibə dövründə 217 qazi amputasiya olunub. Onların 10-da iki ətraf amputasiya edildiyi üçün qazilərimiz ümumilikdə 227 ədəd protezlə təmin edilməlidirlər. 209 qazinin 218 protezlə təminatı artıq başa çatıb. Hazırda cəmi 9 nəfərin protezlə təmin olunması üzərində iş aparılır. Bunun səbəbi isə həmin qazilərin amputasiyasının yaralandıqdan uzun müddət sonra həyata keçirilməsidir. Həkimlər ümid yeri gördükdə zədələnmiş ətrafların amputasiyasına tələsmirlər, ona görə də belə vaxt fərqi yaranır. Qazilərin protezləşdirilməsinin gecikməməsi üçün əlimizdən gələni əsirgəmirik. Ona görə də amputasiya olunan qazilərin əlillik təyinatını gözləmədən protezləşdirilməsini həyata keçiririk".

A.Məcidov həmçinin qeyd etdi ki, ümumilikdə 2022-ci ildə 67 min 254 nəfər bu və ya digər reabilitasiya vasitəsilə təmin edilib: "Bu göstərici 2021-ci ildəkindən 20 min çoxdur. Cari ilin yanvar ayında isə 5024 reabilitasiya vasitəsi fiziki məhdudiyyətli şəxslərə təqdim edilib. Nəzərə almaq lazımdır ki, müəssisə Vətən müharibəsindən sonrakı dövrdə mina partlayışı və sentyabr hadisələri zamanı yaralananları da ən müasir protezlərlə təmin edir. Postmüharibə dövründə agentliyin reabilitasiya müəssisələrində 2 min 949 nəfərə xidmət göstərilib. Ümumilikdə 1813 müharibə əlilinə 31 min 913 reabilitasiya vasitəsi verilib".

### İl ərzində təxminən 2 minə yaxın protez hazırlanır

Daha sonra protezlərin istehsal prosesi ilə tanış olur, hazırlanmasında müxtəlif materiallardan istifadə edilən protezlərə yeni nəfəs verməyə can atan mütəxəssislərin iş fəaliyyətini müşahidə edirik. Onların missiyası olduqca məsuliyyətlidir. Burada çalışan işçilər əllərini, qollarını, ayaqlarını itirənləri yenidən həyata bağlamaq üçün qüvvələrini əsirgəmirlər. Mərkəzin emalatxanasında il ərzində təxminən 2 minə yaxın protez hazırlanır. Mütəxəssislər bildirirlər ki, bir protezin hazırlanması üçün təxminən 20 gün vaxt lazım olur. "Bu emalatxananın işi digərlərindən çox fərqlənir. Biz sanki cansız materiala yeni can bəxş etmək üçün çalışırıq", - deyə onlar bildirirlər.

Ümumiyyətlə, protez istehsalı birmənalı olaraq ölkəmizdə həyata keçirilir. Nəzərə almaq lazımdır ki, protezlər əlilliyi olan şəxslərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla hazırlanır. Sadəcə bəzi protez növlərinin tərkib hissələrindən olan bir sıra detallar xarici istehsalçılardan alınır. Mərkəz xüsusilə Almaniyanın "Ottobock", İslandiyanın "Ossur", İngiltərənin "RSL Steeper" və ABŞ-nin "Fillauer" şirkətləri ilə əməkdaşlıq edir. Mərkəzdə həmçinin qazilərin təkrar müayinəsi və protezlərin dəyişdirilməsi xidməti də göstərilir.

Yeri gəlmişkən, Mehriban xanım Əliyevanın "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi çərçivəsində döyüşlərdə xəsarət almış hərbçilərimiz dünyanın müasir protez istehsalçılarının yüksək texnologiyalı məhsulları ilə təmin olunublar. Bu, birinci xanımın milli təəssübkeşliyinin və vətənpərvərliyinin göstəricisidir. Belə ciddi sosial əhəmiyyət kəsb edən layihələrin təşəbbüskarı olması Mehriban xanımın qəlbinin istiliyini və həssaslığını ifadə edir. Layihə çərçivəsində qısa müddətdə müvafiq işlər həyata keçirilib, əsgər və zabitlərin fərdi protez tələbləri nəzərə alınmaqla, onlara uyğun və yüksək keyfiyyətli protezlər təqdim olunub.

### Mehriban Əliyevanın təşəbbüsləri adımızı zirvələrə ucaldır

Müharibə əlillərinin yerli və xarici xəstəxanalarda müalicə olunmasında, onların ən müasir protezlərlə təmin edilməsində, həmçinin müharibədə yaralanan hərbçilərə yeni mənzillər, fərdi evlər və avtomobillər təqdim olunmasında Birinci vitse-prezident Mehriban Əliyevanın xidmətləri böyükdür. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyət sferasında Vətənimizin azadlığı uğrunda canından keçən və yaralanan igidlərimizə qarşı diqqət və qayğının önəmli yer tutması onun dövlətimizə və xalqımıza uğurlu xidmətindən xəbər verir. Birinci xanımın təşəbbüskarı olduğu böyükmiqyaslı işlər Azərbaycan qadınının işgüzarlığının, yüksək intellektinin, mehribanlığının mükəmməl nümunəsidir. Mehriban Əliyeva tərəfindən irəli sürülmüş hər bir təşəbbüs Azərbaycan xalqının firavan yaşamasına istiqamətlənib və bu, adımızı zirvələrə ucaldır.

*Nəzrin QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# Milli dövlətçilik tarixmizdə yeni səhifə

**Hər bir dövləti qüdrətli edən - zamanında verilmiş düzgün qərarlar, vaxtında həyata keçirilən dəyişikliklər, ən mühümü isə ali vəzifələrdə bunun yüksək məsuliyyətini daşımaq gücünə malik doğru insanların olmasıdır. Bütün bunlar ölkəni gücləndirərək sarsılmaz edir, xalqın istək və arzularının reallaşmasına yol açır, cəmiyyəti narahat edən istənilən problemin həllini tapmasına yardımçı olur.**

Bu baxımdan 2017-ci ilin 21 fevralında Azərbaycanın milli dövlətçilik tarixində yeni bir səhifə başlandı. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Mehriban xanım Əliyeva ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin edildi. Vətəndaşlarımızın ürəyindən xəbər verən bu addım adi bir vəzifə təyinatı deyildi. Son illərdə ölkəmizdə ardıcıl şəkildə aparılan islahatların, baş verən dəyişikliklərin bundan sonra daha da sürətlənəcəyinin, Azərbaycanda müsbətə doğru əsaslı dəyişikliklərin baş verəcəyinin, idarəetmə sistemində də, ümumən, cəmiyyətimizdə də tamamilə yeni bir dövrə keçidin xoş müjdəsi idi.

## Xalqın arzusunda olan qərar

Mehriban xanım Əliyeva bu təyinata qədər də dövlət-vətəndaş münasibətlərində yeni dəyərlər sisteminin formalaşmasına, ictimai inkişafa, ölkəmizin beynəlxalq aləmdə müsbət imicinin daha da möhkəmləndirilməsinə, mədəniyyətimizin təbliğinə fədakar əmək sərf etmiş, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin öz məqsədlərinə çatması, böyük uğurlar qazanması üçün dövlət rəhbərimizin ən yaxın silahdaşı kimi köməyini heç zaman əsirgəməmişdir.

Ölkəmizin birinci xanımının 2004-cü ildə yarandığı ilk vaxtlardan on minlərlə insanın ümid qapısına çevrilmiş Heydər Əliyev Fondunun rəhbəri kimi yerinə yetirdiyi ictimai missiya, Milli Məclisin deputatı statusunda yaratdığı millət vəkilliyi örnəyi, ən əsası təşkilatçılıq qabiliyyəti, problemləri yoluna qoymaq əzmi, insanların halından anlamaq duyğusu, onların sevincini də, kədərini, qayğısını da hiss edə bilməsi Mehriban xanımı hamıya doğmalaşdırmışdı. Ona görə də Azərbaycan vətəndaşları Mehriban xanım Əliyevanı daha yüksək dövləti kürsülərdə görmək və onun xalqı qarşısında üzərinə böyük məsuliyyət götürməsini arzulayırdılar. Azərbaycan Prezidenti 21 fevral 2017-ci il tarixli sərəncamı ilə vətəndaşlarımızın bu arzusunu reallaşdırdı.

## Həyat qayəsi

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi insanlarımızda rahatlıq yaratdı. Bu təyinat onun xoş sorağı idi ki, bundan sonra ölkənin idarəetmə sistemində inkişafa doğru dəyişikliklər daha sürətli baş verəcək. Atılan addımlar, verilən qərarlar qısa zamanda öz hədəfinə çatacaq. Dövlət-vətəndaş münasibətləri daha da doğmalaşacaq. Mühafizəkar düşüncəli kimlərsə vaxtilə onlara həvalə edilmiş vəzifə səlahiyyətlərindən istifadə edərək dəyişikliklərə icra proseslərində müxtəlif üsullarla maneə yarada bilməyəcəklər.

Nəticələri Mehriban xanımın 1995-ci ildən cəmiyyətin diqqəti qarşısında həyata keçirdiyi və Azərbaycan üçün çox böyük faydalar gətirən ictimai fəaliyyətindən görmüşdük. Ölkənin birinci xanımı 1995-ci ildən - hələ Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratdığı və "Azərbaycan İRS" jurnalının nəşrinə başladığı günlərdən bəri Vətən naminə müxtəlif vəzifələr yerinə yetirmişdi. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bu ictimai vəzifələrin hər birində Azərbaycanın keçmişinə dərin saygı duyan, amma bu gününə və gələcəyinə də bacardığı faydaları vermək istəyən vətənpərvər bir xanımın dərk edilmiş məsuliyyəti öz ifadəsini tapır: "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız".

Bunlar söz xatirinə deyilmiş adi kəlmələr deyil. Mehriban xanım Əliyevanın həyatı, yer üzünün ən dəyərli əşrəfi olan insanın ictimai missiyasını dərk etdiyi anlardan seçilmiş həyat qayəsidir. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsini də məhz belə bir məsuliyyət duyğusu ilə qəbul etdi və artıq daha geniş çevrədə, bu dəfə ümumdövlət səviyyəsində, daha böyük dövrədə fayda yaradacaq şəkildə davam etdirməyə başladı.

## Doğrulan inam

"Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam". Bu kəlmələr onun dövlətçilik andının, yerinə yetirəcəyi vəzifələrə münasibətdə prinsipial mövqeyinin ifadəsi idi.

Mehriban xanımın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edildikdən sonra ilk görüşünü 2017-ci il martın 9-da keçmiş məcburi köçkünlərimizlə keçirməsi ondan xəbər verirdi ki, indiyə qədər istər Heydər Əliyev Fondunun prezidenti, istərsə də Milli Məclisin deputatı kimi onun təşəbbüsü ilə reallaşdırılmış bir çox layihələrdə olduğu kimi vətəndaşlarımızın sosial problemlərinin həlli birinci xanım üçün yenə də əsas prioritetlərdən olacaq. Ötən 6 il ərzində də sosial məsələlər, Azərbaycan Prezidentinin müvafiq fərman və sərəncamları ilə bu sahədə qəbul olunmuş qərarların icrası, dövlət rəhbərimizin sosialyönümlü siyasətindən irəli gələn məsələlərin uğurla yerinə yetirilməsi Mehriban xanımın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Amma bu, yeganə istiqamət deyil. Azərbaycanın Birinci vitse-prezidenti bu vəzifə təyinatına qədərki dövrdə olduğu kimi, milli mədəniyyətimizin inkişafı, mədəniyyət diplomatiyası, təhsil, səhiyyə, turizm, idman və s. bu kimi kifayət qədər əhatəli sahələrdə də fəaliyyətini davam etdirir, ölkəmizin hərtərəfli tərəqqisi üçün dəyərlər yaradır.

Azərbaycanın Birinci vitse-prezidenti ilk dəfə məcburi köçkünlərimizlə görüşərkən hələ torpaqlarımızın bir hissəsi Ermənistan hərbi birləşmələrinin işğalı altında idi. Keçmiş məcburi köçkünlərimiz üçün hər cür şəraitə malik çoxmənzilli binaların inşasında, onların yeni mənzillərə köçürülməsində, bu şəhərciklərdə gənc nəslin təmsilçilərinə təhsil almalarından, layiqli vətəndaş olaraq yetişmələrindən ötrü müvafiq şəraitin yaradılmasında birinci xanımın müstəsna rolu olmuşdur.

Tale elə gətirdi ki, Azərbaycan xalqı 2020-ci ilin noyabrında qazandığımız tarixi zəfərlə işğal acısından qurtuldu. Həsrət qaldığımız yurdlarımıza yollarımız açıldı. Burada qarşıya çıxan mənzərə isə tükürpədici idi. Azərbaycan xalqının əsrlər ərzində bu əzəli-əbədi torpaqlarımızda yaratdığı mədəniyyət nümunələri dağıdılaraq tar-mar edilmişdi. O təsvirləri izlədikcə biz Mehriban xanımın bu mənzərəyə baxan kədərli gözlərini, göynəyən qəlbini hiss edirdik. Çünki mədəniyyətin bəşəriyyət üçün nə demək olduğunu bütün ruhu ilə duyub hiss edən, bütün ömrünü milli dəyərlərin qorunmasına, dünyamızda mədəniyyətin qalibiyyətinə sərf etmiş bir insan üçün vandalizm mənzərələrini izləməkdən böyük mənəvi əzab ola bilməz. Dövlət rəhbərimiz böyük zəfərimizin ardınca dərhal bu torpaqlarda bərpa-quruculuq işlərinə başlamaq göstərişi verdi. Bu prosesdə Mehriban xanım Əliyeva da üzərinə böyük bir tarixi missiya götürdü. Birinci vitse-prezidentin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda tarixi abidələrimizin, müqəddəs ziyarətgahlarımızın bərpasına başlandı və bu proses davam edir.

## Sülh insanı

Mehriban xanım Əliyeva sülh insanıdır. Bütün dünya onu sülhə xidmət missiyası ilə tanıyır, rəğbət bəsləyir. Bu gün müxtəlif hərbi münaqişələrdən əziyyət çəkən dünyamızda Mehriban xanım kimi sülhməramlı missiya yerinə yetirən, sivilizasiyaların fərqli mədəniyyətlərin, dillərin, dinlərin dialoqu ilə insanlar arasında və ümumən, yer üzündə sülhə töhfə verən insanlara çox böyük ehtiyac var.

2008-ci ildə mədəniyyətlər arasında dialoqun təşviqi məqsədilə paytaxtımızda başlanan və qısa müddətdə böyük nüfuz qazanan, BMT kimi beynəlxalq təşkilatın ali rəhbərliyində də təqdir olunan "Bakı prosesi"nin uğurunda, Azərbaycanın evsahibliyi ilə bu istiqamətdə beynəlxalq humanitar forumların, digər faydalı tədbirlərin təşkilində, bəşəriyyəti təhdid edən problemlərin birgə həllərinin tapılmasında Mehriban xanım Əliyevanın rolu böyükdür.

Təhsilə dəstək, müasir dövrümüzün bilik və bacarıqlarının fərdi inkişafa can atan hər kəs, xüsusilə də gənc nəsil üçün əlçatanlığı Mehriban xanım Əliyevanın fəaliyyətinin aparıcı xəttidir. İnkişaf dəyişiklikdir, mütərəqqi ənənələr üzərində yeni dəyərlərin yaradılmasıdır. Həyatımızdakı ən böyük dəyişikliklər isə məhz təhsillə, məktəblə başlanır. Bu məqsədlə ötən onilliklərdə Birinci vitse-prezidentin təşəbbüsü və Heydər Əliyev Fondunun layihələri çərçivəsində Azərbaycanın müxtəlif regionlarında, eləcə də ölkə hüdudlarından kənarda minlərlə məktəb, uşaq bağçası, ixtisaslaşdırılmış uşaq məktəbləri tikilərək istifadəyə verilib. Eləcə də mövcud məktəblər yenidən qurularaq müasir tələblərə uyğunlaşdırılıb. Mehriban xanımın müəllifi olduğu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələri, "Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı" ölkəmizdə təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsində, eləcə də milli təhsilimizin məzmununun təkmilləşdirilməsində mühüm rola malikdir. Bu layihələr çərçivəsində Azərbaycandan kənarda məktəbə, təhsil infrastrukturuna böyük ehtiyacın olduğu bir çox məkanlarda da təhsil müəssisələri tikilib. "Təhsilə dəstək" layihəsi çərçivəsində indiyə qədər Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan, Hollandiya, Vyetnamda bir sıra məktəblər yenidən qurulub və əsaslı təmir olunub. Pakistanın Müzəffərabad şəhərinin Rara ərazisində zəlzələdən sonra dağılmış orta məktəb binasının inşası bu baxımdan Heydər Əliyev Fondunun ən uğurlu və rəğbət doğuran layihələrindən biridir. Xatırladaq ki, həmin məktəb qızlar üçündür. Bu da bütün dünyada qızların təhsilinin, ictimai fəallığının, iqtisadi müstəqilliyinin təmin olunmasının Mehriban xanım üçün nə qədər böyük önəm kəsb etdiyini göstərir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gürcüstanın Dmanisi rayonunda yeni kompüter tədris mərkəzinin binası inşa edilərək istifadəyə verilib. Eyni şəkildə Marneuli şəhərindəki 7 nömrəli Azərbaycan ümumtəhsil məktəbi, Tiflisdəki M.F.Axundzadə adına 73 nömrəli orta məktəb, Qardabanidəki 3 nömrəli Azərbaycan məktəbi və Dmanisidəki 2 nömrəli Azərbaycan beynəlxalq orta məktəbi əsaslı təmir olunub. Həmçinin Bolnisi rayonunun Həsən Xocalı və Cəfərli kəndlərində yeni məktəb binaları inşa edilib. Maarif nuru dünyanın hər yerində yayılıb. Bununla Azərbaycanın dost çevrəsi daha da genişləndirilib. Təhsilə, maarifə dəstək verən ölkə kimi Azərbaycanın imici daha da yüksəlib.

## Xeyir əməllər carçısı

İllərdir ki, Azərbaycan cəmiyyəti və dünya Mehriban xanım Əliyevanı uşaq evlərindəki, internat məktəblərindəki kimsəsiz körpələrin, qocalar evlərindəki ahılların doğma hamisi kimi tanıyır, rəğbət bəsləyir. Dövlətimizin bu sahələrlə bağlı həmişə sosial proqramları olub, bu proqramlar müəyyən səviyyədə yerinə yetirilib. Birinci xanımın yaratdığı fərq isə odur ki, o, dövlətə sığınmış kimsəsiz körpələrlə, qocalarla bağlı proqramları hər hansı inzibati iş, dövləti vəzifə kimi yerinə yetirmir. Mehriban xanım Əliyeva bu yerlərin sakinlərinə doğma ana, doğma övlad kimi yanaşır, onlara sahib çıxır. Beləliklə, dövlətlə vətəndaş arasındakı münasibətlər daha da yaxınlaşır, vətəndaşın öz dövlətinə inamı, güvəni güclənir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dövlətimizin səhiyyə sahəsindəki sosial proqramları da yüksək diqqətlə, hər bir detal nəzərə alınmaqla, ciddi nəzarət altında və müasir tələblərə uyğun şəkildə həyata keçirilir. Səhiyyə xidmətləri vətəndaşlarımız üçün getdikcə daha əlçatan olur. Azərbaycanın Birinci vitse-prezidentinin təşəbbüsü və birbaşa təşkilatçılığı ilə həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi olduqca əhəmiyyətli layihələr, Bakıda yaradılmış müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları hər il minlərlə insanın həyatını xilas edir.

İki il öncə bütün dünyanı çənginə almış COVID-19 koronavirus pandemiyasının ağır təhlükələr törətdiyi, insanların sağlamlığı üçün qapanmaların zəruri olduğu günlərdə Mehriban xanımın cəmiyyətimizə narahat mesajlarını, çağırışlarını, bütün bunların yaratdığı ictimai rəğbəti, effektiv nəticələri də yaxşı xatırlayırıq.

Mehriban xanım Əliyeva xeyir əməllər carçısıdır. Xeyir əməllərin olduğu hər yerdə onu görə, adını duya bilərik. Bu günlərdə qardaş Türkiyədə baş verən və Azərbaycan xalqını da sarsıdan zəlzələdən zərərçəkənlərə yardım zərurətinin yarandığı anlarda da belə oldu. Zəlzələdən dərhal sonra Mehriban xanımın təşkilatçılığı, yaxından iştirakı ilə yardım dolu təyyarələr, yük maşınları Türkiyəyə göndərildi. Cəmiyyətimizin, vətəndaş cəmiyyəti institutlarımızın qardaş ölkəyə sistemli, mütəşəkkil dəstəyi təmin olundu. Azərbaycanın çətin sınaqla üzləşmiş qardaş ölkəyə köməyi, maddi və mənəvi dəstəyi yenə davam etməkdədir.

Mehriban xanım Əliyeva 6 ildir ki, Azərbaycanın Birinci vitse-prezidentidir. 6 il zamanca, bəlkə də, o qədər böyük müddət deyil. Amma bu qısa zamanda görülmüş işlərin mahiyyəti, əldə edilmiş uğurların miqyası milli dövlətçilik tariximizin çox əhəmiyyətli bir səhifəsinə çevrilib.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Bəşəri irsə ehtiram

## Mehriban Əliyevanın təşəbbüsləri tolerantlıq və multikultural dəyərlərin inkişafına töhfələr verir

Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının əsasında ölkəmizdə yaşayan bütün millətlərin birliyi durur. Bunun ən gözəl nümunəsini Vətən müharibəsində gördük. 44 günlük savaşda Azərbaycan ərazisində yaşayan bütün xalqlar vahid dövlətləri uğrunda mübarizə apardılar, savaşdılar, "vətənimiz birdir, Azərbaycandır" dedilər.

Azərbaycan dilindən, dinindən asılı olmayaraq, ərazisində yaşayan hər bir xalqın, millətin vətəni, eli, obasıdır. Ölkəmiz hər zaman tolerantlıq və multikulturalizm mərkəzi kimi tanınıb. Bu ənənə Prezident İlham Əliyevin uğurlu siyasəti, eyni zamanda dahi şəxsiyyətin adını daşıyan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi layihələrlə daha da inkişaf etdirilir.

Azərbaycandakı multikulturalizm beynəlxalq səviyyədə də təqdir olunur. Elə bunun nəticəsidir ki, Azərbaycan sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanına çevrilib.

Vətən müharibəsindən sonra Şuşada keçirilən IV "Xarıbülbül" festivalının Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə etməsi də dövlət səviyyəsində multikultural dəyərlərə önəm verilməsinin göstəricisidir. Festivalda çıxış edən dövlətimizin başçısı qeyd etmişdi: "...Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur".

Heydər Əliyev Fondu tərəfindən təşkil olunan konsert proqramı ölkə ərazisində yaşayan xalqların, millətlərin mədəniyyətinə göstərilən diqqətin, qayğının təcəssümü idi.

Ölkəmizdə dinindən, dilindən asılı olmayaraq, hər bir millətin adət-ənənələrinə hörmətlə yanaşılır, onların tarixi, dini abidələrinin qorunması istiqamətində dövlət tərəfindən tədbirlər görülür. Bu istiqamətdə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın fəaliyyəti təqdirəlayiqdir. Onun diqqəti, qayğısı nəticəsində paytaxtda, eyni zamanda bölgələrimizdə bu qəbildən olan abidələrə qayğı göstərilir, Mehriban xanımın təşəbbüsü ilə fond tərəfindən mədəniyyət nümunələrinin təmiri və bərpası həyata keçirilir.

Bu diqqətin nümunəsini yalnız ölkə ərazisində deyil, xarici ölkələrdəki, dünya əhəmiyyətli, tarixi, dini abidələrin restavrasiyasında da görürük.

Heydər Əliyev Fondunun multikultural dəyərlərin təbliği istiqamətində layihələri sərhəd tanımır. Belə ki, fondun bir sıra xarici ölkələrdə reallaşdırdığı layihələr bu baxımdan böyük əhəmiyyətə malikdir. Fond tərəfindən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Pakistanda, Gürcüstanda, Misirdə, Rusiyada bir neçə məktəbin yenidən qurulması, həmçinin Pakistanda yeni qızlar məktəbinin tikilməsi, xristian aləmi üçün ən mühüm abidələrdən hesab edilən Romada Müqəddəs Marçellinio və Pietro, Müqəddəs Sebastian katakombalarının bərpasına, həmçinin Strasburq Kafedral kilsəsinin, Vatikanda yerləşən Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin bərpasına dəstək göstərilib. 2007-ci ildə Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin, 2008-ci ildə Luvr muzeyi qalereyasından birinin bərpası, həmçinin islam incəsənətinə həsr olunmuş yeni zalların yaradılması, 2011-ci ildə İkinci Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin bərpası, Həştərxanda Azərbaycan-Rusiya Dostluq körpüsünün tikilməsi, Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılması, Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmiri, Fransanın Orn departamentinin bir sıra yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpası və digər layihələr də Heydər Əliyev Fondunun gördüyü əhəmiyyətli işlərdir.

Çoxmillətliliyə, multikulturalizmə böyük önəm verən Mehriban Əliyeva çıxışlarının birində qeyd etmişdir: "Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir. Multikulturalizm, qarşılıqlı hörmət xalqımızın dünyagörüşünün və Azərbaycan hökumətinin dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan torpağında müxtəlif konfessiyaların, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayıblar. Ölkəmizin ərazisində yaşayan bütün xalqların bu mədəni müxtəlifliyi, heç şübhəsiz, bizim sərvətimizdir".

Mehriban Əliyeva indiyədək multikulturalizmə verdiyi töhfəyə, ictimai, sosial və mədəni həyatda fəaliyyətinə, həmçinin mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması istiqamətindəki işlərinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. Birinci xanım Fransanın "Şərəf legionu" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı, Rusiyanın Yüzillik Messenatları Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni, mədəni-mənəvi dəyərlərin qorunub saxlanmasına verdiyi töhfələrə görə BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalı ilə təltif olunub.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən tolerantlıq və multikulturalizmin təbliği sahəsində həyata keçirilən layihələr bu gün də davam edir. Bunlar göstərir ki, ölkəmiz bəşəri dəyərlərə, xalqların malik olduğu tarixi, mədəni irsin qorunmasına layiqli töhfələr verir. Bu layihələr Azərbaycanı dünyada multikulturalizmin beşiyi, tolerantlığın mərkəzi kimi tanıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Anaların, balaların mehribanı

**Altı il əvvəl Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunması ölkəmizdə hamının ürəyindən xəbər verdi. Çünki bu vəzifədə onun daha geniş fəaliyyət göstərəcəyi, əvvəlkindən də çox və böyük işlər görəcəyi, xalqa daha yaxın olacağı hər kəsə aydın idi.**



Elə ilk müşavirəsini cəmiyyətin həssas təbəqələrindən birinin - qaçqın və məcburi köçkünlərin problemlərinə həsr etdi. "Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Bu məqsədlə əlavə vəsait ayrılmalıdır, binaların inşası üçün ərazi müəyyənləşdirilməlidir və tezliklə binaların inşası başlamalıdır. Bununla yanaşı, Bakı və Sumqayıt şəhərlərində tikilmiş yeni binalarda köçkün ailələrini yerləşdirmək üçün mənzillər alınmalıdır". Həmin tədbirdə Mehriban Əliyeva belə dedi. Dedi və həmişə olduğu kimi vədinə əməl etdi. Bundan sonra da öz dəstəyini məcburi köçkün həyatı yaşayan soydaşlarımızdan əsirgəmədi.

Birinci xanım da dövlətimizin başçısı kimi vədinə, verdiyi sözə həmişə sadiqdir. Bunu uzun illərdir daşıdığı bütün vəzifələrdə, yerinə yetirdiyi bütün işlərdə sübut edib. Ümumiyyətlə, hər bir yüksək ad və titulun arxasında böyük məsuliyyət, zəhmət, səriştə tələb edən vəzifələrin yerinə yetirilməsi dayanır. Onların hər birini layiqincə həyata keçirmək üçün səbir, düşüncə, bilik və təcrübə vacibdir, əməli işlər görmək lazımdır ki, bunların da hamısı Mehriban xanımın şəxsiyyətində vəhdət kimi birləşib.

Ötən illərə qayıdaraq Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi gördüyü genişmiqyaslı işləri xatırlayaq. Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşan "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri sözügedən xəstəliklərdən əziyyət çəkən insanların, xüsusilə uşaqların pulsuz müayinə olunmasına və müalicə almasına, nəticədə şəfa tapmasına imkan yaratdı. Bu və digər xəstəliklərin aradan qaldırılmasına kömək edən neçə-neçə yeni tibb müəssisəsi, o cümlədən Talassemiya Mərkəzi istifadəyə verildi. Daha sonra Mehriban xanımın təşəbbüsü ilə Bakının Nizami rayonunda Heydər Əliyev Fondu tərəfindən yeni Autizm Mərkəzi inşa edildi. Autizm spektr pozuntulu uşaqlar üçün bərpa mərkəzi 2013-cü ildən fəaliyyət göstərsə də, özünün daimi yerləşdiyi binası yox idi. 2021-ci il dekabrın 31-də - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə və Yeni il bayramı ərəfəsində mərkəzin istifadəyə verilən təzə binası autizm xəstəliyindən əziyyət çəkən uşaqlar üçün əsl hədiyyə oldu. Çünki burada uşaqların intensiv terapiya alması və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

Mərkəzin açılışında Birinci vitse-prezident Mehriban Əliyevanın qızları Leyla Əliyeva və Arzu Əliyeva ilə birlikdə iştirak etməsi tədbirə toplaşanların sevincinə səbəb oldu. Elə buradaca bir daha vurğulayaq ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyəsi, təhsili, asudə vaxtlarının səmərəli təşkili hər zaman Heydər Əliyev Fondunun prioritet istiqamətlərindən olub. Mehriban Əliyeva çox zaman qızları ilə birlikdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara baş çəkir, onların yüksək səviyyədə təhsil almalarını, eləcə də gündəlik qayğılarının həllini daim diqqətdə saxlayır. Fondun bu sahədəki fəaliyyəti xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, təhsil problemlərinin həlli məqsədi daşıyır.

Bakıda və ölkənin digər regionlarında mütəmadi keçirilən qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqların əməliyyat olunması, aztəminatlı ailələrin üzvlərinin müayinələri, lazım gəldikdə insanların xarici ölkələrə müalicəyə göndərilməsi... Bütün bunlar Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xeyirxah əməlləri nəticəsində baş tutur. Hələ "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və digər layihələri demirik...

Bir zamanlar uşaq evindəki balaca oğlan və qızların o qədər də yaxşı qidalanmaması, ailələrdə böyüyən atalı-analı yaşıdlarından geyim-kecimdə də geridə qalması hamıya məlum olan həqiqət idi. İndi bu uşaqların heç nəyə ehtiyacı yoxdur! Necə deyərlər, kefləri kök, damaqları çağdır. Bunun hamısı Mehriban Əliyevanın zəhməti, səyi nəticəsində olub. Ancaq uşağı çörəklə, ləziz nemətlərlə doydurmaq, əyin-başını düzəltmək hələ işin yarısıdır. Onun isti nəfəsə, qayğıya ehtiyacı daha çox olur. Hamımız Mehriban xanımın yetim, yaxud xəstə uşağı necə məhəbbətlə qucağına götürdüyünü, necə istəklə bağrına basdığını çox görmüşük!

Əvvəllər uşaq evində böyüyən oğlan və qızların məktəbi bitirəndən, yəni yetkinlik yaşına çatandan sonra haraya üz tutacağı, harada yaşayacağı da cəmiyyəti narahat edən problem idi. Mehriban xanım bir ana kimi bu uşaqların da qayğısına qalaraq onlar üçün ev tikdirdi.

Nəhayət, xalqımıza qələbə və qürur gətirən, bunları bizə bəxş edərək uca şəhidlik mərtəbəsinə yüksələn oğullarımızın ailələri də daim Mehriban xanımı öz yanlarında görürlər. Azərbaycanın birinci xanımı öz ciyərparasını itirmiş anaların, körpəsi atasız qalmış gəlinlərin dərdinə şərik çıxır, kədərini bölüşür və bütün bunlarla bahəm onlara təsəlli verir, Vətən yolunda qəhrəmanlıq göstərmiş əzizləri üçün qürur keçirməli olduqlarını deyir. Amma bunları deyərkən özünü də qəhər boğur, kövrəldiyini bəzən gizlədə bilmir. Bu da ana qəlbinə xas olan əlamətdir... Qəhrəman qazilərimizə isə "qardaşlarım" deyərək onların hünərlərindən qürur duyur.

Bütün bunlarla yanaşı, Mehriban Əliyeva Prezident İlham Əliyevlə birlikdə işğaldan azad olunmuş torpaqlarımızı qarış-qarış gəzir, düşmənin viran qoyduğu tarixi, mədəni abidələrimizin bərpası üçün çalışır. Qarabağdakı və Şərqi Zəngəzurdakı yurd yerlərimizi cənnətə çevirən Prezidentimizlə və xalqımızla birlikdədir, çiyin-çiyinədir!

Mehriban xanım Əliyeva daşıdığı bütün vəzifələrə ana qəlbi və ana təmkini ilə yanaşır. Başladığı hər yeni layihəyə, keçirdiyi hər bir tədbirə ana qəlbinin odunu, hərarətini qatır. O həmişə insanların, əsasən də köməyə, qayğıya ehtiyacı olanların yanındadır. Əlbəttə, hər bir vətəndaşla canlı ünsiyyət qurmaq qeyri-mümkündür. Bununla belə, xeyirxahlığı, köməyi, dəstəyi, gördüyü böyük işlərin uğurlu nəticələri ilə hər kəsin yanındadır: ananın da, körpənin də, şəhid ailəsinin də, təbii fəlakətdən zərərçəkənin də, müalicəyə ehtiyacı olanın da...

Mehriban xanımın xeyirxahlığı hər birimizə, bütün cəmiyyətə bir parlaq nümunə, bir mesajdır!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Əməlləri ilə insanların qəlbində abidəsini ucaltdı

**Elə insanlar var ki, qurmaq, yaratmaq, yaxşılıq etmək, arxasıza dayaq olmaq, kömək edib əlindən tutmaq, ümidsizə ümid vermək üçün Tanrı tərəfindən sanki xüsusi bir missiyanı yerinə yetirməkdən ötrü göndərilirlər bu dünyaya. Bu cür insanlara qəlblərin memarları da deyilir.**



Onlar yaratdıqca ucalır, ucaldıqca da daha yaxşı yaradırlar. Bu cür insanlar Tanrının verdiyi ömür payını yalnız özləri, ailələri, yaxınları üçün yaşamırlar. Ömürlərini mənsub olduqları Vətənin, xalqın xoş gələcəyinə həsr edirlər. Tutduqları vəzifəyə görə deyil, etdikləri xeyirxah əməllərə görə tanınır, sevilirlər. Ən uca məqamı xalqa xidmətdə görürlər. Belə həyat yaşayanlar bir evin, bir ailənin övladı olmaqdan çıxıb bütöv bir xalqın sevimlisi ola bilirlər. Mehriban xanım Əliyeva kimi.

Azərbaycanın birinci xanımı xeyirxah əməlləri ilə insanların qəlbində özünə məskən salmağı bacaran, dünyada ölkəsini tanıdan qadın liderdir. O, ən yüksək mənəvi dəyərlərə sahib olan siyasətçi olduğunu əməli ilə göstərib. Sahib olduğu mərhəmət hissi, hər bir kəsə qayğısı, diqqəti ilə insanlığın ən yüksək zirvəsinə ucalıb. Dünyada sevgi, mərhəmət hissi qədər insanları bir-birinə yaxınlaşdıran, birləşdirən başqa bir güc, bir hiss yoxdur.



İnsanları sevindirmək, dərdlinin dərdini bölmək, lazım olduğu məqamda yanında olmağı bacarmaq bu dünyada hamıya verilən pay deyil. Tanrı sevdiklərini belə mükafatlandırar.

Bu, bir həqiqətdir ki, Mehriban xanım ölkəmizdə ehtiyacı olan hər bir vətəndaşın ümid, güman yeridir. İnsanlarımız gözəl bilirlər ki, çətinlik çəkən, köməyə ehtiyacı olanın, dara düşən hər kəsin üz tutmağa bir ünvanı var. Ona mehribanlıq edəcək, dərdinə çarə tapacaq bir doğması var. Ürəyini oxşayacaq bir həmdəmi var. Ona üz tutanların nə zamansa naümid, peşman olduğunu düşünmək belə mümkün deyil.

Respublikamızda bu gün minlərlə insan Heydər Əliyev Fondunun qayğısı nəticəsində müalicə alaraq sağlamlığına qovuşub.

Vətən yolunda canlarını fəda edən şəhid ailələrinə göstərdiyi qayğı, axıtdığı gözyaşları, çəkdiyi iztirablar, göstərdiyi fədakarlıq sözlə ifadə olunmayacaq dərəcədə böyükdür. Qazilərimiz üçün ən son texnologiya ilə hazırlanan protezlər, yaradılan reabilitasiya mərkəzləri, Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilən evlər, göstərilən yardımlar, görülən işlər sözlə ifadə edə biləcəyimiz az bir qismidir… Bir sözlə, harada insanlarımız dara düşüb köməyə ehtiyac duyubsa, orada Mehriban xanım var, onun xeyirxah əməlləri var. Bu məqamda bir qədər faktların dili ilə danışaq: bir neçə il öncə Şamaxıda təbii fəlakət, zəlzələ olarkən dövlətimizin başçısı İlham Əliyev və Mehriban xanım bu zonaya gedərək zərərçəkənlərin dərdlərini bölüşüb, xeyirxah əllərini onların çiyninə qoydular. Düz durmaları, əyilməmələrini, dağılan evlərinin yerinə daha gözəlini inşa etdirib onlara verəcəklərini dedilər və verdikləri söz də qısa müddətdə icra edildi. Eləcə də bu günlər qardaş Türkiyədə baş verən təbii fəlakət zamanı Heydər Əliyev Fondu Mehriban xanımın təşəbbüsü ilə qardaş ölkənin yanında oldu.

"İnsan qəlbini sevindirmək ən böyük ibadətdir", - deyiblər. COVID-19-un insanları amansız "hərəkət"ləri ilə sınağa çəkdiyi o ağır, çətin günlərdə də Mehriban xanım xalqla bir oldu. Biz onun sosial qayğıya ehtiyacı olan təbəqəni bir an tək qoymadığına şahidlik etdik. O çətin günlərdə Heydər Əliyev Fondu əhalinin ehtiyacı olan təbəqələrinə sovqat göndərib, yardımlar göstərdi. Belə analoji faktlar çoxdur. Fond Qurban, Ramazan, Novruz bayramlarında, bir qayda olaraq, aztəminatlı ailələrə bayram hədiyyələri göndərərək qayğısını əsirgəmir. Belə humanist tədbirlər təkcə ölkəmizdə deyil, Pakistanda, Somalidə və digər ölkələrdə də həyata keçirilib.

Xalqımızın ən yüksək keyfiyyətlərindən biri də qonaqpərvər olmasıdır. Sevdiyi, inandığı, güvəndiyi insanı süfrəsinin başında görmək, min bir zəhmətlə qazandığı halal nemətini arzu etdiyi adamla bölmək kimi gözəl adətimiz var. İnsanlarımız Mehriban xanımı evlərində, süfrələrinin başında görməyə, həmsöhbət olmağa artıq vərdiş ediblər. Vaxtaşırı sadə əmək adamlarının evlərinə qonaq gedib ünsiyyət qurmaq, elin, obanın qayğısını öyrənib dərdini bilmək insanlarımızda doğmalıq hissini daha da gücləndirir. Xalqın Prezidentinə, onun ailəsinə sevgisini, güvənini artırır.

Milli adətlərə hörmət, milli-mənəvi dəyərləri uca tutmaq, dini qayda-qanunlara əməl etmək baxımından da Mehriban xanım bir nümunə, bir örnəkdir. Onun müqəddəs ziyarətgahlara səfərləri, işğaldan azad olunmuş torpaqlarda ilk olaraq məscidlərimizi, milli-mənəvi baxımdan xüsusi rolu olan Xüdafərin körpüsünü ziyarət etməsi, ziyarətgahların bərpası, təmiri üçün maddi vəsait ayırması milli dəyərlərimizə sadiqlik nümunəsidir.

Mehriban xanımın xeyirxah əməllərinin coğrafiyası çox genişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən xeyriyyə tədbirləri artıq çoxdan sərhədləri aşaraq dünyanın bir çox ölkələrində reallığa çevrilib.

Mehriban xanımın şəxsi fəaliyyəti və təşəbbüsü nəticəsində Azərbaycan mədəniyyəti və incəsənəti, onun ən layiqli nümayəndələri artıq neçə illərdir ki, dünyaya geniş planda tanıdılır, təqdim olunur. Qədim və şərəfli tariximizin yadigarı olan abidələrimizin bərpa olunub gələcək nəsillərə ötürülməsi üçün əhatəli işlər aparılır.

Heydər Əliyev Fondu artıq neçə illərdir ki, ermənilər tərəfindən xalqımızın başına gətirilən faciələrin dünya xalqlarına çatdırılması istiqamətində davamlı və əhatəli iş aparır. Erməni vandalizminin mahiyyətinin əyani sübutu, XX əsrin ən qəddar faciəsi sayılan Xocalı qətliamı hər il Heydər Əliyev Fondunun təşəbbüsü ilə dünyanın əksər ölkələrində qeyd edilməkdədir. Mehriban xanımın birbaşa təşkilatçılığı və dəstəyi ilə keçirilən bu tədbirlərdə yaradıcı insanların, rəssamların, sənət adamlarının Xocalı faciəsindən bəhs edən əl işlərindən ibarət sərgilər təşkil olunur. Fotoşəkillər və sənədli filmlər nümayiş etdirilərək insanlara bu faciə barədə dəqiq bilgi verilir. Bunun nəticəsidir ki, artıq dünyanın bir çox ölkəsi XX əsrin ən dəhşətli, qanlı faciəsi olan Xocalı qətliamını soyqırımı kimi tanıyıb. Bu, erməni lobbisi üzərində parlaq qələbənin sübutudur.

Xalq, dövlət, vətən üçün sərf olunan ömür əbədiyaşarlıq qazanır. Adını, əməllərini tarixin yaddaşına yazanlar öz abidələrini insanların qəlbində ucaldırlar. Xoşbəxt o insandır ki, hər evdə, hər ürəkdə adı, əməli var. Mehriban xanım Əliyeva kimi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyətimizə qayğının təcəssümü

## Mehriban Əliyevanın təşəbbüsləri Azərbaycan xalçasının şöhrətini dünyaya yayır

**Xalçaçılıq sənəti, milli-mənəvi dəyərlərin ilmələr üzərində yaşadılıb nəsildən-nəslə keçirilməsi ənənəsi Azərbaycan xalqının tarixi qədər qədimdir. Bu sənətə məhəbbət ədəbiyyatımızda, folklorumuzda, incəsənətimizdə hər zaman əksini tapıb. Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan Mircəlal Paşayevin qələmə aldığı "Bir gəncin manifesti" povestində də xalqımızın xalçaya münasibəti, onun sərvətimizə verdiyi dəyər bariz şəkildə özünü göstərib.**

Dünyada ən əziz insanlarını itirən, ehtiyac ucbatından toxuduğu xalçasını satışa çıxarmalı olan, lakin müqabilində xarici turistlərdən yüksək məbləğ təklifi alsa belə "...yada satmaram!" deyərək imtina edən Azərbaycan qadını. Çünki bu xalça onun üçün yalnız bir əşya deyildi. Üzərində kədərini, sevincini, dünənini, bu gününü ilmə-ilmə nəqş etdiyi, onu köklərinə bağlayan körpü idi.

Milli Xalça Muzeyinə daxil olanda böyük yazıçımızın bu əsəri istər-istəməz yada düşür. Bu muzey Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə əcdadlarımızın, ziyalılarımızın yüksək dəyərləndirdiyi xalçaçılıq sənətinin yaşadılması üçün yaradılıb. Mehriban Əliyeva Azərbaycan xalçalarını dünyaya tanıdır, qədim sənətin şöhrətini daha da ucaldır. Bu, Mehriban xanımın milli dəyərlərimizə bağlı olmasından irəli gəlir.

### Xalçaçılıq sənətinin qorunduğu müasir məkan

Azərbaycanın milli irs və mədəniyyətinin qorunub inkişaf etdirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın əvəzsiz xidmətləri var. Xalçaçılıq sənətinin dirçəldilməsi və inkişafı üçün qəbul olunmuş dövlət sənədləri, dünyada ilk xalça muzeyi olan Azərbaycan Milli Xalça Muzeyinin inkişafı ilə əlaqədar həyata keçirilən layihələr buna nümunədir. Eyni zamanda Heydər Əliyev Fondu da yarandığı ilk gündən xalqımızın milli-mədəni dəyərlərinin qorunmasında və tanıdılmasında böyük rol sahibidir.

Paytaxtımızın simvollarından birinə çevrilən Milli Xalça Muzeyi üçün yeni binanın tikintisi fondun mədəniyyət sahəsində gördüyü irimiqyaslı layihələrdən biridir. Bu layihə Mehriban Əliyevanın bilavasitə iştirakı ilə beynəlxalq səviyyədə təşkil olundu və nəhayət, xalçaçılıq sənətinin qorunub-saxlanılması üçün yeni, müasir məkanın yaradılması həyata keçirildi.

Muzeyin fərqli ab-havası var, burada gəzərkən xalçaçılıq sənətinin sadədən mürəkkəbə doğru inkişaf yolunu görmək mümkündür. Muzeydəki xalçalar Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz xalçaları olmaqla 4 tipə ayrılır. On mindən çox eksponatın saxlanıldığı muzeydə xalçaların bir qismi ekspozisiyada nümayiş olunduğu halda, bir qismi isə muzeyin fondunda müvafiq normalara uyğun olaraq qorunur. Mərkəzdə xovlu və xovsuz, eləcə də ölkədə ilk dəfə olaraq hər iki texnikanı özündə birləşdirən xalçalar mövcuddur.

Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova deyir ki, muzeyin əsas məqsədi mədəni irsimizin qorunub saxlanılmasıdır: "Muzeydə həm qədim xalçaları toplayaraq onların inkişaf yolunu öyrənir, həm də müasir eksponatlarla işləyir, eləcə də xalçaçıların əsərlərini nümayiş etdiririk. Müşahidələrimiz göstərir ki, günümüzdə bu sənətə maraq böyükdür. Burada xalçaçılıq sahəsində ciddi işlər həyata keçirilir, peşəkar xalçaçı rəssamlarımızla yanaşı, digər üslubda işləyən rəssamlar da öz bacarıqlarını nümayiş etdirirlər. Muzeyin toxucuları unudulmaqda olan texnologiyaları da bərpa edirlər".

Direktor qeyd etdi ki, kolleksiyamızın zənginləşdirilməsi də əsas hədəflərimizdəndir: "Dəyərli və dünya miqyaslı nadir sənət əsərlərinin alınması və muzeyə bağışlanması işində Heydər Əliyev Fondu böyük işlər görür. Bu gün qədim xalçaların tarixi vətəninə qaytarılması və muzeyin kolleksiyasına daxil edilməsi bu sahədə atılan mühüm addımlardan biri kimi çox böyük tarixi-mədəni əhəmiyyətə malikdir. "Şirvan tikməsi" (XVIII əsr), Qarabağın "Xətai" xalçası (XVII əsr) və "Naxçıvan" (XVIII əsr) xalçaları bunun bariz nümunələridir. XVIII əsrə aid nadir gözəlliyə malik tikmə nümunəsi 2017-ci ildə, XVII əsrə aid "Xətai" və "Naxçıvan" xalçaları isə 2018-ci ildə Fond tərəfindən muzeyə bağışlanıb. Bu eksponatlar sayəsində kolleksiyamız olduqca zənginləşib. Nəzərə almaq lazımdır ki, xalçaların tarixini araşdırmaq üçün bu eksponatlar vacib əhəmiyyət daşıyır. O zamanadək kolleksiyamızda belə nümunələr, demək olar ki, yox idi. Ona görə də belə xalçaların ölkəmizə qaytarılması mühüm addımdır".

### Fiziki məhdudiyyətlilər üçün 3D dizayn, Brayl əlifbası, surdotərcümə...

Milli Xalça Muzeyinin unikallığı onun hər kəs üçün əlçatan olmasındadır. 2019-cu ildən etibarən muzeydə inklüziv layihəyə başlanılıb. Burada əlil arabasından istifadə edən insanların rahatlığı üçün müvafiq şərait yaradılıb. Muzeydə, həmçinin eşitmə qabiliyyəti məhdud insanlar üçün jest dilini bilən, surdotərcümə edən bələdçi fəaliyyət göstərir. Görmə məhdudiyyətli insanlar üçün isə muzeyin Ənənəvi texnologiya şöbəsinin toxucuları tərəfindən ekspozisiyada nümayiş etdirilən xalçaların xovsuz və xovlu texnikanın birgə tətbiqi ilə kiçik fraqmentləri toxunub. Həmçinin bu nümunələrin yanında onların üzərindəki naxışlarla bağlı brayl şrifti ilə məlumatlar yerləşdirilib.

Milli Xalça Muzeyinin həyata keçirdiyi digər önəmli layihələrdən biri də "Tanınmış simalarla virtual tur" filminin ərsəyə gətirilməsidir. Filmdə muzeyin tarixi, burada qorunan milli-mədəni irs nümunələri və onlarla bağlı maraqlı adət-ənənələrdən bəhs olunur. Bu layihəyə pandemiya dövründə, insanların nəinki muzeylərdən, ümumiyyətlə, bütün mədəniyyət ocaqlarından kənarda qalarkən başlanıldı. Ötən il tamamlanan bu film milli irsimizin təbliği işinə növbəti töhfə oldu.









### Qarabağın sənət incisi

Xalçaçılıq sənətinin inkişafı istiqamətində dəstəyini əsrigəməyən Heydər Əliyev Fondu ölkə mədəniyyətimizin xaricdə təbliği istiqamətində də əvəzsiz işlər görür, mühüm layihələr reallaşdırır. Belə layihələr sırasında Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı ilə 2018-ci ildə Moskvadakı Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində, 2022-ci ildə isə Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə Sankt-Peterburqda, Dövlət Rus Muzeyinin Mərmər sarayında keçirilən "Yeddi gözəl" sərgisini misal göstərmək olar.

Vətən müharibəsindəki qələbəmizdən qısa müddət sonra, 2021-ci il avqustun 30-da Şuşada Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" adlı sərgi keçirilib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva sərgi ilə tanış olublar.

Fond tərəfindən bərpa olunan Xalçaçılıq Qalereyasında Azərbaycan Milli Xalça Muzeyinin təqdim etdiyi sərgidə xovlu və xovsuz xalçalar, xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri nümayiş olundu. Qeyd edək ki, yenidən öz doğma diyarında sərgilənən bu eksponatların əksəriyyəti Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialından Bakıya gətirilmişdi və indiyə qədər muzeyin kolleksiyasında qorunub saxlanılır.

### Xalça Muzeyinin filialı Şuşada fəaliyyətini bərpa edəcək

İşğala qədərki dövrdə Şuşada Xalça Muzeyinin filialı mövcud idi. 2021-ci il Vaqif Poeziya Günlərində sərgi şəklində ekspozisiya açıldı. Hazırda bərpa işləri aparılan muzeydə cari ildə daimi ekspozisiyanın açılacağı nəzərdə tutulub.

Muzeyin ən qürurverici işlərindən biri isə Zəfər xalçasıdır. O, 44 günlük Vətən müharibəsi dövründə interaktiv şəkildə tərtib edilən "Qarabağın xalça xəritəsi"dir. Xəritədə Qarabağın hər bölgəsinin ən məşhur xalça fraqmentləri ağ-qara rənglərdə verilib. Qələbədən sonra bu xəritə əsasında Qarabağın müxtəlif şəhər və rayonlarına aid xalçalardan fraqmentlərin, Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarının, xalqımızın birliyini, qələbə əhvali-ruhiyyəsini simvolizə edən naxışların, ornamentlərin yer aldığı Zəfər xalçası ilmələrə köçürüldü. Qələbəmizin bir ilinin tamamında, Zəfər Günü münasibətilə bu xalçanın təqdimatı keçirildi.

### "Mehriban xanımın xalçaçılıq sənətinə hörmət və ehtiramı gözlərindən oxunur"

Muzeyin toxucuları Mehriban xanımla görüşlərdən xoş təəssürat və təbəssümlə bəhs edirlər. Xalça Muzeyinin Ənənəvi texnologiya şöbəsinin toxucusu Rəna Süleymanova deyir ki, o, birinci xanımı ilk dəfə 2014-cü ildə - muzeyin açılışında görüb.

"Hər dəfə bura gələndə bizimlə nəvazişlə, səmimiliklə ünsiyyət qurur. Mehriban xanımın xalçaçılıq sənətinə hörmət və ehtiramı gözlərindən oxunur. Bu sənəti yaşatdığımıza görə bizə minnətdarlığını bildirib. Hər görüşümüzdə qayğılarımızla maraqlanır, uğurlarımızla tanış olur. Hər bir xalçanın çeşnisi, toxunma üsulu, rəngləri ilə yanaşı, onun hansı bölgəyə aid olması da Mehriban xanımın diqqətini çəkir", - deyə xalça toxucusu bildirir.

Azərbaycana səfər etmiş neçə-neçə mötəbər qonaq məhz Mehriban xanımın dəvəti və təşəbbüsü ilə muzeyə baş çəkir. Bu görüşlər qonaqlara həm də Azərbaycan qadınının əməyi, istedadı ilə tanışlıq imkanı yaradır. Birinci vitse-prezident Mehriban Əliyevanın digər sahələrdə olduğu kimi, xalçaçılıq sənətinin inkişafına da töhfələri Azərbaycan xalqının başını daim uca edir.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*















# Mehriban Əliyeva qadın fəallığı ənənələrinin yeni tarixi salnaməsini yaradır



Cəmiyyətdə qadınların üzərinə düşən öhdəliklər hər zaman böyük olub. Tariximizin bütün dövrlərində cəsarəti, ağlı, mədəniyyəti və məqsədyönlülüyü ilə seçilən, adı tarixə yazılan Azərbaycan qadınları olub. Onlar zəriflikləri, incəlikləri qədər də mübariz, əzmkar, dözümlü və yardımsevər olublar. Odur ki, üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəliblər. Müasir dövrdə də qadınların cəmiyyət həyatında fəal təmsilçiliyi, gender bərabərliyi kimi məsələlər xüsusi aktuallıq kəsb edir.

## Mədəni irsin təbliğinə diqqət və qayğı

Azərbaycan qadınlarının ən yüksək keyfiyyətlərindən biri də müasirliklə yanaşı, həm də xalqına, kökünə bağlı olmalarıdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva öz çoxşaxəli və məhsuldar fəaliyyətində hər zaman Azərbaycanın tarixi nailiyyətlərinə, zəngin mədəniyyətinə, elm və təhsil sahələrinə diqqət və qayğı ilə yanaşır. Hələ 1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub. 1996-cı ildə Mehriban Əliyeva üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib.

Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətində milli mədəniyyətimizin təcəssümü və inkişafı naminə həyata keçirilən layihələr xüsusilə fərqlənir. Bəşəriyyətin şifahi və qeyri-maddi irsinə dair şah əsərlərindən olan, dünya siyahısına daxil edilən muğam sənətinin qorunub saxlanılması və təbliği istiqamətində onun təşəbbüsü ilə təqdirəlayiq işlər həyata keçirilib.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycan muğam sənətinin inkişafı və qorunması məqsədilə "Azərbaycan muğamları" layihəsi çərçivəsində Azərbaycan, ingilis, rus, fransız, alman, italyan dillərində "Qarabağ xanəndələri" musiqi albomunu nəşr edib. 24 korifey xanəndənin ifasında səslənən muğamların toplandığı musiqi albomu dünya xalqlarına Azərbaycan musiqi mədəniyyətinin zəngin tarixi barədə ətraflı məlumat verir. Eyni zamanda "Muğam" jurnalının, "Muğam ensiklopediyası"nın nəşri Azərbaycan xalqına məxsus zəngin sənətin təbliğində böyük əhəmiyyətə malikdir.

Bundan başqa, Azərbaycan muğam sənətinin qorunub saxlanılması, təbliği məqsədilə nəzərdə tutulan "Muğam-irs", "Muğam dəstgah", "Muğam-Antologiya" layihələri Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın şəxsi təşəbbüs və xidmətlərinin nəticəsidir. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin anadan olmasının 120 illiyi münasibətilə təşkil edilən televiziya muğam müsabiqəsi görülən dəyərli işlərin davamı kimi böyük maraq doğurub.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə 18-25 mart 2009-cu ildə Bakıda "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı keçirilib. Qeyd edək ki, festival mərasimləri xalqımızın milli və tarixi adət-ənənələrini yaşadan Novruz bayramı ərəfəsində təşkil olunub. Əsas məqsədi müasir dünyada Azərbaycan muğamının tanıdılması, xalqımızın ənənəvi musiqi sənətininin dünya musiqi irsində layiqincə yer tutması olan Muğam festivalının keçirilməsi ənənəvi hal alıb. Tədbirdə yalnız Azərbaycanın deyil, dünyanın tanınmış sənətkarları da iştirak ediblər.

"Muğam aləmi" Beynəlxalq Muğam Festivalı uğurlu, yaddaqalan və davamlı olub. Muğam sənətimizin təbliği və inkişafı nəzərdə tutularaq keçirilən növbəti festivallarda da dünyanın müxtəlif ölkələrindən tanınmış musiqiçi və tədqiqatçılar iştirak ediblər. Həm Bakıda, həm də ölkəmizin bir çox bölgələrində festivallar çərçivəsində Azərbaycanın və xarici musiqiçilərin iştirakı ilə konsertlər təşkil edilib, beynəlxalq muğam müsabiqəsi, beynəlxalq elmi simpozium və ustad dərsləri keçirilib.

Azərbaycan xalqına xas, eyni zamanda bütün dünya musiqi ictimaiyyəti üçün dəyərli olan muğam sənətinin əbədiyaşarlığını qeyd edən Mehriban Əliyeva diqqətə çatdırıb ki, hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır: "Qərblə Şərqin arasında, Böyük İpək yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlər boyu öz mədəniyyətini formalaşdırmışdır". O, muğamın insanlara bəxş etdiyi mənəvi zövqün, zənginliyin, duyğuların heç nə ilə əvəz oluna bilmədiyini vurğulayıb. Muğamın Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısı olduğunu diqqətə çatdırıb: "Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, muğam gözəlliyin və məhəbbətin rəmzidir desəm, səhv etmərəm".

Mehriban Əliyeva diqqətə çatdırıb ki, muğam bizim mədəniyyətimizin, Azərbaycan mədəniyyətinin əsas sütunlarından biridir və əlbəttə, onu qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının mənəvi borcudur.

## Azərbaycanlı olmağın qüruru

Tarixə hörmətin, ehtiramın bir yolu da bu günə qayğı ilə yanaşmaqdır. Çünki hər keçən gün tarixə çevrilir. Ölkəmizin tərəqqisi və xalqımızın rifahı naminə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələrin hazırlanıb həyata keçirilməsi böyük əhəmiyyət daşıyır. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xətti ilə hətta respublikamızın ən ucqar yerlərində belə məktəb binaları, səhiyyə və tibb məntəqələri inşa və bərpa edilir.

Mehriban Əliyeva gələcəyimiz olan körpələrə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşıb. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əməkdaşları mütəmadi olaraq kimsəsizlər və körpələr evlərinə baş çəkir. Müstəqil Azərbaycanda körpələrin, uşaqların sağlam və savadlı böyüyüb tərbiyə olunması üçün mühüm işlər görülür.

Bu il fevralın 6-da Türkiyədə böyük dağıntılara, minlərlə insanın həlak olmasına və xəsarət almasına səbəb olan güclü zəlzələlər baş verəndə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva öz kədərini bildirərək başsağlığı verdi. Və elə əsrin fəlakətinin baş verdiyi gündən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, zəlzələdən zərərçəkənlərə humanitar yardım dolu təyyarələr yola salındı.

Azərbaycanın bütün bölgələrindən qardaş ölkəyə kömək əli uzandı. Hər kəs bacardığı, imkanı çatdığı qədər yardım etdi. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Türkiyəyə yardımda göstərdiyi həssaslığa görə ölkə ictimaiyyətinə təşəkkürünü bildirdi. Qeyd etdi ki, hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindəndir: "İnsansevərliyinizə, mərhəmətinizə və şəfqətinizə görə çox sağ olun! Azərbaycanlı olduğuma görə çox qürurluyam!".

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*



# Xeyirxahlıq mücəssəməsi

## Mehriban Əliyeva qayğıya ehtiyacı olanların ümid yeridir

**"Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən". Bu fikirləri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva müsahibələrinin birində qeyd edib.**

Elə təkcə bu fikirlər özlüyündə Mehriban xanımın xeyriyyəçi və insansevər mahiyyətinə, onun incə ruhuna və mərhəmətli ürəyinə işıq tutur. Birinci xanımın fəaliyyətinin mərkəzində kömək uman, sevgiyə və mərhəmətə ehtiyac duyan insan faktorunun dayanmasının nəticəsidir ki, o, daim mərhəmətli və xeyirxah əməlləri ilə tanınır.

Mehriban Əliyeva mütəmadi olaraq dövlət tədbirlərində, yeni infrastrukturların açılışında və müxtəlif layihələrdə iştirak etməsinə baxmayaraq, ehtiyaclı insanlara yardım etmək üçün mütləq vaxt tapır. Davamlı olaraq şəhid anaları, qazilər ilə görüşür, qayğıya ehtiyacı olan həssas uşaqlara, qocalara, xəstələrə, eləcə də çətin vəziyyətdə olan ən müxtəlif peşə sahiblərinə kömək göstərir, əlindən gələni əsirgəmir. Çoxşaxəli fəaliyyətinin əsasında dayanan insanlara yardım etmək amalı Mehriban xanım Əliyevanı bütün azərbaycanlıların doğmasına çevirib.

### Xalq artisti Ramiz Novruz: "Nə yaxşı ki xalqımızın Mehriban Əliyeva kimi övladı var"



Mehriban Əliyeva "Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrinə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq ənənələri davam etdirməyə çalışırıq" sözlərini əməlləri ilə daim təsdiqləyir. Fond ən müxtəlif peşə sahiblərini, eləcə də mədəniyyət nümayəndələrini diqqətdən kənarda qoymur, onlara dəstəyini göstərir. Təsadüfi deyil ki, Mehriban Əliyeva bir müddət əvvəl Xalq artisti, aktyor Ramiz Novruzun müalicəsini öz üzərinə götürmüşdü. Ramiz Novruzun sözləri ilə desək, Mehriban xanımın elə bu cür xeyirxah əməllərinin nəticəsidir ki, ölkəmizdə hər kəsin ən doğmasına çevrilib.

"Birinci vitse-prezident Mehriban Əliyevaya nə qədər təşəkkür etsəm, azdır. Hər kəs xəbərdardır ki, Mehriban xanım ən çətin anlarımda, xəstəliklə mübarizə apardığım zamanlarda məndən dəstəyini əsirgəməyib. Heydər Əliyev Fondu bir daha göstərdi ki, sıravi vətəndaşlardan tutmuş tanınmış insanlara, ziyalılara və sənət adamlarına qədər hər kəs onlar üçün dəyərlidir. Həm də Mehriban xanım mənə elə bir vaxtda kömək əlini uzatdı ki… Onlar şəhid ailələri və qazilərimizə diqqət və qayğı, Qarabağın yenidən qurulması kimi böyükmiqyaslı işlərlə yanaşı, xalqımızın köməyə ehtiyacı olan digər nümayəndələrini də unutmur, vaxt tapıb qayğı göstərirlər. Bu, çox xüsusi və əsl ürək tələb edən nümunəvi davranışdır. Qarşılarında baş əyirəm".

Xalq artisti əlavə edib ki, nə yaxşı ki xalqımızın Mehriban Əliyeva kimi xeyirsevərləri var: "Bir daha köməyini əsirgəməyən bütün komandaya, xeyirsevər insanlara minnətdarlığımı bildirirəm".

### Qəşəm Nəcəfzadə: "Mehriban xanım bizi stresdən qurtardı"



Birinci vitse-prezident Mehriban Əliyeva yaxın günlərdə şair və publisist Qəşəm Nəcəfzadəyə ev hədiyyə edib. "Bu hədiyyə məni çox sevindirir", - deyə bildirən şair təəssüratlarını qəzetimizə bölüşüb. O qeyd edib ki, ev böyük hədiyyədir - bu, öz yerində, amma hədiyyəni verən şəxsin kimliyi də mənim üçün xüsusidir.

"Həmin evi məhz xalqımızın böyük qızı Mehriban Əliyevanın hədiyyə kimi bağışlaması mənimçün böyük əhəmiyyət kəsb edir. Belə qiymətli hədiyyəyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürümü bildirirəm. Mənim evim yox idi, uzun müddət kommunal şəraiti, sənədləri olmayan, döşəməsi torpaqdan ibarət olan ikiotaqlı evdə beş nəfərlik ailə ilə qalıb, elə orada da xəstəlik tapmışdıq. Şükürlər olsun ki, Mehriban xanım bizi bu stresdən qurtardı. Mənə işıqlı, yaraşıqlı, şəhərin gözəl yerində mənzil hədiyyə etdi. Ev çox doğma yerdir, hamının evi olmalıdır. Allah hər kəsə ev qismət etsin, təki hamının xeyirli arzuları çin olsun", - deyə Q.Nəcəfzadə bildirib.

### İbrahim Abzotov: "Mehriban xanım mənim möcüzəmdir"



Bütün Azərbaycan xalqı şahiddir ki, Mehriban xanımın qayğısıyla neçə-neçə kimsəsiz gənclər həyat qurub, təhsil alıb, evlə, işlə təmin olunublar. Mehriban Əliyeva ailə həyatı quran, valideyn himayəsindən məhrum olmuş gənclərə kömək göstərir. Belə cütlüklərdən biri də 2017-ci ilin martın 4-də ailə həyatı qurmuş Yasəmən və İbrahim Abzotovlardır. Nizami rayonundakı 1 saylı uşaq evində böyüyən bu gənclər ta uşaqlıqlarından bəri Mehriban xanımın qayğısını hiss ediblər. Onlar qeyd edirlər ki, yuxumuzda da görməzdik ki, bizim toyumuz məhz Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə təşkil olunar.

"Açığını desəm, nə uşaq evində yaşadığım vaxtlarda, nə də indi özümü heç vaxt kimsəsiz hiss etməmişəm. Bu, əlbəttə ki, Mehriban xanımın bizə olan qayğısından, sevgisindən irəli gəlir. Hələ uşaq olduğumuz vaxtlarda Mehriban Əliyeva bizə sanki öz övladları kimi qayğı göstərirdi. Maraqlısı odur ki, bir çox hallarda bizə "internat uşaqları" yox, "xanımın övladları" deyə müraciət edirdilər. Bu kəlmə mənim çox xoşuma gəlirdi. Ona görə də hər zaman özümü bu ada layiq aparmağa, ehtiyatlı addımlar atmağa çalışıram", - deyə İbrahim ürəkdolusu danışır.

Həyat hekayəsindən bəhs edən İbrahim Mehriban xanımı möcüzə adlandırır. Deyir: "Mehriban Əliyeva bizə elə qayğı göstərirdi ki, belə demək mümkündürsə, hətta analı-atalı uşaqlar belə bizə paxıllıq edərdilər... Biz Yasəmənlə bir-birimizi sevsək də, ailə qurmaq imkanımız yox idi. Mehriban xanım isə bizə toy təşkil edilməsi üçün tapşırıq verdi, mənzil və avtomobil hədiyyə etdi. O günü heç vaxt unutmuram, çünki o qədər əziyyət çəkirdim ki, nəyi necə edəcəyimi bilmirdim. Amma Mehriban xanım ən çətin zamanımda yenə dadıma yetişdi. İndi Əminə adlı beş yaşlı qızımız var. Yasəmən Mehriban xanımın dəstəyi ilə Heydər Əliyev Fondunun nəzdində olan ictimai birlikdə, mən isə Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyində çalışırıq. Xanımın bizə olan sevgisinin izlərini hər günümüzdə, hər anımızda hiss edirik".

İbrahim deyir ki, biz Mehriban xanımın timsalında bir insanın həyatda duya biləcəyi ən isti sevgini və qayğını görə bilmişik: "Hər şeyə görə Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm. Mehriban xanımın, dövlətimizin, Vətənimin mənə etdiklərinin, verdiklərinin borcunu 44 günlük müharibədə bir balaca da olsa, qaytarmağa çalışmışam. Doğrudur, müharibədə iştirak etmək mənim Vətən qarşısındakı ən ali borcum və vəzifəm idi. Amma etiraf edirəm ki, mənim ora könüllü yollanmaq üçün əsas səbəbim Mehriban xanımdan ömrüm boyu gördüyüm sevgi və qayğı idi".

### Məlahət Əliyeva: "Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan bu mərkəz övladımın doğma evi kimidir"



Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində bu sindromdan əziyyət çəkən uşaqlar üçün hər cür şərait yaradılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzdə daun sindromlu uşaqlar həm müalicə olunur, həm də təlim-tədris keçir və bacarıqlarını inkişaf etdirirlər. Övladı daun sindromlu olan Məlahət Əliyeva deyir ki, bu mərkəz indi onlar üçün ən doğma məkana çevrilib.

"Övladlarımıza belə doğma və isti şərait yaratdığı üçün Mehriban xanıma təşəkkürlərimizi bildiririk. Mənim 13 yaşlı qızım Fatimə artıq 3 ildən çoxdur ki, bu mərkəzdə təlim-tədrisdən keçir, loqoped və psixoloq dəstəyi alır. Biz buradakı şəraitdən, müəllimlərdən, loqopedlərdən və bütün kollektivdən çox razıyıq. Çünki mən 3-4 ildə Fatimədəki inkişafın şahidiyəm, maşallah, qızım o qədər aktivləşib ki... Buna səbəb onun hər gün mütəmadi olaraq sevgi və qayğı ilə əhatə olunması, ətrafında olan, demək olar ki, bütün insanların xüsusi münasibətidir. Həmçinin mərkəzdəki uşaqlar Mehriban xanımın təşəbbüsü ilə təşkil edilmiş tədbirlərdə də mütəmadi iştirak edir, öz bacarıqlarını nümayiş etdirirlər. Elə anlarda o qədər sevinirlər ki, buna Allah şahiddir", - deyə valideyn razılığını ifadə edir.

Valideynin dediyinə görə, bu mərkəzə gələndə heç bir hərf, rəqəm tanımayan Fatimə indi artıq əlifbanı başa vurub, nitqi xeyli inkişaf edib. O bildirir ki, Mehriban xanımın nəcib təşəbbüsü sayəsində övladı indi özünü cəmiyyətdə daha rahat hiss edir, bacarıqlarının fərqindədir. Mərkəzə ilk dəfə üz tutanda çox stresli və narahat olan valideyn bildirir ki, burada yaradılan şərait həm özünün, həm də Fatimənin rahatlığını təmin edib. "Sevincim yerə-göyə sığmır... Sanki dünyanın ən gözəl uşaqları elə daun sindromlu uşaqlardır. Bu uşaqlar Mehriban xanımın xoş təşəbbüsləri, isti ana sevgisi nəticəsində belə inkişaf edir, cəmiyyətə qarışırlar", - deyə Məlahət xanım fikrini tamamlayır.

### Ağalı sakini: "Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya nə qədər təşəkkür etsək, azdır"



Keçmiş məcburi köçkünlərə və qaçqınlara qayğı və diqqət göstərilməsi də Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm istiqamətini təşkil edir. Təsadüfi deyil ki, Birinci vitse-prezident Mehriban Əliyeva bu vəzifəyə təyin ediləndən sonra ilk müşavirəsini məhz keçmiş məcburi köçkünlərin problemlərinə həsr edib, dərhal sonra isə bu təbəqədən olan əhali üçün yeni yaşayış kompleksinin təməlini qoyub. Daha sonra torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycan Ordusunun şücaəti hesabına düşmən işğalından azad edilib. İndi həmin torpaqlarda sürətli bərpa-quruculuq işləri davam etdirilir. Bunun nəticəsidir ki, neçə-neçə ailə öz doğma yurduna - Zəngilanın Ağalı kəndinə qayıtmaq şansı əldə edib.

Həmin xoşbəxt ailələrdən biri də ağalılı Bayram Məmmədovun ailəsidir. Ağalıya köçən kənd sakini Bayram Məmmədov deyir ki, o, doğma torpaqlarına qayıdacaqları günü çoxdandır ki, gözləyir və bunun həsrətini çəkirmiş. "Bizə bu günləri yaşadanlara, Azərbaycan Ordusunun əsgər və zabitlərinə, şəhidlərimizə, qazlərimizə və əlbəttə ki, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya nə qədər təşəkkür etsək, azdır. Mən 1988-ci ildə Ağalı kəndində anadan olmuşam. Müharibə dövründə yaşım az olduğu üçün olanları xatırlaya bilmirəm. Amma bu gün böyük sevinc və qürur hissi ilə kəndimə qayıtmışam. Həqiqətən, tarixi an idi. Bir daha bizi doğma torpağımıza qovuşdurduğu üçün qəhrəmanlarımıza minnətdarlığımızı bildiririk. Həmçinin dövlətimizin başçısına, eləcə də birinci xanıma ürəkdən təşəkkürlərimizi çatdırırıq. Ən qısa zamanda yurdumuza qayıtmağımızı təmin etdikləri üçün çox sağ olsunlar", - deyə keçmiş məcburi köçkün minnətdarlığını belə ifadə edir.

Bütün bu deyilənlər bir daha sübut edir ki, Mehriban Əliyeva "İllər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır" fikirlərinə daim sadiqdir. Ona görə də birinci xanımın təşəbbüsü ilə reallaşdırılan layihələrin böyüklüyü, onun xeyirxahlıq və humanizm missiyası hər kəsi heyrətləndirir. Birinci vitse-prezident Mehriban Əliyeva, doğrudan da, Azərbaycan xalqının xeyirxahlıq mücəssəməsidir.

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

21 Fevral Beynəlxalq Ana Dili Günüdür

# Əbədi varlığımız

**Bu günün bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd edilməsi artıq ənənəyə çevrilib. Belə ki, 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. 2000-ci ildən bu əlamətdar gün dünyada dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün qeyd olunur.**




Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanlara xatırladır.

## Ana dilini sevmək, qoruyaraq yaşatmaq ilk növbədə hər bir insanın öz kimliyinə hörmətidir

Bəşər sivilizasiyasının ilk beşiklərindən sayılan Azərbaycan yalnız tarixinin zənginliyi ilə diqqəti çəkmir. Dünyanın ən qədim yazılı abidələri, şifahi xalq ədəbiyyatı nümunələri içərisində Azərbaycan dilində yaranmış əsərlər əhəmiyyətli yerlərdən birini tutur. "Orxon-Yenisey", "Güntəkin", Mahmud Kaşğarinin "Divanül-lüğətül-türk" kitabı, "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm söz sənəti abidələri xalqımızın tarixinin, mədəniyyətinin qədimliyinin nümunələridir. Sonrakı dövrlərdə də bu dildə şairlərimiz, yazıçılarımız möhtəşəm əsərlər yazıblar.

Xalqımızın dili də məmləkəti Azərbaycan kimi əsrlər boyu çox ağır sınaqlardan keçib. Yadellilər bu xalqın məmləkətinin yalnız təbii sərvətlərinə göz dikməyiblər, həm də onun dilini unutdurmağa çalışıblar. Azərbaycan ədəbiyyatının dünyaca məşhur bir çox əsərlərinin də əsrlər boyu ərəb, yaxud fars dilində yazılmalarının səbəbi budur. Ancaq yad dillərdə qələmə alınmış həmin əsərlərin özündə belə müəlliflər milli kimliklərini ifadə ediblər.

Başı bəlalar çəksə də, Azərbaycan dili yaşayıb. Bu dili yaradan xalq ona sahib çıxıb, qoruyub. Xalqın mütərəqqi fikirli, ziyalı, istedadlı övladları da ana dilimizin saflığının qorunması uğrunda böyük mübarizələrdən keçiblər. Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Əbdürrəhim bəy Haqverdiyev, Firudin bəy Köçərli, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir bəy Hacıbəyli, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə və başqalarının çoxşaxəli yaradıcılıqlarının müəyyən istiqamətlərindən biri də ana dili ilə bağlı olub. Azərbaycanın ictimai həyatında fəal iştirak edən bu ziyalıları, görkəmli qələm sahiblərini ana dili problemi daim düşündürüb, narahat edib. Onlar bütün fəaliyyətləri boyu yalnız ana dilində məktəblərin açılması, ana dilinin tədrisi uğrunda mübarizə aparmayıblar. Eyni zamanda ana dilinin saflığının qorunmasını və inkişafını özlərinin əsas qayəsinə çeviriblər.

Dünyanı daha yaxşı görmək, daha çox öyrənmək və daha çox insanla ünsiyyət qurmaq üçün xarici dilləri öyrənmək əhəmiyyətlidir. Ancaq bu mühüm amili hər zaman yadda saxlamaq lazımdır ki, ana dilini sevmək, unutmamaq, qoruyaraq yaşatmaq ilk növbədə hər bir insanın özünə hörmətidir. Ana dilini bəyənməmək, ona xor baxmaq əslinə-nəcabətinə, milli-mənəvi kimliyinə xəyanətdir. İctimai xadim, yazıçı, publisist Nəriman Nərimanov da ana dilində danışdıqları cümlələrə əcnəbi sözlərlə "zinət" verməklə öz üstünlüklərini nümayiş etdirdiklərini düşünən bəzi oxumuşların bununla xalqa xəyanət etdiklərini yazırdı: "Xəyanət? Bəli, xəyanət! Bir dəfə yox, yüz dəfə yox, min dəfə!"

## "Bu dil şirinlikdə şərbət kimidir"

Öz dövründə bəzi oxumuşlarımızın ümumxalq yolunda çalışmamalarını, bəzilərinin ana dilini gözdən salmalarını, əcnəbi dil biliklərini nümayiş etdirmək cəhdlərinin əndazəni keçməsini tənqid edənlərdən biri də Üzeyir bəy Hacıbəyli idi O yazırdı: "Ana dilimizə əhəmiyyət verməsək, ola bilər ki, bir gün dilimiz itər-batar, yox olar və bir millətin də ki, dili batdı, o millət özü də batar, çünki bir millətin varlığına, yaşamasına isbat vücud onun dilidir".

Cəlil Məmmədquluzadə vətənin, xalqın nicat yolunu göstərirdi: "...vətən, vətən, vətən; dil, dil, dil; millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-növibəşər üçün nicat yolu yoxdur", - deyirdi. Zaman sürətlə ötüb keçsə də, əsrlər bir-birini əvəz etsə də, vətənin, xalqın bu nicat yolu dəyişməzdir. Dil xalqın mənəvi varlığının təzahürüdür.

Ana dilinin saflığının qorunması və inkişaf etdirilməsi məsələlərinə məsuliyyətlə yanaşma sonrakı illərdə də bir çox ziyalılarımızın fəaliyyətində, yaradıcılığında ifadə olunub. Mirzə İbrahimov, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Tofiq Bayram və başqaları sələflərinin yolu ilə gedərək ana dilini yerli-yersiz əcnəbi sözlərlə yükləyənlərə, yaxud öz doğma dillərində danışmayanlara tənqidi münasibətlərini ifadə ediblər. Şair Tofiq Bayram belələrini qınayırdı:

*Bu dil şirinlikdə şərbət kimidir,*
*Saflığı qorunan sərhəd kimidir,*
*Anamız Vətən də qürbət kimidir -*
*Öz ana dilini bilməyənlərə!*

Belələrinə şair Bəxtiyar Vahabzadənin də münasibəti sərt, kəskin idi. Şair yazırdı:

*Ey öz doğma dilində danışmağı*
*Ar bilən fasonlu ədəbazlar*
*Ruhunuzu oxşamır qoşmalar, telli sazlar?!*
*Bunlar qoy mənim olsun.*
*Ancaq vətən çörəyi sizlərə qənim olsun!*

Yalnız tarixin ağır sınaqlarından keçə bilən dilin yaşamağa, var olmağa haqqı çatır. Əsrlər boyu keşməkeşli yollardan keçmiş ana dilimiz də bu haqqa sahibdir. Ana dilimiz milli qürurumuzdur, bizi keçmişimizdən ayrı düşməyə qoymayan qırılmaz bağdır. Bu gün ən gözəl ünsiyyət vasitəmizdir. Bütün sabahlarımızda dünənimizə və bu günümüzə ən yaxşı bələdçimiz, əbədi varlığımız olacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# "Əzəl çərşənbə" - Su çərşənbəsi

*Əvvəli 1-ci səh.*

Əski inanc və etiqadlara görə, dörd çərşənbənin hər birində bir həyat varlığı "dirilir", oyanır, təzələnir və bununla bağlı olaraq xalq arasında müxtəlif ayinlər, mərasimlər keçirilmişdir. Novruzun müjdəçisinə çevrilən İlaxır çərənbələrin hər biri mifoloji mənbələrə istinad edir.

Boz ayın dörd çərşənbəsindən birincisi Su çərşənbəsidir, xalq arasında həm də "Əzəl çərşənbə", "Sular Novruzu", "Gözəl çərşənbə","Gül çərşənbə", "Zəmzəm çərşənbə", "Sel çərşənbə" və s. adlandırılır.

Həm təbiətdə, həm də insan həyatında suyun yeri və əhəmiyyəti müstəsnadır. Susuz həyatı təsəvvür etmək qeyri- mümkündür. Hətta İslamda su sədəqəsi ən üstün sədəqə sayılır. Uca Yaradan "Qurani-Kərim"də buyurur ki, "Hər canlı şeyi sudan yaratdıq" ("Ənbiya", 30).



Məlumdur ki, insan orqanizminin təqribən 70 faizi, baş-beynin isə 90 fazi sudan ibarətdir. Suyun ən əhəmiyyətli xassələrindən biri onun yaddaşıdır. Su verilən informasiya və ya kənar təsirlərin daşıyıcısıdır.

Türk xalqlarının mifoloji düşüncəsində su müqəddəs hesab olunur və su kultu mühüm yer tutur. Xalq arasında Su Tanrısı Abanın və Nahidin adı ilə bağlı folklor mətnləri yaranmış və bu günə qədər qorunub saxlanmışdır:

*Aban abana gəldi,*
*Aban imana gəldi,*
*Abana yol verin,*
*Abana qol verin.*
*Al Aban haylı gəlib,*
*Al Aban paylı gəlib...*

Suyun müqəddəsliyini, paklığını tərənnüm edən Novruzun başlıca rəmzlərindən olan Su çərşənbəsi şifahi yaddaşda zəngin inanc və etiqadlar, mərasimlər sistemində təzahür olunur. Su çərşənbəsi suya inam, suya tapınma ilə bağlıdır. Çox erkən dövrlərdən insanlar hələ gün doğmamış su üstünə gedər, pak, təmiz, axar suda yuyunar və bununla da özlərini paklanmış hesab edərdilər. Əski inanclara görə, Su çərşənbəsində insanlar axar sudan gətirib evə, həyət-bacaya səpər, bununla da müşküllükdən, çətinlikdən, azar-bezardan azad olmalarına inam bəsləyirdilər. Suyun müqəddəsliyi erkən folklor mənbələrində, o cümlədən "Kitabi-Dədə Qorqud"da Qazan xanın "Su həq didarın görmüşdür" ("Su Tanrının üzünü görmüşdür") müraciətində, "Koroğlu"da Qoşabulağın timsalında, Xızırın dirilik çeşməsində içdiyi suda əyan olmuşdur. Türk mifoloji qaynaqlarında "idi kimi sahib mənasını verən "su əyəsi" obrazına rast gəlmək olar ki, o, bütün əyələrdən güclü hesab olunur. Hətta bəzi mifoloji təsəvvürlərə görə, "su əyəsi", yaxud "su yiyəsi" qadın obrazı kimi səciyyələndirilir. Digər mənbəyə görə, "suyun altında su əyəsinin öz səltənəti , öz sarayı var. Həmin su əyəsinin adı İlyasdır". İnanca görə, su üstünə gedərkən mütləq su əyəsinə salam vermək lazımdır.

Əski türklər bulaqları "qara su", yəni ulu, ilahi, müqəddəs hesab etmiş və bulağı yeraltı qaranlıq dünya ilə yerüstü işıqlı dünya, eləcə də olum və ölüm arasındakı bir vasitə kimi qəbul etmişlər. Ona görə də həmin suyu "abi- həyat", "dirilik suyu" adlandırmışlar. Xalqımız onu müxtəlif adlarla, "həyat suyu", "Xızır suyu", "Zəmzəm suyu" və s. ifadə etmişdir. Folklorumuzda dirilik suyu ilə bağlı əfsanə və rəvayətlər mövcuddur. Həmin süjetlərə görə Xızır, yaxud Xıdır dirilik suyunu tapıb içir, əbədi həyat qazanır, ona görə də "Nəbi" peyğəmbərlik statusunu qazanır.

Xalq ənənəsində yuxunu axar suya danışmaq və sanki bununla yuxunun mənfi təsirindən qurtulmaq inamı da mövcuddur ki, bu da suyun aydınlığı və arzuolunmaz enerjini yuyub aparması inancına söykənir.

Erkən inanclara görə, "Sular toyu" və ya "Axar sular Novruzu" adlandırılan bu çərşənbə axşamında Dan ulduzu doğulan zaman yer üzündəki bütün axar sular bir an donub dayanır, hətta bu zaman suya heç nə batmır.

Su həmçinin sağlamlıq rəmzidir. Su çərşənbəsində müəyyən ayinlər icra edilərdi ki, bunların mahiyyəti, özəllikləri diqqəti cəlb edir. Məsələn, Su çərşənbəsində ərgən qızlar axar sudan "lal su" , yəni suyu evə gətirərkən bir kimsə ilə danışmazdılar. Suyu bir neçə qaba qoyub saxlayardılar. Qızlar bir yerə yığışar, hərə öz üzüyünü saçına sürtüb suya salar, inanca görə üzük suda neçə dəfə cingildəsə, demək, həmin yaşda gəlin köçəcəklər.

Su çərşənbəsi ərəfəsində Günəş zodiak qurşağında "Dolça" bürcündən "Balıqlar" bürcünə keçir və Müştəri - Yupiter planetinin himayəsinə daxil olur. Ona görə də Əzəl çərşənbə süfrəsində ağzına qızıl keçirilmiş balığın və dolçada suyun olması gərəkdir.

Xalqımızın şifahi yaddaşında həyatı, erkən baxışları, mənəvi əxlaqi dəyərləri tərənnüm edən və artıq milli təfəkkürdə qətiləşən bədii mətnlər toplusunda suya inam və tapınma ilə bağlı saysız nümunələrə rast gəlmək olar. Onlar ibrətamizlik rəmzi olan atalar sözü və məsəllərdə, bayatılarda, inanclarda türkəçarələrdə, tapmacalarda bu günümüzlə səsləşməkdədir. Həmin nümunələrdən bir qisminə nəzər salaq:

*Su səni,*
*Su göyərtmiş süsəni,*
*Keçmə namərd körpüsündən,*
*Qoy aparsın su səni...*

❖ ❖ ❖

*Su axır samanlıqdan,*
*Yol keçir qaranlıqdan.*
*Çalış yaxşılıq elə,*
*Nə çıxar yamanlıqdan?*

Yuxuda su görmək aydınlıqdır.

Erkən təsəvvürlərlə bağlı suya inamın tarixi köklərindən xəbər verən həm mifik, həm də xalq yaradıcılığı nümunələri çağdaş dövrümüzdə öz aktuallığını nəinki itirməmiş, onların milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından əhəmiyyəti daha da artmışdır.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru***

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 23.02.2023-cü ildə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# KXDR-in ballistik raket atışı G7 tərəfindən pisləndi

## Pxenyan tənqidçilərini ikili standartlarda ittiham edir

Yaponiya hökuməti Şimali Koreyanın yenidən ballistik raket atdığını bildirib. Müdafiə Nazirliyinin məlumatına görə, raket 66 dəqiqə uçaraq Yapon dənizinə düşüb. Pxenyanın hərəkətlərini G7 ölkələri kəskin şəkildə pisləyib.




Ötən ayın sonunda Koreya Xalq Demokratik Respublikasında 20 mindən çox hərbçinin və ballistik raket karvanının iştirakı, o cümlədən ötən il sınaqdan keçirildiyi iddia edilən "Hvason-17" ballistik raketinin nümayişi ilə hərbi parad keçirilib. Parad Şimali Koreya ordusunun yaradılmasının 75-ci ildönümünə təsadüf edib.

Ötən cümə günü Pxenyan Cənubi Koreya və Amerika donanmalarının iştirakı ilə keçiriləcək hər hansı birgə təlimə "indiyədək görünməmiş dərəcədə güclü cavab" verəcəyini bildirərək hədələyib.

Bu cür birgə manevrlər, həqiqətən də, planlaşdırılır. Cümə günü Cənubi Koreyanın Müdafiə Nazirliyi Şimali Koreyadan gələn təhdid ssenarisi əsasında təxminən bir ay ərzində ABŞ ilə iki hərbi təlim keçirəcəyini bildirib.

Pxenyan uzun illərdir müntəzəm olaraq həyata keçirilən bu manevrləri KXDR-ə işğala hazırlıq adlandırır.

Şənbə günü Şimali Koreyadan buraxılan raket yeni ildə birinci olub. Yaponiya hökumətinin rəsmi nümayəndəsi Hirokazu Matsuno bildirib ki, raket 5700 km yüksəkliyə çatıb və Hokkaydo adasının sahillərindən təxminən 900 km aralıda dənizə düşüb.

Yaponiyanın müdafiə naziri Hamada Yasukazu vurğulayıb ki, bu tip raketlər 14 min km məsafədə hədəfi vura bilir, yəni nəzəri olaraq ABŞ ərazisinə çata bilir. Onun dediyinə görə, Şimali Koreyanın hərəkətləri Yaponiyanın və beynəlxalq ictimaiyyətin sülh və sabitliyini təhdid edir və bu tamamilə bağışlanmazdır. Cənubi Koreya hərbçilərinin məlumatına görə, raketlər əvvəllər dəfələrlə sınaq tədbirlərinin həyata keçirildiyi Sunan bölgəsindən buraxılıb.

KXDR-in bu addımı "Böyük yeddilik" üzvləri tərəfindən də pislənilib. Bildirilib ki, qitələrarası raketlərin buraxılması "regional və beynəlxalq səviyyədə sülh və təhlükəsizliyi təhdid edir.

ABŞ-nin rəsmi dövlət katibi Entoni Blinken də ayrıca bəyanatla çıxış edərək, Pxenyana təsiri olan ölkələri KXDR-i hazırkı kursunu dəyişməyə məcbur etməyə çağırıb.

Öz növbəsində KXDR rəsmiləri dəfələrlə tənqidçilərini ikili standartlarda ittiham ediblər. Bir müddət əvvəl Şimali Koreya lideri Kim Çen İnin bacısı Kim Yo Çen demişdi: "Heç nəyi araşdırmadan bizi "təxribat"çı adlandırmaq olmaz".

Şimali Koreyanın nüvə raket proqramının həyata keçirilməsinə cavab olaraq sanksiyalara gəlincə, rəsmi Pxenyan dünya birliyinin mövqeyində ikili standartlara işarə edir.

BMT-nin tarixində dünyada minlərlə nüvə silahı sınağı aparılıb, lakin praktik olaraq heç bir ölkəyə qarşı analoji qətnamələr və sanksiyalar qəbul olunmayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhərinin seçilmiş ərazilərində Novruz bayramına uyğun tərtibat işlərinin aparılması məqsədilə malların, işlərin və xidmətlərin satın alınması məqsədi ilə *təkliflər sorğusu elan edir*

**LOT - 1.** Bakı şəhərinin seçilmiş ərazilərində Novruz bayramına uyğun tərtibat işlərinin aparılması məqsədilə malların, işlərin və xidmətlərin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdır.Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 012 496-52-05.

**İştirak haqqı - 100,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

*2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.*

*3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.*

*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.*

*5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.*

*6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.*

*7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.*

*8. İddaiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Dövlət Statistika Komitəsindən).*

*9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.*

*10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.*

*11. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə)*

İxtisas uyğunluğu sənədləri:

a) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi;

b) Malgöndərənin texniki imkanları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **06 mart 2023-cü il saat 17:00-dək** Bakı şəhəri, Xətai rayonu Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **07 mart 2023-cü il saat 11:00-da** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# "Poz-Qazan"dan təkcə udanlar qazanmırlar

**Təqribən il yarım əvvəl Azərbaycanın lotereya bazarında başlanan yenilik - "Azərlotereya"nın "Poz-Qazan" ani lotereyası indiyədək minlərlə insana uduş gətirib. Hər gün "Poz-Qazan" məntəqələrində çox sayda müxtəlif məbləğlər udulur, "Bakı KOB Evi"ndə isə daha böyük uduş qaliblərinin növbəsi yaranır.**

"Poz-Qazan" barədə danışarkən ilk növbədə uduşlu biletlər və onun xoşbəxt alıcılara qazandırdığı məbləğlər yada düşür. Bilet satışının özünün olduqca sərfəli biznes olması isə çoxlarının diqqətini cəlb edir. Bu sahənin gətirdiyi gəlirə və ən əsası biznesə başlama imkanına görə "Poz-Qazan" məntəqəsi açmaq ölkədə ən sərfəli biznes növlərindən biridir.

"Azərlotereya"nın məlumatlarına görə, Azərbaycanda 2500-ə yaxın, daha dəqiqi 2470 ədəd "Poz-Qazan" satış nöqtəsi var. Satış nöqtələri isə fərqlidir. Ani lotereya biletlərini lotereya satış nöqtələrindən, "Misli" məntəqələrindən, "Azərpoçt" şöbələri, eləcə də müxtəlif metrostansiyalar və bəzi supermarketlərdəki satış yerlərindən əldə etmək mümkündür.

Bu biznesdən ən çox regionlardakı kiçik sahibkarlar faydalanırlar. Satış nöqtələrinin 740-ı Bakı, Abşeron və Sumqayıtda, 1730-u isə regionlarda yerləşir.

"Poz-Qazan" məntəqəsi açmaq ölkədə biznesə başlamaq üçün ən asan üsullardan biridir. Məntəqə açmaq üçün ilk növbədə müvafiq yer tapıb, "Azərlotereya"nın distribütorlarında qeydiyyatdan keçmək lazımdır. Bu zaman məntəqə sahibindən şəxsiyyət vəsiqəsi, 3x4 ölçülü şəkil və satış məkanı barədə məlumat tələb olunur.

"Olduqca asan prosesdir. Baxırsınız, harada uyğun yer var, gedib "Azərlotereya"ya müraciət edirsiniz. Onlar da həmin ərazidə qanuni satış etmək üçün sənəd verirlər, işə başlayırsan", - deyə Bakının Nərimanov ərazisində "Poz-Qazan" məntəqəsi işlədən Əjdər Yarəhmədov prosesi belə izah edir. Bunun əsasında "Azərlotereya"nın distribütoru həmin şəxsə sertifikat verir. Həmin sertifikat ilə qeyd olunan ərazidə satış nöqtəsi açıb fəaliyyətə başlaya bilərsən.

"Poz-Qazan" məntəqəsi işlədən Sevda Məmmədova isə bildirir ki, bəzən yer axtarmağa da ehtiyac olmur: "Azərlotereya"nın distribütorları yer tövsiyə edirlər. Yer seçilir, razılıq əldə edilir və işləməyə başlayırlar".

Onun sözlərinə görə, "Poz-Qazan" biletlərinin satış məntəqəsinin açılması ilə bağlı "Azərlotereya"dan sertifikat almaq kifayət edir: "Biletləri verirlər, satmaq bizlikdir". Lotereya satıcılarına qoyulan tələblər də sadədir - səliqəli görünüş, dürüst və məsuliyyətli olmaq, satış nöqtəsini səliqəli saxlamaq... Satıcı "Azərlotereya"nın təqdim etdiyi geyimdə olmalı və oyun qaydalarını əzbər bilməlidir.




Lotereyanın ləzzəti uduşlardır - "Poz-Qazan" bu sahədə məşhurdur. İndiyədək 100 və 200 min manatlıq böyük uduşlar, onlarca 10-25 min manatlıq, yüzlərlə 1000 manatlıq, eləcə də minlərlə daha aşağı məbləğli uduşlar lotereya biletlərinə marağı artırıb. Bu yaxınlarda Goranboy şəhərində Aslan Aslanov "Şans yağışı" ani lotereyasından 200 min manat qazanıb.

"Bizdə böyük uduşlar az deyil, Azərbaycanda, bəlkə də, ilk 25 min manatı mənim satdığım lotereyada udublar. Yaxşı xatırlayıram, həmin alıcı 2 bilet almışdı, biri heç nə udmadı, digəri 25 min manat uddu. Sevindiyindən şoka düşmüşdü", - deyə "Xalqlar Dostluğu" tərəfdə, "Poz-Qazan" məntəqəsində çalışan Sevda Məmmədova ilk böyük uduşu xatırlayır.

Göründüyü kimi, bu biznes qadınlar üçün də stimulvericidir. Lotereya sektorunda xanım satıcıların varlığı belə deməyə əsas verir. Lotereya biznesinin əlverişli olması qadın sahibkarlığının inkişafı baxımından müsbət meyardır. Satış işinin həyata keçirilməsi prosesinin asan olması, qoyulan tələblərin qadınlara uyğunluğu onlarda bu biznesə maraq yaradır.

Satış məntəqələrinin yerləşmə məsələsində yeganə ciddi tələb - "Poz-Qazan" məntəqəsinin məktəb və bağçalardan uzaqda olmasıdır. "Azərlotereya"nın tətbiq etdiyi sosial məsuliyyət qaydalarına görə lotereya satış məntəqələri məktəb və bağçalardan azı 100 metr məsafədə olmalıdır. "Uşaqlara bilet satılmır - bütün biletlərin üzərində 18+ yazılıb", - deyə satıcılar dərhal bu məsələyə nöqtə qoyurlar.

Satış məntəqələrinin bir-birindən aralıqda yerləşməsi məsafəsinə gəlincə: "Onlar lap yaxında və ya uzaqda yerləşə bilər - biznesdir, onu sahibkarlar özləri tənzimləyir", - deyə distribütor şirkətlərində bildirirlər. Buna baxmayaraq satıcıların fikrincə, "yeri elə seçmək lazımdır ki, daha əvvəl satış edən başqasına mane olmayasan. Bu, həm onun, həm də sənin gəlirlərini azalda bilər. Ona görə də yeni məntəqə üçün gediş-gəliş olan yerə üstünlük verilməlidir, amma çalışmaq lazımdır ki, lap yaxında başqa məntəqə olmasın".

Burada məntəqə sahibinin gəliri birbaşa satışın həcmindən asılıdır - Gündəlik satışın həcmi fərqlidir, 800, 1000, 1200 manat olur", - deyə Əjdər Yarəhmədov bildirir. Təcrübə göstərir ki, gün ərzində satış məntəqələrində normal halda minimum 600 manat, maksimum isə 3500 manata yaxın məbləğində satış etmək mümkündür. Nəticədə satıcının gündəlik qazancı 40 manatdan 200 manatadək dəyişir. Amma hava şəraitindən asılı olaraq küçədə fəaliyyət göstərən "Poz-Qazan" məntəqələrində satış həcmi fərqli ola bilər.

Daha bir müsbət cəhət odur ki, "Azərlotereya"nın biletlərini satan məntəqələr sadələşdirilmiş vergiödəyiciləridir. Bu, Vergi Məcəlləsinin 218.4.2-ci maddəsi ilə tənzimlənir. Lakin bu müddəa lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlərə aid deyildir. Bu gəlirlər həmin məcəllənin 218-1.1.6-maddəsinə uyğun olaraq vergidən azaddır. Satıcılar ancaq lotereya təşkilatçısının ona verdiyi haqq (mükafat)dan 4 faiz sadələşdirilmiş vergi ödəyirlər (Vergi Məcəlləsi, maddə 219.4-1, maddə 220.9-1).

Satış nöqtələrinin sayının çox olmasına və gündən-günə artmasına baxmayaraq, "Azərlotereya" və onun ərazi nümayəndələri hər birinə ciddi nəzarət edirlər. Bəzi pozuntular verilmiş sertifikatın ləğvinə və məntəqənin bağlanmasına səbəb ola bilər. "Bileti dəyərindən baha satdıqda, alıcı ilə düzgün rəftar etmədikdə, "Məsuliyyətli Satıcı" proqramının şərtlərinə əməl etməyəndə əvvəlcə xəbərdarlıq edilir, təkrar baş verdikdə isə sertifikat blok edilir". Bəzi hallarda isə sertifikat dərhal ləğv edilir. Bura insanları uduşlarda aldatmaq, biletlərə müdaxilə olunması kimi hallar aiddir.

Hazırda 1700-ə yaxın agent "Azərlotereya"nın təşkil etdiyi sertifikasiya prosesindən keçib və lotereya oyunlarının satışını həyata keçirmək üçün müvafiq sertifikatla təmin edilib.

Nəhayət, "Poz-Qazan" biznesinin daha bir üstünlüyü odur ki, bu biznesi reklam və ya təbliğ etməyə ehtiyac yoxdur. "Azərlotereya"nın həyata keçirdiyi marketinq və təbliğat aksiyaları bütün məntəqələrə diqqəti artırır. "Azərlotereya" marketinq fəaliyyətinin düzgün tənzimlənməsi və idarəsi üçün marketinq strategiyasına xüsusi önəm verir. Markanın və məhsulun dəyərini formalaşdırmaq, analizlərin nəticəsində fəaliyyətin doğru təşkil edilməsi istiqamətində televiziya və radio, eləcə də rəqəmsal sahədə aktiv reklam yerləşdirilməsi, həmçinin outdoor çalışmaları (billboard, scroller, rəqəmsal monitorlar) böyük əhəmiyyət daşıyır", - deyə şirkətin marketinq üzrə meneceri Nərmin Yusifzadə bildirir.

Qeyd edək ki, "Azərlotereya"nın "Poz-Qazan" ani lotereya biletləri rəsmi distribütor və dilerlər vasitəsilə satılır. Bu bizneslə məşğul olmaq istəyənlər "Azərlotereya"ya müraciət edə bilərlər.

# "Azərenerji" ölkəmizin cənub regionunun enerji təminatını gücləndirir








Respublikamızın cənub regionunun enerji təchizatının yaxşılaşdırılması, istehlakçıların fasiləsiz olaraq keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, enerjisistemin dayanıqlığının və etibarlığının artırılması məsədilə 71 il əvvəl tikildiyindən istismar müddətini çoxdan başa vuran 110/35/6 kilovoltluq "Salyan" Yarımstaniyası "Azərenerji" ASC tərəfindən tam yenidən qurulur. Qeyd edək ki, sisteməhəmiyyətli "Salyan" Yarımstansiyası Salyan, Neftçala və Biləsuvar rayonlarının böyük hissəsini elektrik enerjisi ilə təmin edir.

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı qurğu yenidən qurulur, ərazidə yeni rəqəmsal idarəetmə mərkəzi tikilir. Yerli SCADA, müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri, sabit və dəyişən cərəyan qurğuları ilə təchiz olunan idarəetmə mərkəzində rayonun perspektiv inkişafını nəzərə alınaraq 35 və 6 kilovoltluq qapalı paylayıcı qurğularda ehtiyat yuvalar yaradılır.

"Salyan" Yarımstansiyasının yenidən qurulması ilə qəzaların qarşısının alınmasına, yarımstansiyadan qidalanan tələbatçıların daha etibarlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına, şəbəkədə texniki itkilərin minimuma endirilməsinə nail olunacaq.

Azercell

abunəçilərinin nəzərinə!

27 mart 2023-cü il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) və fakturalı xətt sisteminin abunəçilərinin istifadəsi üçün nəzərdə tutulmuş "TeleSekretar" və "Mailcell" xidmətləri ləğv ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com),** həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

"KRC SERVİCE" MMC-yə (VÖEN: 1403791111) məxsus tikinti-quraşdırma işləri üzrə verilmiş № İN/L-471/2018 qeydiyyat nömrəli 17.12.2018-ci il tarixli lisenziyanın əlavəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə atası

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə atası

**ZAKİR NƏSİRLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə atası

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Balaxanı Metal Məmulatları" MMC-nin rəhbərliyi və kollektivi "Aqrarkredit" QSC Bank olmayan Kredit Təşkilatının İdarə Heyətinin sədri Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyətinin sədri Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi iş yoldaşları Jalə Orucluya anası

**HƏQİQƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və kollektivi Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənova bacısı

**TURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"TuranBank" ASC-nin rəhbərliyi və kollektivi "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyətinin sədri Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Aparatının rəhbəri Fuad Musayevə anası

**AFAQ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə atası

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdamdan Vaqif Həsənov Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Həmid Bağırov "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Məmməd Musayevə həyat yoldaşı

**AFAQ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirlinin atası

**ZAKİR NƏSİRLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı

**AFAQ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5078
Sifariş 468

Qiyməti 40 qəpik